# Samtsxe-Cavaxeti və Kvemo Kartlidə mövcud olan sosial xidmətlərin əsas tədqiqatı

KƏMIYYƏT VƏ KEYFIYYƏT TƏDQIQATLARI ANALITIK HESABATININ SON İŞ VERSİYASI

10/2022

კვლევა მომზადებულია ევროკავშირის მიერ მხარდაჭერილი პროექტის „სამოქალაქო საზოგადოების გაძლიერება ინკლუზიური და მწვანე პოსტ-კოვიდ აღდგენისთვის“ ფარგლებში, რომელსაც ახორციელებს CENN, და ის, შესაძლოა, არ გამოხატავდეს ევროკავშირის შეხედულებებს.

**კვლევის ავტორი:** სოციალური კვლევისა და ანალიზის ინსტიტუტი (ISSA)

# MÜNDƏRİCAT


**Giriş** .... **4**
**Metodologiya** .... **7**
Kəmiyyət tədqiqatı .... 7
Keyfiyyət araşdırması .... 8
**Əsas nailiyyətlər** .... **9**
Həssas vəziyyətdə olan insanların müəyyən edilməsi .... 9
Gəlirlər .... 20
Xərclər .... 23
Mövcud problemlər .... 23
Covid-19-un əhaliyə təsiri və yerli hakimiyyət tərəfindən yardım .... 27
**Başlıq 2. Təhsil** .... **28**
Məktəbəqədər/ümumi təhsil .... 28
Peşə və ali təhsil .... 30
**Başlıq 3. Bələdiyyə xidmətləri haqqında məlumatlılıq** .... **31**
**Başlıq 4. Sosial və səhiyyə xidmətləri** .... **33**
Sosial xidmətlər .... 33
Səhiyyə xidmətləri .... 40
Səhiyyə və sosial təminat baxımından mövcud olan ehtiyaclar .... 49
Yerli hakimiyyətin və ictimai sektorun rolu .... 50
**Başlıq 5. Başqa xidmətlərdən (Səhiyyə və sosial xidmətdən başqa) faydalanmaq** .... **51**
**Başlıq 6. Xidmətlərin bərabər şəkildə əlçatanlığı** .... **55**
**Başlıq 7. Kommunal infrastruktur** .... **56**
Elektrik enerjisi .... 56
Qaz təchizatı .... 57
Su təchizatı .... 58
İrriqasiya (suvarma) sistemi .... 62
Kanalizasiya sistemi .... 64
Tullantıların daşınması .... 66
Təmizlik .... 68
**Başlıq 8. İqlim dəyişikliyi və ondan yaranmış sağlamlıq problemləri** .... **71**
**Başlıq 9. Təhlükəsizlik** .... **76**
**Başlıq 10. Elektron xidmətlər** .... **79**
**Başlıq 11. Bələdiyyə hakimiyyətinin idarəedilməsi və ictimai fəallıqlarda iştirakı** .... **81**
Yerli özünüidarə səviyyəsində qərarların qəbul edilməsi prosesində vətəndaşların iştirakı .... 81
Yerli özünüidarə strukturları ilə ünsiyyət .... 87
İctimai fəallıqlarda iştirak etmək .... 89
Yerli özünüidarə orqanlarının fəaliyyətindən razılıq .... 91
**Başlıq 12. Vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq** .... **94**
**Başlıq 13. Müsahiblərin bəzi sosial-demoqrafik xüsusiyyətləri** .... **100**

# GİRİŞ

HRBA insan hüquqlarının beynəlxalq hüquq əsasında hazırlanmış konseptual çərçivədir. Bu çərçivədən advokatlaşdırma, eləcə də hüquq və məqsədli proqramların hazırlanması zamanı istifadə olunur[1]. HRBA yanaşması ilə qanunvericilik çərçivəsində, eləcə də mövcud təcrübədə öhdəliklərin, bərabərsizliyin, həssaslığın, diskriminasiya məzmunlu yanaşmaların müəyyən edilməsi mümkündür.

İnsan hüquqlarına əsaslanan yanaşma beş əsas iş prinsipinə söykənir, onlar PANEL (Participation, Accountability, Non-discrimination and Equality, Empowerment, Legality)  adı ilə tanınır.

- **İştirak (Participation)** – İnsanların öz hüquqlarına və rifahına birbaşa təsir edən qərarların qəbulunda iştirak etmək və ya qərar qəbul etmələrinə kömək etmək üçün başqa insanları cəlb etmək hüququ var. İştirak fəal, müstəqil, düşünülmüş və əlçatan olmalıdır. Həmçinin, hədəf qruplara aydın olan dildə və formada məlumat əlçatanlığı da nəzərdə tutulur.

- **Hesabatlılıq (Accountability)** – İnsan hüquqları standartlarının effektiv monitorinqini, eləcə də insan hüquqlarının pozulması faktlarının qarşısının alınması üçün effektiv mexanizmləri nəzərdə tutur.

- **Diskriminasiyanın qadağan edilməsi və bərabərlik (Non-discrimination and Equality)** – Yaş, gender işarəsi, cinsi istiqamət, etnik mənsubiyyət, sağlamlıq vəziyyəti, iqtisadi vəziyyət və ya başqa əlamətlə diskriminasiyanın hər hansı formasının qadağan edilməsi. Öz hüquqlarını həyata keçirən zaman qarşısında əlavə maneələr olan həssas vəziyyətli adamların müəyyən edilməsinə xüsusi aksent edilməlidir.

- **Gücləndirmə (Empowerment)** – İnsanlar və onların hüquqlarını müdafiə edən qruplar öz hüquqları barədə məlumatlı olmalıdırlar və birbaşa onların hüquqlarının həyata keçirilməsinə təsir göstərən siyasət, təcrübə yaradarkən dəstək əldə etməlidirlər.

- **Qanunauyğunluq (Legality)**  - insanın ümumi tanınmış hüquqları insan hüquqlarının müdafiəsi haqqında milli və beynəlxalq qanunların ahənginə uyğun olmalıdır.

2021-ci ildə BMT-nin İnkişaf Fondu (UNDP) tərəfindən aparılmış araşdırma göstərir ki, Gürcüstanın regionlarında, xüsusilə isə kənd tipli məntəqələrdə, əsas sosial xidmətlərin əlçatanlığı məhduddur. Aztəminatlı və marjinal kənddə yaşayan icmaların əsasən kommunal xidmətlərə (mərkəzləşdirilmiş su, qaz təchizatı, kanalizasiya və irriqasiya (suvarma) sistemi, tullantıların daşınması, təmizlik və s.) əlçatanlığı yoxdur. Həmçinin, səhiyyə xidmətlərinin əlçatanlığı və keyfiyyətli təhsil almaq imkanı problemlidir. Qeyd olunan araşdırmada qeyd olunub ki, sosial və səhiyyə xidmətlərindən faydalanmağın ən aşağı göstəricisi məhz Samtsxe-Cavaxeti və Kvemo Kartlidədir. Sorğuda iştirak edənlərin əksəriyyəti bu xidmətlərdən ya faydalanmır ya da faydalana bilmir:

- Bələdiyyə sosial xidmətləri: Kvemo Kartli (65%), Samtsxe-Cavaxeti (63%)
- Bələdiyyə səhiyyə xidmətləri: Kvemo Kartli (94%), Samtsxe-Cavaxeti (93%)

Araşdırma nəticəsində aydın olub ki, müsahiblərin əksəriyyəti mərkəzi su təchizatından istifadə edir (78,6%). Sorğuda iştirak edənlərin yarıdan çoxu (55,1%) qəsəbələrində mərkəzi kanalizasiya sisteminin olmadığını qeyd

1 European Commission, Applying the Human Rights Based Approach to international partnerships, Brussels, 30.6.2021 - https://international-partnerships.ec.europa.eu/system/files/2021-07/swd-2021-human-right-based-approach_en.pdf

edir. Qəsəbələrində mərkəzi kanalizasiya sistemi işləyənlərin əksəriyyəti (95%) isə bildirir ki, onun evi həmin sistemə qoşulub. Digər tərəfdən, qeyd olunan tədqiqat kommunal infrastrukturdan istifadənin problemli təcrübəsini müəyyən edir. Qeyd olunub ki, mərkəzi su təchizatından istifadə edənlərin beşdə biri Samtsxe-Cavaxetidə (18%), eləcə də Kvemo Kartlidə (20%) su təchizatı qrafikindən demək olar həmişə narazıdır[2].

Əhaliyə, həmçinin, Samtsxe-Cavaxeti və Kvemo Kartli regionlarında yaşayanlara dövlət (mərkəzi) və bələdiyyə xidmətinin effektiv çatdırılması yenidən problem olaraq qalır.Vətəndaşların yerli özünüidarənin qərar qəbul etmə prosesinə qoşulması aşağı səviyyədədir. Yerli özünüidarə indeksinə görə, əgər Kvemo Kartlidə 2019-cu ilin göstəriciləri ilə vətəndaşların yerli özünüidarə prosesinə qoşulması 28%-ə bərabər idisə, 2021-ci ildə bu göstərici 15%-ə qədər azalıb. Bu nəticə meriya və Bələdiyyə Məclisinin fəaliyyətinə qoşulmanın azalması ilə bağlıdır. Meriya: 2019 - 22%, 2021 - 9%, Bələdiyyə Məclisi: 2019 - 47%, 2021 - 34%. Samtsxe-Cavaxetidə isə vətəndaşların iştirakı ilə bağlı ümumi qiymətləndirmə son 2 il ərzində dəyişməyib (2019-15%, 2021-15%). Qeyd olunan regionda əhalinin meriya və Bələdiyyə Məclisi fəaliyyətində iştirakı dəyişir – Meriya: 2019 - 9%, 2021 - 13%, Bələdiyyə Məclisi: 2019 - 37%, 2021 - 21%. Bu kimi nəticələr sübut edir ki, vətəndaşlar əsasən qərar qəbul etmə prosesində iştirak etmirlər. Vətəndaş aktivizmi və ictimai proseslərə qoşulmaq səviyyəsi aşağıdır[3].

Qeyd olunan nəticələrə koronavirus pandemiyası da təsir göstərib. Fövqəladə vəziyyətə və karantinə görə, vətəndaşların yerli özünüidarədə iştirakı çətinləşmişdi. 2020-ci ildə Gürcüstan Özünüidarələri üzrə Milli Assosiasiyası tərəfindən aparılan "Covid-19 pandemiyası şəraitində bələdiyyənin idarəetmə problemləri" araşdırması göstərir ki, pandemiya şəraitində ümumi məntəqə toplantısı, merin Məsləhət Şurası kimi vətəndaş iştirakı vasitələri tam fəaliyyət göstərmirdi. İctimai toplanmanın qadağan edilməsi ümumi məntəqə toplantısının dəvət edilməsinə mane oldu. İctimai nəqliyyatın dayandırılmasına görə, merin Məsləhət Şurasının üzvlərinin toplanması da çətinləşdi. Digər tərəfdən, araşdırmada qeyd olunub ki, pandemiya şəraitində elektron vasitələrin işləməsi baxımından problemlər yaranmayıb[4].

Əhalinin iştirak etmək vacibliyi, vətəndaşların ehtiyac və tələblərinə əsaslanan tam xidmətlərin təklif edilməsi, yalnız mərkəzi idarəetmə şəraitində mümkün olmaması səbəbindən yaranıb. Xüsusilə səlahiyyətlərin mərkəzi və yerli səviyyələr arasında bölünməsi mühümdür. Hazırda qüvvədə olan qanunvericiliklə müxtəlif səlahiyyətlər yerli özünüidarə vahidliklərinə verilib[5]. Məsələn, "İctimai sağlamlıq haqqında" qanunun 36-cı maddəsi verilmiş xidmətləri təsvir edir: dezinfeksiya işlərinin aparılması, həmçinin, təhsil müəssisələri və ictimai əhəmiyyət daşıyan müəssisələrdə sanitar normaların qorunmasına nəzarət, yoluxucu xəstəliklərin yayılmasına qarşı tədbirlər aparılması və s.; Qeyd olunan səlahiyyətlər üçün lazımı maddi resursların miqdarı isə Gürcüstanın müvafiq ilinin dövlət büdcəsi haqqında qanunla müəyyən olunur.

Sosial xidmətlərin əldə edilməsi baxımından vətəndaş cəmiyyəti təşkilatlarının rolu mühümdür. Onlar əhalinin tələblərini qane etməyə dəstək ola bilərlər. Koronavirusun yaratdığı pandemiya mövcud reallığı daha da çətinləşdirdi. Xüsusilə etnik azlıq, fiziki imkanları məhdud olan şəxslər, məcburi köçkünlər, yaşlılar və s. kimi insanlar üçün vəziyyət çətinləşdi. Pandemiya bir daha təsdiq etdi ki, yerli vətəndaş cəmiyyətinin formalaşması nə dərə-

2 BMT-nin İnkişaf Fondu, "Gürcüstan əhalisinin ictimai xidmətdən narazılıq səviyyəsi üzrə tədqiqat", 2021

3 Yerli özünüidarə indeksi, http://www.lsgindex.org/ge/analysis/

4 Gürcüstanın Milli Özünüidarə üzrə Assosiyasiya (ATEA), „COVİD-19 pandemiyası şəraitində bələdiyyənin idarəetmə problemləri", 2020

5 Yerli Özünüidarə Məcəlləsinə görə, "bələdiyyəyə həvalə edilmiş səlahiyyət dövlət/Muxtar Respublika hakimiyyət orqanının səlahiyyətidir. Bu bələdiyyəyə qanun və ya Gürcüstan qanunvericiliyinə uyğun olaraq bağlanmış müqavilə əsasında, müvafiq maddi və maliyyə təminatı ilə" verilib. (Gürcüstan üzvi qanunu - Yerli Özünüidarə Məcəlləsi, maddə 15, https://matsne.gov.ge/ka/document/view/2244429?publication=62

cədə mühümdür. Bu cəmiyyət yerli siyasətin hazırlanması və idarəsində iştirak edəcək, hüquqlara əsaslanan siyasətin yaradılmasına dəstək olacaq və əhali üçün, xüsusilə isə həssas vəziyyətdə olan adamlar üçün sosial xidmətlərin bərabər əlçatanlığını təmin edəcək.

Araşdırma hədəf regionların konkret bələdiyyələrində sosial, səhiyyə və kommunal xidmətlərin təmin edilməsi baxımından mövcud olan vəziyyətin öyrənilməsi ilə bağlı idi. Eləcə də vətəndaş cəmiyyəti təşkilatları və yerli özünüidarənin fəaliyyəti, əhalinin onların fəaliyyətinə qoşulması da müzakirə olundu.

# METODOLOGİYA

Araşdırmanın məqsədi Samtsxe-Cavaxeti və Kvemo Kartlidə sosial xidmətlərin təmin edilməsində mövcud olan vəziyyətin araşdırılmasıdır. Həmçinin, bu proses vətəndaş cəmiyyətinin, təşkilatların və yerli özünüidarənin qoşulmasını müəyyən etmək mühüm idi. Araşdırma çərçivəsində hədəf bələdiyyələrdə yaşayan adamların müxtəlif sosial, səhiyyə, kommunal xidmətlərə əlçatanlığı, eləcə də onların bir tərəfdən yerli özünüidarənin, digər tərəfdən isə vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətinə qoşulması qiymətləndirildi.

Araşdırma həm kəmiyyət, həm də keyfiyyət komponentlərini əhatə etmişdir.

## Kəmiyyət araşdırması

Araşdırmanın hədəf regionları Samtsxe-Cavaxeti və Kvemo Kartlidir. Araşdırma Samtsxe-Cavaxetinin 2 bələdiyyəsini (Axaltsixe və Ninotsminda) və Kvemo Kartlinin 6 bələdiyyəsini (Marneuli, Dmanisi, Bolnisi, Tsalka, Tetritskaro, Qardabani) əhatə etmişdir. Keyfiyyət araşdırması birbaşa sorğu metodu ilə aparılıb. Sorğuda hədəf bələdiyyələrdə yaşayan 18 yaş və ya yuxarı olan fərdlər iştirak ediblər. Ehtimal nümunəsi metodundan istifadə olunub, konkret olaraq, Samtsxe-Cavaxeti və Kvemo Kartli bölgələrinin bələdiyyələrində ilkin təbəqələşmə üsulu ilə klaster seçimi edilib. Hər iki regionda 5%-dən az xəta olsun deyə (95%-lik etibar səviyyəsi), Samtsxe-Cavaxeti və Kvemo Kartlidə bərabər 600-600 müsahibə aparılıb. Ayrıca bələdiyyədə sorğuda iştirak edən şəxslərin sayı isə bələdiyyə əhalisinin sayına uyğun olaraq müəyyən edilib.

Stratifikasiyadan sonra klasterizasiya prosesi həyata keçirildi. Onun çərçivəsində ilkin (PSU), ikincil (SSU) və yekun seçmə nöqtələri (FSU) ayrıldı:

- İlkin seçim nöqtəsi: bələdiyyələrin kənd və şəhər yaşayış qəsəbələrində siyahıyaalma məntəqələri;
- İkincil seçim nöqtəsi: Ev təsərrüfatı;
- Yekun seçim nöqtəsi: 18 və daha yuxarı yaşlı adamlar.

Ev təsərrüfatları mənzillər/evlər arasında məsafəni nəzərə almaqla seçilib. Bu kənd və şəhər tipli məntəqələrdə bir-birindən fərqlənirdi. Müsahiblərin ev təsərrüfatlarından seçilməsinə gəldikdə isə ehtimal seçim metodundan istifadə olundu. Konkret olaraq, müsahiblər Kiş cədvəlindən (Kish Table) istifadə etməklə seçilib.

Tədqiqat çərçivəsində ümumilikdə 1200 müsahiblə sorğu aparılıb (Bax. Cədvəl a).

**Cədvəl a**

| | Müsahibələrin sayı | Xəta<br>(95% etibarlılıq səviyyəsi) |
|---|---|---|
| **Samtsxe-Cavaxeti** | | |
| Axaltsixe | 380 | |
| Ninotsminda | 220 | |
| **Cəmi Samtsxe-Cavaxetidə** | **600** | **4%** |
| **Kvemo Kartli** | | |
| Bolnisi | 110 | |
| Qardabani | 165 | |

| | Müsahibələrin sayı | Xəta (95% etibarlılıq səviyyəsi) |
|---|---|---|
| Dmanisi | 40 | |
| Tetritskaro | 45 | |
| Marneuli | 205 | |
| Tsalka | 35 | |
| **Cəmi Kvemo Kartlidə** | **600** | **4%** |
| | | |
| **Cəm** | **1200** | **2.8%** |

Sorğu strukturlaşdırılmış sorğudan istifadə etməklə aparılmışdır. Hədəf regionların etnik tərkibini nəzərə almaqla hazırlanmış anketlər erməni və azərbaycan dilinə tərcümə olunmuşdur.

## Keyfiyyət araşdırması

**Fokus-qruplar:**

Araşdırma çərçivəsində Kvemo Kartlinin altı (Marneuli, Qardabani, Tsalka, Tetritskaro, Bolnisi və Dmanisi) və Samtsxe-Cavaxetinin iki (Axaltsixe, Ninotsminda) bələdiyyəsində yaşayan əhali ilə 8 fokus-qrup keçirilib. Müsahiblər distant, "Zoom" platforması vasitəsi ilə fokus-qruplarda iştirak ediblər.

4 fokus-qrup etnik gürcülərlə (Tetritskaro, Dmanisi, Bolnisi, Axaltsixe), 4 isə etnik azlıqlarla – azərbaycanlılar (Qardabani, Marneuli) və ermənilərlə (Tsalka, Ninotsminda) aparıldı. Müsahiblər əvvəlcədən tərtib edilmiş seçim formaları vasitəsi ilə seçildilər. Fokus-qrupa düşmək üçün iştirakçılar bir neçə meyarı qane etməli idi. Konkret olaraq, yaşadıqları bələdiyyələrə görə etnik gürcü, erməni ya azərbaycanlı olmalı idilər. İştirakçıların yarısının bələdiyyə, sosial və səhiyyə xidmətlərindən faydalanmaq təcrübəsi olmalı idi; Bir hissəsi kənd, digər hissəsi isə şəhər sakini olmalı idi; Müsahiblərdən təxminən, yarısı həssas vəziyyətdə olan müxtəlif sosial qrup nümayəndələri olmalı idi. Məsələn: aztəminatlılar, fiziki imkanları məhdud şəxslər, məcburi köçkünlər, müharibə veteranları, təqaüd yaşlı insanlar, çoxuşaqlı ailə üzvləri, tək analar və s. Qeyd olunan meyarlardan başqa fokus-qrupların tərkibi yaş qrupları, işlə təmin edilmə və ailə vəziyyətinə görə rəngarəng idi. İştirakçıların gender balansı qorunurdu. Hər fokus-qrupda təxminən 8 müsahib iştirak edirdi və ümumilikdə, 64 yerli sakin sorğuda iştirak etdi. Hər hədəf bələdiyyədə 1 fokus-qrup keçirildi. Fokus-qruplar təxminən 1 saat 30 dəqiqə davam etdi və onların audio/video materialı qeydə alındı. Görüş başlamazdan əvvəl iştirakçılar araşdırmanın məqsədləri, məlumatların gizliliyinin qorunması haqqında məlumatlı idilər.

**Dərin müsahibələr:**

Araşdırma çərçivəsində 17 dərin ekspert müsahibəsi və 1 qrup müsahibəsi aparıldı. 8 dərin müsahibənin müsahibləri hədəf bələdiyyələrdə fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri idilər. 8 müsahibə yerli hakimiyyət nümayəndələri ilə aparıldı. 1 müsahibənin müsahibi Səhiyyə Nazirliyinin Sosial Müdafiə Siyasəti İdarəsinin rəhbəri idi. Dövlət Qayğıgöstərmə və Trefikinq Qurbanları, Zərərçəkmişlərə Yardım Agentliyinin nümayəndələri ilə qrup halında müsahibə aparıldı. Müsahibədə Marneuli, Bolnisi, Axaltsixe və Ninotsminda bələdiyyələrinin sosial işçiləri iştirak etdilər.

Dərin ekspert müsahibələri təxminən 1 saat davam etdi və onların audio/video materialı qeydə alındı. Görüş başlamazdan əvvəl iştirakçılar araşdırmanın məqsədləri, məlumatların gizliliyinin qorunması haqqında məlumatlı idilər.

# ƏSAS NAİLİYYƏTLƏR

**Həssas vəziyyətdə olan adamların müəyyən edilməsi**

Kvemo Kartli və Samtsxe-Cavaxeti bələdiyyə/yerli hakimiyyət nümayəndələri dərin müsahibələr çərçivəsində qeyd edirlər ki, həssas vəziyyətdə olan insanların müəyyən edilməsi, onlara məqsədli yardımlar verilməsi üçün əsasən, "Sosial reytinq balından" istifadə edirlər. Reytinq balı ailəyə sosial həssaslıq keyfiyyətini ölçmək üçün verilir. Müsahiblərin qiymətləndirməsinə görə, səhiyyə xidmətindən faydalanmaq üçün sosial reytinq balı tələb olunmayan onkoloji xəstələr istisnadır.

Hədəf bələdiyyələrdə fəaliyyət göstərən vətəndaş sektoru nümayəndələrinin fikrincə qeyri-gürcülərin sıx məskunlaşdığı regionlarda həssaslığın əlavə meyarı olaraq gürcü dilini bilməmək/müvafiq dərəcədə bilməmək hesab oluna bilər. Müvafiq olaraq, gürcü dilini bilməyən/müvafiq dərəcədə bilməyən etnik azlıqlar həssas vəziyyətdədirlər. Bu ictimaiyyətlə ünsiyyət və inteqrasiya problemi yaradır. Qeyd olundu ki, Marneulidə yaşayan etnik azlıqların mühüm hissəsi türk və azərbaycan mənbələrindən məlumat alırlar. Bu onların Gürcüstanda yadlaşmasını daha da dərinləşdirir. İnteqrasiyanın aşağı səviyyədə olması, öz növbəsində məhrumiyyətlərlə bağlı hadisələrə səbəb olur (Məsələn, işsizlik, yoxsulluq, emiqrasiya və s.). Kvemo Kartli regionunun sosial işçiləri azərbaycanlı, yetkinlik yaşına çatmamış qızları həssas vəziyyətdə olan adamlar olaraq hesab etdilər. Yerli icma və ənənə onları erkən evliliyə məcbur edir. Bu isə onlardan təhsil və iqtisadi müstəqillik imkanını alır.

**Əhalinin sosial və iqtisadi problemləri**

Vətəndaş sektoru nümayəndələrinin fikrincə etnik azlıqlarda gürcü dilini öyrənmək istəyənlərin sayı çoxdur. Lakin belə imkanlar dövlət/pulsuz proqramlar çərçivəsində azdır (1+4). Dövlət proqramı yalnız ali təhsil almaq istəyən qeyri-gürcü gənclərə xidmət göstərir. Keyfiyyət araşdırmasında, konkret olaraq fokus-qruplarda əsas sosial və iqtisadi problem olaraq işsizlik, yoxsulluq, ilkin istifadə məhsullarının (ərzaq, dərmanlar) qiymətinin artması, kommunal vergilərin artırılması qeyd olundu. Etnik azlıq nümayəndəsi olan iş qabiliyyətli əhali, xüsusilə gənclər, işlə təmin olunmaq və işləmək məqsədi ilə xaricə gedirlər. Tbilisidəki etnik gürcü gənclər, xüsusən də ali təhsilli gənclər miqrasiyaya üstünlük verirlər.

Fokus-qruplarda iştirak edən etnik azlıqların bir hissəsinin qiymətləndirməsinə görə, gürcülərlə müqayisədə onların işlə təmin edilmək imkanı daha azdır. Buna səbəb olaraq isə onların sosial inteqrasiyasının aşağı səviyyədə olması qeyd olunub. Əsas səbəb gürcü dilini pis səviyyədə bilmək və ya heç bilməməkdir.

Fokus-qruplarda əhalinin əsas gəlir mənbəyi qeyd olundu: dövlət və özəl xidmətlərdə işləməklə əldə olunan əməkhaqqı və dövlət sosial yardımları; Müzakirələrdə iştirak edən aztəminatlı şəxslər qeyd etdilər ki, şərait olanda birdəfəlik, qeyri-rəsmi olaraq işə başlayırlar, çünki rəsmi iş halında aztəminatlı statusunu, az, amma stabil gəliri itirmək məcburiyyətində qalırlar.

Bir qayda olaraq, həssas vəziyyətdə olan adamların adekvat əməkhaqqı olan iş tapmaq üçün müvafiq bilik, ixtisas və əlaqələri yoxdur.

Kəmiyyət araşdırmasının göstəricilərindən aydın olur ki, hədəf regionların əhalisi subyektiv qavrayışa, eləcə də obyektiv göstəricilərə (ailələrin gəlirləri) görə iqtisadi cəhətdən həssasdır. Konkret olaraq, Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin əksəriyyəti (70%-ə yaxın), Kvemo Kartlidə sorğuda iştirak edən hər ikinci adamın gəliri yalnız qida və geyim almağa xərclənir. Konkret gəlirlərə gəldikdə isə, (Milli Statistika Xidmətinin göstəriciləri ilə) Samtsxe-Cavaxeti və Kvemo Kartli regionlarında ailələrin təxminən 4 üzvdən ibarət olduğunu nəzərə alsaq, belə ailələr üçün yaşayış minimumu ayda təxminən 340 laridir. Ailələrin orta gəlirləri əsasında (MEAN Samtsxe-Cavaxetidə 1070 lari, Kvemo Kartlidə 893 lari təşkil edir) nəticə çıxara bilərik ki, hədəf regionların əhalisinin əksəriyyətinin gəliri yaşam minimumunu aşır. Lakin iqtisadi vəziyyət orta səviyyədən yuxarı qalxmır.

Kəmiyyət araşdırması göstərdi ki, Samtsxe-Cavaxetinin əhalisinin işlə təmin edilmiş hissəsi (45%) Kvemo Kartli regionunda (35%) işlə təmin edilənlərinn (özünüiməşğullar da daxil olmaqla) sayını mühüm dərəcədə aşır. Müvafiq olaraq, işsizlərin sayı Kvemo Kartlidə (21%) Samtsxe-Cavaxetidən (16%) daha yüksəkdir. Qeyd etmək lazımdır ki, işsizliyin bu göstəricisi Milli Statistika Xidmətinin 2021-ci ilə olan göstəricilərinə (Kvemo Kartli-25%; Samtsxe-Cavaxeti – 15%) yaxındır.

Belə ki, kəmiyyət araşdırmasının nəticələri göstərir ki, Samtsxe –Cavaxetidə müsahiblərin 6%-nin, Kvemo Kartlidə sorğuda iştirak edənlərin isə 18%-nin ailələri aztəmiatlı statusu daşıyırlar. Bundan əlavə, Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin 0,5%, Kvemo Kartlidə isə 3%-i bildirir ki, onların ailələri məcburi köçkün statusu daşıyır.

**Covid-19-un əhaliyə təsiri**

Fokus-qrupların hesab etdiyinə görə, Covid-19 əhalinin iqtisadi vəziyyətinin mühüm dərəcədə pisləşməsinə səbəb oldu. Pandemiya xüsusilə əhalinin xidmət sahəsində işləyən qisminə təsir göstərdi. Pandemiya başqa sahələrə də mənfi təsir göstərdi: a) Kənd təsərrüfatı, çünki məhsulun satışında problem yarandı və b) təhsil, çünki distant təhsil almaq təhsilin keyfiyyətini pisləşdirdi.

Fokus-qrupların iştirakçısı, həssas vəziyyətdə olan adamlar qeyd etdilər ki, pandemiya zamanı yerli hakimiyyətdən birdəfəlik yardım alırdılar, bu yardımlar pul, yerində çatdırılma ilə qida məhsulları ilə təminat və s. idi.

Ümumilikdə fokus-qruplarda iştirak edən, həssas vəziyyətdə olan adamlar covid-19 pandemiyası zamanı yerli hakimiyyət tərəfindən götərilən diqqətdən razıdırlar. Ancaq müsahiblərin bir qismi pandemiya zamanı hökumət tərəfindən göstərilən yardımdan daha çox ehtiyacla qarşılaşdıqlarını qeyd ediblər.

## Təhsil

Kəmiyyət araşdırması nəticəsində aydın oldu ki, araşdırılmış bələdiyyələrin əksəriyyətində məktəbəqədər, eləcə də ümumtəhsil müəssisələri fəaliyyət göstərir (dövlət uşaq bağçaları – 74%, dövlət məktəbləri -98%), ancaq bu institutlardan yararlanmaq göstəricisi yüksək deyil (Ona görə ki, böyük ehtimalla, sorğuda iştirak edən müsahiblərin ailələrində bağça ya məktəb yaşlı uşaqlar yaşamırlar).

Hətta məsələyə regional nöqteyi-nəzərdən baxanda da ümumi tendensiya saxlanılır. Bununla belə, qeyd etmək

lazımdır ki, Kvemo Kartlidə ictimai bağçanın olması Samtsxe-Cavaxeti (84%) ilə müqayisədə çox aşağıdır (64%). İctimai dövlət bağçası xidmətinin göstəricisi Samtsxe-Cavaxetidə 18%-ə bərabərdir, Kvemo Kartlidə isə 14%-dir. Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin 41%-i ictimai məktəb xidmətindən faydalanır, Kvemo Kartlidə isə bu göstərici 44%-dir. İctimai uşaq bağçası ya ictimai məktəbdən faydalanan müsahiblərin əsas qismi xidmətdən razıdır.

Məktəbəqədər və ümumtəhsil müəssisələrindən fərqli olaraq, sorğuda iştirak edənlərin əksəriyyəti qeyd edir ki, onların bələdiyyəsində/şəhərində nə peşə təhsil (59%), nə də dövlət maliyyəsi olan ali təhsil müəssisəsi (68%) yoxdur. Peşə və ali təhsil müəssisələri ilə Samtsxe-Cavaxeti Kvemo Kartlidən daha çox fərqlənir. Doğrudur, faydalananların sayı azdır (Peşə təhsili – 2,7%, N=13; Ali təhsil müəssisəsi – 8%, N24), amma əsasən, razıdırlar (Peşə təhsili – N-8, Ali təhsil müəssisəsi – N15). Narazılıq səbəbləri arasında ayrıca hallar müəyyən edildi: Pedaqoqların ixtisaslı olub olmaması, təhsil proqramının az olması, qeyri-aktual təhsil proqramları, idarəetmə, bürokratiya, təhsil haqqı.

## Bələdiyyə xidmətləri haqqında məlumatlılıq

Fokus-qruplarda bələdiyyə xidmətləri haqqında məlumat əldə etmənin bir neçə əsas mənbəsi qeyd olundu: media vasitələri, əsasən yerli tele və radio yayımçılar, sosial media, xüsusilə "Facebook", bələdiyyələrin rəsmi veb-səhifələri və qeyri-formal əlaqələr (qohumlar, qonşular və s. arasında məlumat mübadiləsi).

Sosial və səhiyyə xidmətləri haqqında məlumat çatışmazlığı, xüsusilə etnik azlıqlarda – azərbaycanlılar, etmənilər arasında hiss olunur. Çünki dil baryeri və inteqrasiyanın aşağı səviyyədə olmasına görə, məlumat almaq şəraiti gürcülərlə müqayisədə aşağıdır.

Kəmiyyət araşdırması çərçivəsində sorğuda iştirak edənlərin yalnız 17%-i Qadın Otaqları haqqında məlumata sahibdir, onlardan 5% qeyd olunan xidmətdən faydalanıb (Samtsxe-Cavaxeti-3%, Kvemo Kartli – 8%). Bu xidmət haqqında məlumatlandırılma səviyyəsi aşağıdır, çünki müsahiblərin əksəriyyəti Qadın Otaqlarından faydalanan şəxsləri tanımırlar (73%).

## Sosial xidmətlər

Kəmiyyət araşdırması nəticəsində müəyyən olunub ki, müsahiblərin əsas qismi (81%) bələdiyyənin sosial xidmətlərindən faydalanmır. Dövlət (mərkəzi) xidmətlərindən kifayət qədər az adam (26%) faydalanır. Ümumi tendensiya hər iki regionda – Samtsxe-Cavaxeti və Kvemo Kartlidə də saxlanılır. Heç bir bələdiyyə (Samtsxe-Cavaxeti 88%, Kvemo Kartli – 75%) sosial xidmətindən faydalanmayan müsahiblərin sayı çoxdur. Müsahiblərin təxminən bərabər sayı (Samtsxe-Cavaxeti – 24%, Kvemo Kartli – 29%) dövlət xidmətlərindən yararlanmır. Araşdırmada iştirak edən şəxslər tərəfindən qeyd olunan bələdiyyə sosial xidmətləri arasında nisbətən, birdəfəlik (pul və ya başqa növ) yardımlarla (6%) və aztəminatlı uşaq, yeni doğulmuş körpələrə dəstək proqramından (4%) istifadə edənlər qrupu müəyyən edildi; Dövlət (mərkəzi) xidmətlər arasında isə yaşa görə təqaüd (29%), dövlət tibb sığortası (20%), kommunal subsidiyalar (18%) müəyyən edilib. Müsahiblər əsasən hər hansı yardımı vaxtında alırlar (bələdiyyə və ya mərkəzi yardımlar) və göstərilən xidmətlərdən razıdırlar (Bələdiyyə xidmətlərindən təxminən 63%, dövlət (mərkəzi) ximətlərdə isə təxminən 70% razıdır). Dövlət xidmətlərindən istifadə edən halda, qeydiyyat prosedurları baxımından Samtsxe-Cavaxeti, eləcə də Kvemo Kartlidə problemli kateqoriya olaraq

fiziki imkanları məhdud şəxslərin (eləcə də uşaqların) təqaüd alma prosesi qeyd olunub. Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin 27%-i və Kvemo Kartlidə 33%-ü qeyd edir ki, qeydiyyat proseduru çox çətin və ya çətin idi.

## Səhiyyə xidmətləri

Kəmiyyət araşdırması çərçivəsində sorğuda iştirak edənlərin əksəriyyəti nə bələdiyyə (89%), nə də dövlət (mərkəzi) (54%) səhiyyə xidmətlərindən faydalanmır. Hər iki regionda – Samtsxe-Cavaxetidə və Kvemo Kartlidə ümumi tendensiya saxlanılır. Heç bir bələdiyyə (Samtsxe-Cavaxeti -94%, Kvemo Kartli-85%) ya dövlət (Samtsxe-Cavaxeti- 61%, Kvemo Kartli-47%) səhiyyə xidmətindən faydalanmayanların sayı çoxdur. Araşdırmada iştirak edən şəxslər tərəfindən qeyd olunan bələdiyyə xidmətləri arasında pulsuz dərmanlarla təminat (7%), dövlət xidmətləri arasında isə kənd həkimi (19%) və təcili tibbi yardım (14%) müəyyən edildi. Müsahiblər səhiyyə xidmətlərini də vaxtında alırlar və əsasən, bələdiyyə (təxmini göstərici – 65%), eləcə də dövlət (mərkəzi) səviyyəsində (təxmini göstərici – 72%) göstərilən xidmətlərdən razıdırlar. Autizm spektri pozulmuş uşaqların bərpası və psixi sağlamlıq xidmətləri problem olaraq qeyd olundu. Onların qeydiyyat prosedurları nisbətən çətindir və müsahiblərin razılıq səviyyəsi də aşağıdır.

Fokus-qruplar göstərdi ki, hədəf bələdiyyələrin nümayəndələri sosial və səhiyyə bələdiyyə xidmətlərindən ümumilikdə razıdırlar. Xidmətlərdən faydalanmaq üçün mövcud prosedurları keçmək mühüm çətinliklərlə əlaqədardır.

## Sosial və səhiyyə istiqamətində mövcud olan ehtiyaclar və problemlər

Fokus-qruplara əsasən, hədəf bələdiyyələrin əhalisinin mühüm ehtiyacı ixtisaslı tibb mütəxəssisindən məsləhət almaqdır. Həssas vəziyyətdə olan müsahiblərdə müəyyən edilən daha bir ehtiyac vacib dərmanların əlçatanlığı ilə əlaqədardır.

Fokus-qrupların bələdiyyənin səhiyyə xidmtələrindən istifadə etmiş iştirakçıları qeyd etdilər ki, əməliyyatdan sonra bərpa maliyyələşdirilmir və bu da əhali üçün mühüm xərclərlə əlaqədardır. Araşdırma göstərir ki, uşaqların erkən inkişafı baxımından bələdiyyələrdə müəyyən xidmətlərin tətbiqinə ehtiyac var. Onlar arasında loqoped xidməti qeyd olundu, xüsusi təhsilə ehtiyac duyan şagirdlər üçün psixoloq və terapevtə də ehtiyac var. Çoxuşaqlı ailələrdə şagirdlərin məktəb ləvazimatları ilə təchiz edilməsi də qeyd olunub.

Fokus-qrup iştirakçıları mövcud ehtiyacları mühüm hesab edirlər. Onların bələdiyyə proqramları ilə təmin olunmur, gələcək üçün nəzərə alınmalıdır və büdcədə bunun üçün pul ayrılmalıdır.

Qeyd edək ki, fokus-qruplarda iştirak edən etnik azlıq nümayəndələrinin əsas qisminin sosial və səhiyyə xidmətlərindən istifadə etmək baxımından problemi yaranmayıb. Ancaq etnik azlıqlarla aparılmış fokus-qruplarda belə fikir müəyyən edildi ki, mövcud xidmətlər gürcülər üçün daha çox əlçatandır nəinki qalan etnik qruplar üçün. Bunun əsas səbəbi gürcü dilini bilməmək və ya pis bilməkdir. Müsahiblər qeyd etdilər ki, bərabər əlçatanlıq problemi daha çox böyük nəsildə var, çünki gürcü dilini bilmirlər. Xidmətdən faydalanmaq üçün gürcü dilində ərizə hazırlamaq və sənədlər toplamaq lazımdır. Etnik azlıqlar gürcü dilini bilən adamın köməyi olmadan çox çətinlik çəkirlər. Fokus qruplarda iştirak edən etnik gürcülər xidmətlərin bərabər əlçatanlığından danışmaqda çətinlik çəkdilər. Çünki bu məsələ onlar üçün aktual deyil.

Dərin müsahibələr çərçivəsindəki, hədəf bələdiyyələrin yerli hakimiyyət nümayəndələrinin sözlərinə görə, əhalinin rəsmi olaraq həssaslıq statusu olan qismi (müvafiq reytinq balı olmadığına görə) real olaraq müxtəlif yardımlara ehtiyac duyur. Xüsusilə də işlə təmin etmə və səhiyyə xidmətəri istiqamətində ehtiyac var. Səhiyyə xidmətləri üçün ayrılmış vəsait əhalinin ehtiyaclarını tam qarşılamaq üçün kifayət etmir. Bələdiyyə büdcəsi artırılmalıdır. Bu xüsusilə əməliyyatdan sonrakı dövrdə dərmanlarla müalicənin təmin edilməsinə aiddir.

Kvemo Kartlidə işləyən sosial işçilər qeyd ediblər ki, xidmətlərdən faydalanmaq baxımından vətəndaşın xidmətdən faydalanan zaman keçməli olduğu prosedurların çox olması maneə yaradır.

Yerli hakimiyyət nümayəndələri qeyd edirlər ki, əhali hansısa xidmətdən yararlanmaq istəyini bildirmək əvəzinə maddi yardım almaq üçün ərizə verməyə üstünlük verir.

Yerli hakimiyyət, eləcə də vətəndaş sektoru nümayəndələri bələdiyyələrdə sosial xidmət, səhiyyə, infrastruktur, təhsil və kommunal sahələrdə olan hansısa standartı qeyd edə bilmir. Onların sözlərinə görə, bələdiyyələr yazılmış bələdçilərlə hərəkət etmirlər və spontan olaraq hazırlanmış plana görə, imkan çərçivəsində əhaliyə yardım göstərməyə çalışırlar.

## Başqa sosial problemlər

Fokus-qruplarda gənclərin boş vaxtlarından səmərəli istifadə etmək problemi də qeyd olundu. Bu problemin həllində yerli hakimiyyətin dəstəyi mühümdür. Eləcə də bələdiyyə fərqlənən və motivasiyalı gənclərə dəstək olmalıdır. Bu təhsil haqqının qarşılıqlı ödənməsi, yaşayış yeri ilə təmin etmək və s. ola bilər;

Fokus-qrup iştirakçılarının qiymətləndirməsinə görə, bələdiyyə işlə təmin etməyə dəstək olan proqramlar hazırlamalıdır, məsələn, potensial işlə təmin edənlərlə əlaqə saxlasınlar, işlə təmin etmə forumları təşkil etsinlər və s. Müsahiblər qeyd edirlər ki, bu tipli fəallıqlar formal xarakter daşımamalıdır və real nəticə əldə etməyə istiqamətlənməlidir.

## Kommunal infrastruktur

Kəmiyyət araşdırması müsahiblərinin əksəriyyətinə (97%) faktiki olaraq 24 saat ərzində elektrik enerjisi verilir (Samtsxe-Cavaxeti – 98%, Kvemo Kartli – 93%). Onun gücü isə qışda və digər mövsümlərdə qənaətbəxşdir.

Araşdırılmalı olan məntəqələrdə mərkəzi qaz borusu, əsasən, fəaliyyət göstərir (Samtsxe-Cavaxeti – 79%, Kvemo Kartli – 88%); Müsahiblərin əksəriyyətinə isə məhz mərkəzləşdirilmiş sistemdən qaz verilir. Qəsəbəsində mərkəzi qaz borusu olmayan müsahiblərin böyük hissəsi ilin bütün fəsillərində qaz balonundan istifadə edir. Ümumilikdə qaz təchizatı xidməti müsbət qiymətləndirilir – müsahiblərin 78%-i razıdır (Samtsxe-Cavaxeti-78%, Kvemo Kartli – 78%);

Kəmiyyət araşdırmasında iştirak edən şəxslərin yarıdan çoxu (53%) ev təsərrüfatının su ilə təmin edilməsi məqsədi ilə evdə (mənzildə) olan kran suyundan istifadə edir (Samtsxe-Cavaxeti – 58%, Kvemo Kartli – 48%), onların onda birindən çoxu isə evdən kənarda yerləşən su şirkətinin ümumi kran suyundan faydalanır. Nəzərə almaq lazımdır ki, əgər Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlər arasında hər beşinci nəfər evdən kənarda yerləşən su şirkətinin ümumi kran suyundan istifadə edirsə, Kvemo Kartlidə bu göstərici 7%-ə qədər azalıb. Digər tərəfdən, Kvemo Kartlidə su təminatı üçün əsasən quyudan istifadə edirlər (19%), Samtsxe-Cavaxetidə quyu

suyundan istifadə edənlərin sayı 1% də deyil. Müsahiblərin 48%-nin qiymətləndirməsinə görə, içməli su demək olar davamlı gəlmir (Samtsxe-Cavaxeti – 39%, Kvemo Kartli – 58%) və əksər hallarda, keyfiyyətsizdir (38%). Ev təsərrüfatının su ilə təmin edilməsi məqsədi ilə verilən suyun miqdarı kifayət qədər, suyun qiyməti isə əlçatan olaraq qiymətləndirildi.

Məlum oldu ki, əksər qəsəbələrədə mərkəzləşdirilmiş irriqasiya (suvarma) sistemi fəaliyyət göstərmir (72%) (Samtsxe-Cavaxeti – 85%, Kvemo Kartli – 67%). Qeyd olunan xidmətdən faydalanan şəxslərin qiymətləndirməsinə görə, sistem düzgün işləyir (67%), onların razılıq səviyyəsi də nisbətən yüksəkdir (45%) (Samtsxe-Cavaxeti – 44%, Kvemo Kartli – 45%).

Müsahiblərin əksəriyyəti irriqasiya sistemi kimi, mərkəzi kanalizasiya sisteminin də olmadığını qeyd edir (65%) (Samtsxe-Cavaxeti-52%, Kvemo Kartli – 78%). Müsbət təcrübəsi olan müsahiblərin 90%-nin evi qeyd olunan sistemə qoşulub (Samtsxe-Cavaxeti- 96%, Kvemo Kartli – 77%). Qiymətləndirməyə görə, sistem qaydasında işləyir və istifadəçilərin əksəriyyəti mərkəzləşdirilmiş kanalizasiya sistemindən razıdır (71%) (Samtsxe-Cavaxeti – 78%, Kvemo Kartli – 52%).

Sorğuda iştirak edənlərin 92%-nin təcrübəsinə görə, onların qəsəbəsindən/məntəqəsindən tullantılar daşınır (Samtsxe-Cavaxeti- 99%, Kvemo Kartli – 85%); Demək olar hər üçüncü müsahib qeyd edir ki, tullantılar hər ay daşınır (Samtsxe-Cavaxeti – 34%, Kvemo Kartli – 29%). Xidmətən faydalanan sorğu iştirakçılarının 73%-i xidmətdən razıdır.

Hər üçüncü müsahib qeyd edir ki, onların qəsəbəsində/məntəqəsində küçələri təmizləyirlər, daha artığı, 42%-in qiymətləndirməsinə görə, bu gündəlik baş verir. Küçələrin təmizlənməsində Samtsxe-Cavaxeti (48%) Kvemo Kartlidən (20%) fərqlənir. Qeyd olunan xidmətdən faydalanan 75% xidmətdən razıdır (Samtsxe-Cavaxeti- 79%, Kvemo Kartli – 64%). Narazılığın əsas səbəbi xidmətin keyfiyyəti, gigiyena normalarına riayət olunmaması və tezlik müəyyən olundu.

8 bələdiyyənin hamısında aparılan fokus-qruplarda belə fikir müəyyən olub ki, son illərdə bələdiyyələrdə kommunal və yol infrastrukturu yaxşılaşdırılıb. Ancaq buna baxmayaraq həll olunması yerli əhalinin ümumi vəziyyətini yaxşılaşdıracaq problemlər qeyd olundu. Kənd təsərrüfatına qoşulmuş şəxslər üçün qaydasında işləməyən, kənd təsərrüfatının inkişafına mühüm dərəcədə mane olan suvarma suyu sistemi problemlidir. Eləcə də qaydasında olmayan, bəzi qəsəbələri ekoloji təhlükə qarşısında qoyan kanalizasiya sistemi də problemlidir.

8 bələdiyyədə fokus-qrup iştirakçıları qeyd etdilər ki, ictimai müəssisə/məkanlar fiziki imkanları məhdud şəxslər üçün adaptasiya olunmayıb; Müsahiblərin bir qismi qeyd etdi ki, son dövrdə tikilmiş ictimai müəssisələr hərəkət qabiliyyəti məhdud olan şəxslər üçün adaptasiya olunub. Lakin müsahiblər üçün adaptasiyanın mövcud standartlara nə dərəcədə uyğun olduğu məlum deyil. Şünki adaptasiya edilmiş mühitdən istifadə edən fiziki imkanları məhdud olan şəxs görməyiblər.

## İqlim dəyişikliyi və ondan yaranmış sağlamlıq problemləri

Sorğuda iştirak edən şəxslərin əksəriyyəti (71%) iqlim dəyişikliyi haqqında məlumatlıdır (Samtsxe-Cavaxeti – 74%, Kvemo Kartli – 68%). Müsahiblərin əsas hissəsi ekoloji dəyişiklik baxımından quraqlıqların, yağıntıların və küləklərin tezliyini qeyd edir. Kvemo Kartlidə quraqlıqların tezliyi (27%), Samtsxe-Cavaxetidə isə küləklərin tezliyi (24%) üstünlük təşkil edir.

Sorğuda iştirak edənlərin əsas hissəsi hesab edir ki, iqlim dəyişikliyi sağlamlıqla bağlı müxtəlif tipli infeksiyaların yayılması, virus xəstəliklərinin yaranması/yayılması, xərçəngin, ölüm hallarının artması kimi mənfi nəticələrə səbəb olmur. Ancaq, digər tərəfdən təxminən hər üçüncü müsahib hesab edir ki, iqlim dəyişikliyi ətraf mühitin mənfi dəyişməsi nəticəsində ürək xəstəliklərinin (32%) və insultun (31%) artmasına səbəb olur.

Müsahiblərin əksəriyyəti (60%) iqlim dəyişikliklərini öz regionları üçün mühüm məsələ hesab edirlər (Samtsxe-Cavaxeti- 49%, Kvemo Kartli – 72%). Digər tərəfdən, qeyd etmək lazımdır ki, Samtsxe-Cavaxetidə sorğuda iştirak edən təxminən hər beşinci adam ətraf mühitin dəyişikliklərini mühüm olaraq qiymətləndirir.

## Qəsəbə planlaşdırılması/abadlaşdırılması

Araşdırmada iştirak edən şəxslərin böyük hissəsi (39%) qəsəbələrinin planlaşdırılmasından narazıdır. Samtsxe-Cavaxetidən (35%) daha çox, Kvemo Kartlinin (43%) müsahibləri narazılıqlarını bildirirlər. Müsahiblərin narazılığına səbəb əsasən yolların və səkilərin vəziyyəti, parkların, idman infrastrukturu çatışmazlığı qeyd olundu. Göründüyü kimi, qəsəbənin planlaşdırılması zamanı fiziki imkanları məhdud şəxslərin ehtiyacları nəzərə alınmayıb, çünki müsahiblərin 56%-nin qiymətləndirməsinə görə, fiziki imkanları məhdud şəxslər üçün adaptasiya edilmiş mühit yoxdur, yaxud bilmirlər var ya yoxdur (Samtsxe-Cavaxeti-62%, Kvemo Kartli – 50%); Pandusun olmaması, adaptasiya olunmamış binalar və arabadan istifadə edən şəxslər üçün nəqliyyat problemi var.

## Təhlükəsizlik

Müsahiblərin qiymətləndirməsinə görə, onların qəsəbəsində əhalinin təhlükəsizliyi qorunur (58%) (Samtsxe-Cavaxeti-62%, Kvemo Kartli – 54%). Soğruda iştirak edən şəxslər, əsasən, qeyd edirlər ki, onların yaşadığı mühitdə soyğunçuluq/quldurluq (66%), narkotikdən istifadə (59%), xırda xuliqanlıq (57%), ailədə zorakılıq (61%), erkən evlilik (67%) olmur; Ən aşağı göstərici spirtli içkilərdən istifadə etməkdədir (37%). Məsələnin regional kontekstdə müzakirəsi zamanı da ümumi tendensiya qorunur. Əksəriyyət qeyd edir ki, yuxarıda qeyd olunan təcrübə onların qəsəbəsində yayılmayıb. Həmçinin, müəyyən oldu ki, spirtli içkidən istifadə Kvemo Kartlidə (31%) Samtsxe-Cavaxetidən (13%) daha çox yayılıb. Təhlükəsizliyi təmin edən orqan olaraq əksər hallarda polis nəzərdə tutulur, ancaq hər üçüncü müsahibin fikrincə bu kimi bir nizam-intizamı əhalinin özü yaradır. Samtsxe-Cavaxetidə əhalinin rolu (35%), Kvemo Kartlidən (26%) daha çox aydındır. Samtsxe-Cavaxetidə məhəllə ağsaqqallarını təhlükəsizliyin təmin edilməsi üçün alternativ mənbə olaraq, müqayisədə daha artıq adam qeyd edir (4%) nəinki Kvemo Kartlidə.

## Elektron xidmətlər

Sorğuda iştirak edən şəxslərin əksəriyyəti, dövlət (katastr bazası, əmlak/gəlirlər haqqında məlumat və s.) (90%) (Samtsxe-Cavaxeti- 90%, Kvemo Kartli -90%), eləcə də bələdiyyə (96%) (Samtsxe Cavaxeti- 97%, Kvemo

Kartli 96%) elektron xidmətlərdən istifadə etmir. Bələdiyyə xidmətindən istifadə edənlərin əsas hissəsi meriya və Bələdiyyə Məclisinin veb-səhifəsindən faydalanmayıb. Ümumilikdə, doğrudur, hər iki səviyyədə fəaliyyət göstərən elekton xidmətlərdən istifadə edən müsahiblərin əksəriyyəti göstərilən xidmətdən razıdır, lakin dövlət xidmətləri halında razı olanlar daha çoxdur (Dövlət elektron xidmtələri – 83%, bələdiyyə elektron xidmətləri – 64%).

## Vətəndaşların yerli özünüidarənin qərar qəbul etmə prosesinə qoşulması

Müsahiblərin 40%-nin fikrincə vətəndaşlar yerli özünüidarə səviyyəsində qərar qəbul etmə prosesində iştirak etmirlər. İştirak etməmək səviyyəsi Kvemo Kartlidə (53%) Samtsxe-Cavaxetidən (27%) daha yüksəkdir. Ən az hər dörd müsahibdən biri qeyd edir ki, bu proses əhalinin tələb və ehtiyaclarına cavab vermir (27%), (Samtsxe-Cavaxeti- 16%, Kvemo Kartli – 37%). Ancaq istəyirlər ki: a) Əhali ilə daha sıx görüşsünlər; b) Bələdiyyə problemlərinin həlli üçün daha çox vəsait ayrılsın; q) Aparılan proseslər haqqında əhaliyə daha çox məlumat verilsin. Hər üçüncü müsahibin qiymətləndirməsinə görə, yerli hakimiyyətin qərar qəbul etmə prosesində etnik azlıq nümayəndələrinin iştirakının artırılması istiqamətində tədbirlər əsasən, aparılmır.

Keyfiyyət araşdırması çərçivəsində, hər fokus-qrupda yerli hakimiyyətdə iştirak formaları haqqında heç nə eşitməmiş üzvlər qeydə alındı.

Fokus-qrup iştirakçılarının bir hissəsi hakimiyyət tərəfindən əhalinin qərar qəbul etmə prosesinə qoşulması üçün hazırlıq və istək görmür. İştirakçıların bildirdiyinə görə, iştirak etməməyin ən əsas səbəbi məlumatsızlıqdır; Əhalinin hüquqları haqqında məlumatı yoxdur, konkret olaraq necə və hansı yollarla yerli hakimiyyətin fəaliyyətinə qoşulacaqlarını bilmirlər.

Həssas vəziyyətdə olan müsahiblər qeyd ediblər ki, onların ağır sosial və iqtisadi vəziyyətini nəzərə almaqla bələdiyyənin fəaliyyətinə qoşulmağa nə imkanları nə də motivasiyaları yoxdur;

Qeyd edək ki, yerli siyasətdə kənd əhalisinin iştirakının mühüm maneələrindən biri mərkəzə qədər olan uzaq məsafədir. Etnik azlıqlarda qoşulmamağın əlavə faktoru dil baryeri və ümumiyyətlə inteqrasiyanın aşağı səviyyədə olmasıdır. Etnik azlıqların ictimai həyatdan təcrid edilməsi mühüm problemlərdən biridir.

Yerli hakimiyyət nümayəndələri dərin müsahibələr çərçivəsində, təsdiq edirlər ki, əhalinin qərar qəbul etmə prosesində iştirakı aşağıdır. Xüsusilə etnik azlıq nümayəndələri və qadınlar passivlik edir. Etnik azlıqlarla bağlı bunun əsas səbəbi yenidən gürcü dilini bilməmək və ya kifayət qədər bilməməkdir.

## Yerli özünüidarə strukturları ilə ünsiyyət

Kəmiyyət araşdırması göstərdi ki, yerli özünüidarə orqanları ilə əhalinin ünsiyyəti aşağıdır: Sorğuda iştirak edənlərin əksəriyyəti (82%) son 2 il ərzində konkret problemin həlli məqsədi ilə müraciət etməyib (Samtsxe-Cavaxeti-84%, Kvemo Kartli – 80%). Əks təcrübəyə malik şəxslər isə son 2 il ərzində bələdiyyəyə bu məsələlərlə əlaqədar müraciət ediblər: Müxtəlif sosial/həssas qrupla (fiziki imkanları məhdud şəxslər, uşaqlar, yaşlılar, evsizlər, məcburi köçkün şəxslər) əlaqədar mühitin yaxşılaşdırılması, infrastruktur problemləri (qaz, su təchizatı, elektrin enerjisi və s.), sosial məsələlər (sosial yardım, işsizlik və s.), səhiyyə xidmətləri ilə əlaqədar məsələlər. Ancaq 40%-in təcrübəsinə görə, özünüidarə heç bir problemi həll etməyib.

Vətəndaş sektoru nümayəndələri əhalinin iştirakı barədə məsuliyyəti bələdiyyə hakimiyyətinin öhdəliyinə də qoyurlar, yerli hakimiyyət nümayəndələri görüşlər haqqında vaxtında məlumat vermirlər, məlumat versələr də yalnız kiçik bir dairə bu məlumatı əldə edə bilir. Çünki əhali ilə birbaşa ünsiyyət kanalları məhduddur, rəsmi kanallardan  (məsələn, bələdiyyələrin veb-səhifələri) az adam istifadə edir. Vətəndaş sektorunun qiymətləndirməsinə görə, bələdiyyə büdcələrinin tərtib edilməsi, eləcə də xərclənməsinin şəffaflığının bu günə qədər problem olması bunun nəticəsidir.

Yerli hakimiyyətin (məsələn, Axaltsixe bələdiyyəsinin) nümayəndələrinin sözlərinə görə, sosial xidmət sistemi elektron olub - əhali yerinə getmədən də ərizə verə və cavab ala bilər. Bununla belə, digər tərəfdən, əhali arasında (xüsusilə yaşlılar olan qəsəbələrdə) elektron ünsiyyət bacarıqları və müvafiq texniki dəstək problemdir.

## İctimai fəaliyyətlərdə iştirak

Son 1 il ərzində müsahiblərin əksəriyyəti (57%) heç bir vətəndaş/ictimai fəallığında iştirak etməyib. Xüsusilə Samtsxe –Cavaxetidə (65%), (Kvemo Kartlidə - 50%). Müsahiblər vətəndaş/ictimai fəallıqlarda müxtəlif səbəblərlə iştirak etmirlər. Bu vaxt çatışmazlığı, onların fəallığının heç nəyi dəyişməyəcəyi hissi və s. kimi səbəblərdir.

## Yerli özünüidarə orqanlarının fəaliyyətindən razılıq

Mövcud təcrübəni nəzərə almaqla, sorğuda iştirak edənlərin 39% özünüidarə orqanlarının fəaliyyətindən razıdır (Samtsxe-Cavaxeti-48%, Kvemo Kartli – 30%), ancaq əməkdaşların ixtisas səviyyəsi, nepotizm, əhali ilə passiv ünsiyyət və s. problem olaraq qalır.

Reqresiya modelinə görə, bələdiyyənin fəaliyyətindən ən çox razı olan müsahiblər bunlardır: a) Şəhər sakinləri; b) Yuxarı yaş nümayəndələri; q) Yerli özünüidarəyə son 2 il ərzində səhiyyə xidməti ilə əlaqədar məsələlərə görə müraciət edənlər; d) Son 1 il ərzində məntəqənin ümumi toplantısında iştirak edənlər.

## Vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq

Keyfiyyət komponenti sorğusunda iştirak edən şəxslərin əksəriyyətinin (94%) bələdiyyədə olan ictimai təşkilatlar barədə məlumatı yoxdur (Samtsxe-Cavaxeti-91%, Kvemo Kartli – 96%). Məlumatlı müsahiblərin əksəriyyəti (59%)  hesab edir ki, yerli əhali bu təşkilatların fəaliyyətində iştirak edir. Sorğu çərçivəsində aydın oldu ki, məlumatlı müsahiblər son 1 il ərzində ictimai təşkilatlar tərəfindən təklif edilmiş heç bir xidmətdən faydalanmayıblar; Əsas səbəb olaraq isə bu kimi xidmətlərdən faydalanmaq ehtiyaclarının olmamasını qeyd edirlər. Digər tərəfdən, aydın oldu ki, məlumatlı müsahiblər, əksər hallarda sosial xidmətlərdən faydalanırlar (19%). Ancaq qeyd edilməlidir ki, Kvemo Kartlidə sorğuda iştirak edən şəxslərin belə təcrübəsi yoxdur.

Nəzərə almaqla ki, sorğuda iştirak edən şəxslər vətəndaş cəmiyyətinin fəaliyyətini və vətəndaşların tələblərinin/ehtiyaclarının uyğunluğunu qavrayırlar, əsasən, bələdiyyədə qeyd olunan təşkilatların fəaliyyətindən razıdırlar (73%) (Samtsxe-Cavaxeti-89%, Kvemo Kartli- 58%).

Fokus-qruplar göstərdi ki, iştirakçıların hədəf regionlarda fəaliyyət göstərən vətəndaş cəmiyyətləri haqqında məlumatı azdır. Müsahiblər, əsasən ehtiyacı olan ailələrə maddi olaraq yardım göstərən, etnik azlıqlara gürcü dili kursları, hüquqi xidmətlər və s. təklif edən təşkilatlar barədə məlumatlıdırlar.

Hədəf bələdiyyələrin əhalisi ilə aparılan fokus-qrupların iştirakçıları ictimai təşkilatların fəaliyyətini ümumilikdə müsbət qiymətləndirirlər. Ancaq etnik azlıq nümayəndələri ictimai təşkilatların fəaliyyətinin mənfi tərəflərini də diqqətə yetirirlər və qeyd edirlər ki, bəzi təşkilatlara qarşı etibar səviyyəsi aşağıdır, çünki onlar azərbaycanlı icmanı, onun dini kimliyindən irəli gələrək, "geridə qalmış" kimi qəbul edirlər. Eləcə də ayrıca müsahiblər qeyd etdilər ki, əhalinin müəyyən hissəsində ictimai təşkilatlar hakimiyyətlə müxalif olan təşkilatlar kimi hesab olunurlar və bu səbəbdən onlarla əməkdaşlıq etməkdən çəkinirlər.

Fokus-qrup iştirakçılarının fikrinə görə, ictimai təşkilatların fəaliyyəti ilk növbədə yerli əhalinin problemlərinin həllinə yönlənməlidir. Mühüm olan odur ki, ictimai təşkilatlar bələdiyyə merləri və Bələdiyyə Məclisləri ilə fəaliyyəti gücləndirsinlər, onlara mövcud problemlə mübarizə aparmaq üçün yeni ideyalar və çıxış yolları təklif etsinlər.

# BAŞLIQ 1. ƏHALİNİN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ

## Həssas vəziyyətdə olan şəxslərin müəyyən edilməsi

Dərin müsahibə çərçivəsində Kvemo Kartli regionunun yerli hakimiyyət nümayəndələri həssas adamların tip/kateqoriyalarını müəyyən ediblər. Müsahiblər qeyd ediblər ki, həssas vəziyyətdə olan şəxslərin müəyyən edilməsi üçün onlar əsasən "sosial reytinq balından" istifadə edirlər. Reytinq balı ailəyə həssaslıq dərəcəsini ölçmək üçün verilir. Məlum olub ki, yardım paketi iki kateqoriyadan – sosial yardımlar və səhiyyə proqramları xidmətini əhatə edir. Sosial yardım alan həssas adamlar arasında yaşlı və tək adamlar, sosial aztəminatlı şəxslər/ailələrdir; Yetim və himayəsiz uşaqlar, çoxuşaqlı ailələr, müharibə iştirakçısı veteranlar, qaçqınlar da var. Səhiyyə proqramı xidmətləri ağır və xroniki xəstəlikləri olan, dializə ehtiyacı olan, ciddi və mühüm dərəcədə fiziki imkanı məhdud, görmə qüsurlu, onkoloji xəstəliyi olan şəxslərə aiddir.

Samtsxe-Cavaxetidə fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilat nümayəndələrindən regiondakı sonrakı həssas vəziyyətdə olan adamlar müəyyən edilib: tək yaşayan qocalar, fiziki imkanları məhdud şəxslər, etnik azlıqlar, ekomiqrantlar – təbii fəlakət nəticəsində zərərçəkmiş ailələr/şəxslər.

Axaltsixe bələdiyyəsinin yerli hakimiyyət nümayəndələri qeyd ediblər ki, yardımlar sosial həssaslıq reytinq balı əsasında səhiyyə proqramı ilə verilir. Sosial yardımlar baxımından reytinq balı, eləcə də şəxsin statusu (məsələn, fiziki imkanları məhdud şəxs statusu) təsir göstərir.

> *"Səhiyyə istiqamətində yardım daha çox qadınlara istiqamətlənib, amma başqa istiqamətdə yardımlar yalnız balla deyil, həm də başqa səbəblərlə də müəyyən olunur. Əgər fiziki imkanları məhdudluqla bağlı statusu varsa onlar üçün aylıq və ya rüblük yardımlar olur. Bu halda balın heç bir əhəmiyyəti yoxdur"- (Axaltsixedən yerli hakimiyyət nümayəndəsi).*

Axaltsixe bələdiyyəsinin yerli özünüidarəetmə nümayəndələri dövlətin müntəzəm dəstəyinə ehtiyacı olanları həssas insanlar hesab edirlər. Müsahiblərin fikrincə, bələdiyyələrdəki bütün proqramlarda bu və ya digər şəxsin həssas insan hesab ediləcəyi meyarlar müəyyən edilib, onların əsasında şəxsin həssas vəziyyətdə olub olmadığı hesab olunur. Məsələn, onkoloji xəstələrlə bağlı bələdiyyədə olan xidmətlərdən faydalanmaq üçün sosial həssaslıq reytinq balı lazım deyil.

Kvemo Kartlinin Qardabani bələdiyyəsinin vətəndaş cəmiyyəti təşkilat nümayəndələri etnik azlıq nümayəndələrini həssas vəziyyətdə olan şəxslər olaraq hesab edirlər. Çünki onların böyük hissəsi gürcü dilini bilmir və ya müvafiq səviyyədə bilmirlər. Bu isə onlar üçün mühüm problemdir.

> *"Etnik azlıqlar böyük problem qarşısında dayanırlar. Dövlət dilini bilməmələri onlara çox problem yaradır" (Gənclər Mərkəzi – Qardabani bələdiyyəsi).*

Marneuli bələdiyyəsində işləyən sosial işçilər – onlar həssas vəziyyətdə olan şəxslər olaraq etnik azlıqları, xüsusilə yetkinlik yaşına çatmamış qızları müzakirə edirlər. Çünki onları erkən yaşda evlənməyə məcbur edirlər. Bu isə əksər hallarda məcburi nikahı nəzərdə tutur, qızların təhsil almaq və müstəqil yaşamaq imkanını əlindən alır.

> *"Həssas qruplara mütləq etnik azlıqları, konkret olaraq, erkən yaşda evlənməyə məcbur edilən gənc qızları daxil edərdim. Bundan sonra isə onlar öz həyatlarının olması və təhsil almaları üçün bütün imkanları itirirlər" (sosial işçi).*

## Gəlirlər

Bütün bələdiyyələrdə aparılan fokus-qruplarda əsasən gəlirlər üçün sonrakı mənbələr müəyyən edilib:

- **Dövlət qulluğunda olan işçilərin əməkhaqqının ödənilməsi,** məsələn: təhsil və tibb müəssisələrində, bələdiyyə xidmətlərində, hüquq-mühafizə orqanlarında və s. alınan əməkhaqqı;
- **Dövlətdən alınan sosial müavinətlər,** məsələn: yaşa görə təqaüd, sosial yardım, fiziki imkanları məhdud şəxslər üçün təqaüd, müharibə veteranı pensiyası, bələdiyyənin birdəfəlik pul müavinəti və s.

  *"Mənim əsas gəlirim sosial yardımdır, 3 azyaşlı uşağım var və ona görə alırıq, başqa heç nəyimiz yoxdur" (34 yaşlı qadın, aztəminatlı, etnik gürcü, Axaltsixe)*

Müsahiblər arasında özəl şirkətlərdə işləyənlər də var. Bolnisi, Tetritskaro və Dmanisi bələdiyyələrinin əhalisi ilə aparılan fokus-qrup iştirakçıları qeyd edirlər ki, əmək qabiliyyətli əhalinin bir hissəsi adı çəkilən bələdiyyələrdə fəaliyyəti mədənçilik olan RMG şirkətində işləyirlər. Müvafiq olaraq, ailələrin bir qismi üçün məhz bu şirkətdə işləmək nəticəsində alınan əməkhaqqı əsas gəlirdir.

Müsahiblərin kiçik qismi üçün gəlir mənbəyi xaricdən ailə üzvünün göndərdiyi puldur. Emiqrantların göndərdiyi pul yardımını xüsusilə etnik azlıq nümayəndələri diqqətə yetirdilər.

Kənddə yaşayan əhali gəliri kənd təsərrüfatı məhsullarının satışından əldə edir. Dmanisililər qeyd edirlər ki, onların bələdiyyəsində heyvandarlıq xüsusilə inkişaf edib. Qardabani və Marneuli bələdiyyəsinin böyük şəhərlərlə - Tbilisi və Rustavi ilə yaxınlığı kənd təsərrüfatı məhsullarının satışına mühüm dərəcədə dəstək olur. Ninotsminda əhalisi əsasən kartof becərmək və məhsul satışından əldə olunan gəlirlə ailəsini idarə edir. Kənd təsərrüfatından əldə edilən gəlirin mövsümi olduğunu nəzərə almaqla – təsərrüfat işinə qoşulmuş ailələrin sosial-iqtisadi vəziyyəti dəyişkəndir.

Fokus-qruplarda iştirak edən həssas vəziyyətdə olan adamlar əsasən dövlət tərəfindən təyin edilmiş sosial yardım ümidinə yaşayırlar. Fokus-qruplarda iştirak edən aztəminatlılar qeyd etdilər ki, imkan olanda birdəfəlik işlərdə qeyri-formal olaraq işləyirlər, çünki rəsmi işlə təmin olunduğu halda aztəminatlı statusunu itirəcəklər və kiçik, ancaq stabil  gəlirsiz qalacaqlar. Azətminatlı statusu olan şəxslər əsasən bu vəzifələrdə işləyirlər: Xadimə, inşaatçı, yük daşıyan, sürücü və s. Onların qiymətləndirməsinə görə, aztəminatlı statusundan imtina etməyə səbəb olacaq iş tapmağı təsəvvür etmirlər. Bir qayda olaraq, həssas vəziyyətdə olan adamların adekvat əməkhaqqı ilə iş tapmaq üçün müvafiq biliyi, ixtisası, əlaqələri yoxdur.

Tsxinvali regionundan məcburi köçkün şəxslər xüsusilə ağır sosial və iqtisadi vəziyyətdədirlər. Onlar 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsindən sonra Tetritskaro bələdiyyəsində, Koda kəndində sıx məskunlaşıblar. Onların qiymətləndirməsinə görə, Tsxinvali regionunda yaşayan zaman əksəriyyətinin peşəsi və işi var idi, ancaq Koda kəndində məskunlaşdıqdan sonra  iş tapa bilməyiblər.

> *"Tsxinvalidə əksəriyyət işləyirdi. Məsələn, məktəblərdə, idman məktəblərində və s. işləyirdilər. Oradan gəldikdən sonra burada məktəblər var, amma yer yoxdur. Ona görə işləyənlərdən çoxu burada işsiz qaldı" (63 yaşlı qadın, işləyən, Tetritskaro bələdiyyəsi)*

Nəzərə almaq lazımdır ki, məcburi köçkün şəxslərin kənd təsərrüfatı torpaq sahələri yoxdur, hətta özləri istifadə edə bilmək üçün belə kənd təsərrüfatı məhsulları becərə bilmirlər.

Müsahiblərin ailə gəlirləri (müvafiq olaraq iqtisadi vəziyyət) kəmiyyət araşdırması çərçivəsində də qiymətləndirildi.

Müsahiblərin iqtisadi vəziyyəti iki yanaşma ilə – mahiyyətcə (verbal) və kəmiyyətcə qiymətləndirilib.

Mahiyyətcə qiymətləndirmədə üç dominant təbəqə ayrıldı və onların göstəricisi təxminən 28%-ə bərabərdir:

- Pulumuz yeməyə kifayət edir – 28,6%;
- Bizim yemək üçün pulumuz var, amma geyim və ayaqqabı almaq üçün pula qənaət etməli ya da borc götürməli oluruq – 29,8%;
- Bizim yemək , gündəlik geyim və ayaqqabı üçün pulumuz var, ancaq yaxşı geyim, mobil telefon, tozsoran, başqa məişət texnikası almaq üçün pula qənaət etməli və ya borc götürməli oluruq – 27,1% (Bax. Cədvəl #2)

**Cədvəl #2**

| İndi sizi bəzi müddəalarla tanış edəcəyəm. Xahiş edirik deyin, hansı ifadə ailənizi daha yaxşı təsvir edir? (N=1200) | |
|---|---|
| Pulumuz yeməyə kifayət edir | 28.6% |
| Bizim yemək üçün pulumuz var, amma geyim və ayaqqabı almaq üçün pula qənaət etməli ya da borc götürməli oluruq | 29.8% |
| Bizim yemək, gündəlik geyim və ayaqqabı üçün pulumuz var, ancaq yaxşı geyim, mobil telefon, tozsoran və başqa məişət texnikası almaq üçün pula qənaət etməli və ya borc götürməli oluruq | 27.1% |
| Bizim yemək, gündəlik geyim və ayaqqabı üçün pulumuz var, ancaq maşın ya mənzil almaq üçün pula qənaət etməli və ya borc götürməli oluruq | 11.3% |
| Biz istədiyimiz zaman, istədyimiz hər şeyi ala bilirik | 1.1% |
| Cavabdan imtina edirəm/cavab verməkdə çətinlik çəkirəm | 2.2% |

თƏgər Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin üçdə birindən çoxu (37,7%) qeyd edirsə ki, onun ailəsinin yeməyə pulu kifayət edir, Kvemo Kartlidə bu mövqeyi yalnız 19,5% bildirir. Kvemo Kartlidə sorğuda iştirak edənlərin üçdə birindən çoxu qeyd edir ki, yemək, gündəlik geyim və ayaqqabı üçün pulları var. Ancaq yaxşı geyim, mobil telefon, tozsoran və başqa məişət texnikası almaq üçün pula qənaət etməli və ya borc götürməli olurlar. Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin 31,2%-i qeyd edir ki, ailənin yemək üçün yetərli qədər pulu var, amma geyim və ayaqqabı almaq üçün pula qənaət etməli və ya borc götürməli olurlar. Kvemo Kartlidə sorğuda iştirak edənlərin isə 28,4%-i bu mövqeyi qeyd edir (Bax. Cədvəl #3).

**Cədvəl #3**

| İndi sizi bəzi müddəalarla tanış edəcəyəm. Xahiş edirik deyin, hansı ifadə ailənizi daha yaxşı təsvir edir? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Pulumuz yeməyə kifayət edir | 37.7% | 19.5% |
| Yemək üçün kifayət qədər pulumuz var, amma paltar və ayaqqabı almaq üçün pula qənaət etməli və ya borc almalıyıq | 31.2% | 28.4% |

| İndi sizi bəzi müddəalarla tanış edəcəyəm. Xahiş edirik deyin, hansı ifadə ailənizi daha yaxşı təsvir edir? (Region konteksti) | Samtsxe-Cavaxeti<br><br>(N=600) | Kvemo Kartli<br><br>(N=600) |
|---|---|---|
| Yemək, gündəlik paltar və ayaqqabı üçün kifayət qədər pulumuz var, amma yaxşı paltar, mobil telefon, tozsoran və digər məişət texnikası almaq üçün pul yığmalıyıq və ya borc götürməliyik | 19.3% | 34.9% |
| Yemək, gündəlik geyim və ayaqqabı üçün kifayət qədər pulumuz var, amma maşın və ya mənzil almaq üçün pul yığmalıyıq və ya borc götürməliyik | 10.2% | 12.3% |
| Biz istədiyimiz zaman, istədyimiz hər şeyi ala bilirik | 0.8% | 1.4% |
| Cavabdan imtina edirəm/cavab verməkdə çətinlik çəkirəm | 0.8% | 3.5% |

Müsahiblərin 29,9%-i ailəsinin aylıq gəlirini müəyyən etməkdə çətinlik çəkdi və ya konkret məbləğ qeyd etməkdən imtina etdi. Ailələrin aylıq gəlirləri haqqında müsahiblər tərəfindən verilmiş konkret məlumat əsasında ev təsərrüfatı gəlirlərinin orta (Mean) və median (Median) göstəriciləri müəyyən edilib: Ailələrin orta aylıq gəliri olaraq 983 lari müəyyən olunub (Samtsxe-Cavaxeti – 1070 lari, Kvemo Kartli – 893 lari), orta rəqəm isə - 700 lari (Samtsxe-Cavaxeti – 805 lari, Kvemo Kartli – 600 lari) müəyyən edilib.

Kəmiyyət araşdırmasının məlumatları göstərir ki, hədəf regionların əhalisi, subyektiv qavrayışa, eləcə də obyektiv göstəricilərinə (ailələrin gəliri) görə, iqtisadi baxımdan həssas vəziyyətdədir. Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin əksəriyyəti (70%-ə qədər), Kvemo Kartlidə sorğuda iştirak edən hər ikinci adam öz ailəsinin gəlirinin yalnız əsas tələblərini qane etmək üçün (yemək, geyim) kifayət etdiyini qeyd edir. Konkret gəlirlərdə iki faktoru nəzərə almalıyıq: ailə üzvlərinin orta sayı və yaşayış minimumu. Milli Statistika Xidmətinin göstəricilərinə görə, Samtsxe-Cavaxeti və Kvemo Kartli regionlarında ailələrin orta sayı təxminən 4 üzvdən ibarətdir[6]. Yaşayış minimumu bu sayda ailələr üçün ayda təxminən 340 laridir[7]. Əgər bu vəziyyətdə ailələrin orta gəlirini (MEAN) qiymətləndirsək, nəticə çıxara bilərik ki, hədəf regionların əhalisinin əksəriyyətinin gəliri yaşayış minimumunu aşır, ancaq iqtisadi vəziyyətin orta səviyyəsinə çata bilmir[8].

6 Bölgələr üzrə orta ailə ölçüsü http://census.ge/ge/results/census1/households?fbclid=IwAR3_2TR47NqPO9PX2hp4QncMzhACuPCk_4wFw3p6YPvotFgXDsR-0pZGFx8

7 Ailənin ölçüsünə görə ailələr üçün yaşayış minimumu: https://www.geostat.ge/ka/modules/categories/49/saarsebo-minimumi

8 2022-ci ilin məlumatlarına görə ayda təxminən 1450 lari təşkil edən orta aylıq əməkhaqqı haqqında rəsmi məlumat bizdə iqtisadi şəraitin orta səviyyəsi haqqında təsəvvür yaradır. Bax. https://www.geostat.ge/ka/modules/categories/39/khelfasebi

## Xərclər

Fokus-qruplarda iştirak edən müsahiblərin xərcləri bir-birinə oxşardır. Ailənin mövcud gəliri əsasən ilkin ehtiyaclarını qane etməyə xərclənir, bunlar:

- Qida məhsulları, ərzaq;
- Kommunal vergilər;
- Dərmanlar;
- Əsas ehtiyaclar (geyim, texnika və s.);
- Bank krediti/ipoteka vergisi
- Ali təhsil üzrə təhsil haqqı.

> *„İşıq haqqı bu ay 110 lari gəlib. Ona görə ki, odunumuz yox idi və elektrik qızdırıcısını qurdum. İndi düşünürəm ki, həmin 110 larini necə ödəyəcəyəm" – (32 yaşlı qadın, tək ana, etnik erməni, Tsalka);*
>
> *„Mənim böyük qızım Tbilisi Dövlət Universitetində, pullu fakültədə təhsil alır. Bu bizim üçün böyük xərcdir. İkinci qızım bu il məktəbi bitirir və qəbul olmasına hazırlaşırıq,bununla xərcimiz yenə artacaq" (52 yaşlı qadın, evdar xanım, etnik erməni, Ninotsminda);*
>
> *"Mən, məsələn, əməkhaqqından asılıyam, bu da artıq kifayət etmir. Marketə girirsən, faktiki olaraq qiymətlər100% deyil, 150%  artıb" – (44 yaşlı qadın, işləyən, 4 uşaq anası, etnik gürcü, Dmanisi);*
>
> *"Diabetim var və əsasən pulum dərmanlara xərclənir, gəlirim isə yoxdur, çünki təqaüdçüyəm və gündəlik yaşam çətindir, yemək çox bahadır" (63 yaşlı kişi, müharibə veteranı, etnik azərbaycanlı, Marneuli).*

Kənd təsərrüfatı məhsulları əkib-becərən,  kənddə yaşayan əhalinin torpaqları şumlamağa lazım olan resursları əldə etmək üçün əlavə xərcləri var. Bu fermerlər üçün mühüm problemdir. Müsahiblər xüsusilə yanacağın qiymətinin artmasını qeyd edirlər. Buna görə yaz işlərini müvafiq qaydada yerinə yetirə bilmirlər.

> *„Ot çox bahadır, eləcə də yanacaq çox bahalanıb, indi  əkin üçün lazımdır ki, traktor işləsin. Əkin dövrü başladı. Bizim ən böyük xərcimiz budur " (62 yaşlı kişi, özünüməşğul, etnik erməni, Tsalka).*

## Mövcud çatışmazlıqlar

Fokus-qrupun iştirakçıları sosial və iqtisadi vəziyyət haqqında danışan zaman qeyd etdilər ki, əhalinin əsas problemlərindən biri işsizlikdir. İşsizlik məsələsi xüsusilə gənclər arasında ciddi şəkildə mövcuddur. Çünki bələdiyyələrdə olan perspektivsiz mühit onların inkişafını və özünü təqdim etməsini mümkünsüz edir. Etnik azlıq nümayəndələri qeyd etdilər ki, işləmək qabiliyyəti olan əhali, xüsusilə gənclər işləmək məqsədi ilə xaricə gedirlər. Etnik ermənilər, əsasən Rusiya Federasiyasına gedirlər və işləməkdə onlara iqtisadi baxımdan erməni diasporası güclü kömək göstərir.

Tbilisidə etnik gürcü gənclər, ali təhsil alan, Tbilisidə yerləşməyə çalışan gənclər miqrasiyaya üstünlük verirlər. Müsahiblərin işləyən qismi əməkhaqqının az olmasından şikayətlənir, çünki mövcud əməkhaqqı ilə minimum ehtiyacları təmin etmək mümkün deyil.

*„Mənim bacım, məsələn, psixologiya üzrə təhsil alıb və burada, məktəbdə iş təklif etdilər, o qədər aşağı əməkhaqqı idi ki, gülməyi gəldi. Bu əməkhaqqına mən buraya qayıtmaram dedi. Öz peşəsindənsə, başqa sahədə işləsə daha yaxşıdır" – (35 yaşlı qadın, işləyən, etnik gürcü, Axaltsixe).*

Fokus-qruplarda iştirak edən etnik azlıqların bir qisminin qiymətləndirməsinə görə, gürcülərlə müqayisədə onların daha az işlə təmin olunmaq şəraiti var. Buna səbəb olaraq onların sosial inteqrasiyasının aşağı səviyyədə olmasını qeyd edirlər. Bu isə öz növbəsində gürcü dilini pis səviyyədə bilmək və ya bilməmək səbəbindən yaranıb. Fokus-qrup iştirakçılarını xüsusilə son dövrdə narahat edən daha bir mühüm məsələ, ilkin istifadə məhsullarının qiymətinin artmasıdır. Mövcud gəlirlə ailələri vacib ərzaq və dərmanla təmin edə bilmirlər.

*„Hər şeyin qiyməti artıb, demək olar gəlirimiz heç nəyə kifayət etmir. 5 il əvvəl olan əməkhaqqı indi də elədir, ancaq qiymətlər artıb" – (25 yaşlı qadın, tələbə, etnik gürcü, Axaltsixe).*

Daha bir mühüm problem artırılmış kommunal vergilərdir. Bu əhali üçün əlavə maddi yükdür.

Kvemo Kartlinin yerli hakimiyyət nümayəndələrinin bildirdiyinə görə, yerli əhalini (yalnız həssas qrupda olan şəxslər deyil) iki əsas problem narahat edir – işsizlik və səhiyyə xidmətləri üçün maliyyə çatışmazlığı.

Dərin müsahibələr çərçivəsində Samtsxe-Cavaxeti regionunun vətəndaş cəmiyyəti təşkilat nümayəndələrinin bir qisminin qiymətləndirməsinə görə, həssas vəziyyətdə olan şəxslər üçün nəzərdə tutulmuş xidmətlər kifayət qədər effektiv deyil, bu isə mühüm problemdir. Bundan əlavə, sosial işçilərin sayının kifayət qədər olmaması problemli məsələ olaraq qalır.

*„Erməni əhalinin evdə qayğıya ehtiyacı var, fiziki hərəkət etmək problemləri var, bu proqramlar zəifdir, peşəkar sosial işçilər lazımdır ki, məlumatı düzgün çatdırsınlar və ehtiyacı olan adamları daha da gücləndirmiş olsunlar" ("Tolerantlıq" Assosiasiyası – Samtsxe-Cavaxeti regionu).*

Bolnisi bələdiyyəsinin yerli hakimiyyət nümayəndələri dərin müsahibələr çərçivəsində səhiyyə xidmtələri ilə bağlı qeyd etdilər ki, ən böyük büdcə bu sahədədir. Buna baxmayaraq, əhalinin ehtiyaclarını təmin etmək üçün büdcənin bu həcmi kifayət deyil, çünki müxtəlif tibbi ehtiyacları olan şəxslərin əməliyyatlarını tam maliyyələşdirmək və sonradan dərmanlarla təmin etmək mümkün deyil.

*„İşimdən irəli gələrək, əhali üçün səhiyyə prioritetlidir. Ən çox müraciətlər səhiyyə baxımından olur və büdcədən ən böyük vəsait bu istiqamətdə xərclənir, ancaq kifayət etmir" (Bolnisi meriyasının nümayəndəsi)*

Bolnisi bələdiyyəsinin yerli hakimiyyət nümayəndələrinin sözlərinə görə, səhiyyə istiqamətində bir neçə yöndə xidmətlərin yaxşılaşdırılması lazımdır: bahalı əməliyyatların maliyyəlşdirilməsinin artırılması, oksigen aparatlarının əlavə edilməsi, maqnit rezonans tədqiqatlarının bələdiyyə büdcəsi hesabına maliyyələşdirilməsi.

Vətəndaş cəmiyyəti təşkilatı nümayəndələri qeyd edirlər ki, yerli əhali üçün (həssas vəziyyətdə olan şəxslərdən başqa) gürcü dilini bilməmək və ya müvafiq şəkildə bilməmək aktual problemdir. Müsahiblərin sözlərinə görə, yerli sakinlərin gürcü dilini öyrənmək istəyi var, ancaq bunu bacarmırlar.

*„Yerli sakinlərin gürcü dilini öyrənmək istəyi var. Onlar burada yaşamağı xoşlayırlar. Yaxşı yaşamaq üçün bütün lazımı şəraitləri var. Yerləşmək və yaşamaq üçün gürcü dilini bilmək lazımdır" (Kvemo Kartlinin Etniklərarası İttifaqı – Bolnisi).*

Marneulidə işləyən sosial işçilər də gürcü dilini bilməməyin problem olduğunu qeyd ediblər. Müsahiblərin sözlərinə görə, etnik azlıqlar gürcü cəmiyyətinə zəif inteqrasiya olublar. Marneulidə yaşayan etnik azlıqların mühüm hissəsi türk və azərbaycan mənbələrindən məlumat alırlar və bu da onların Gürcüstanda yadlaşmasını daha da dərinləşdirir.

*„Dil baryerindən irəli gələrək gürcü cəmiyyətinə inteqrasiya ola bilmirlər. Mənim etnik azərbaycanlı qonşularım var və onlar Gürcüstanda fiziki olaraq yaşayırlar, ancaq Gürcüstandan çox Azərbaycan və türk cəmiyyətinin yaşam tərzi haqqında daha çox məlumatları var (sosial işçi).*

Kvemo Kartlinin vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri yerli gənclər üçün problem olan işlə təmin edilmə məsələsini xüsusi qeyd ediblər - gənclər özlərini göstərə bilmirlər. Ali təhsil müəssisəsini bitirirlər, amma iş tapa bilmirlər" (Kvemo Kartlinin Etniklərarası İttifaqı).

Bolnisi bələdiyyəsində işləyən sosial işçilər də işlə təmin etmək məsələsini, ciddi problem olaraq qeyd ediblər. İşsizlik yerli əhalinin bir qisminə əsas tələblərin (məsələn yemək) təmin edilməsi üçün ciddi problem yaradır.

*„İşləmək böyük problemdir, insanların gəliri yoxdur. Əhalinin bir qismi yalnız çörək və şorba ilə yaşayır. Əhalinin yeməyi yoxdur, bizim ətrafımızda insanlar acdır" – (sosial işçi).*

Bolnisi meriya nümayəndəsinin bildirdiyinə görə, əhali hansısa xidməti almaqdan pul yardımı almağı daha üstün hesab edir. Müsahibin sözlərinə görə, meriyaya ərizələrin yarıdan çoxu pul yardımı ilə bağlı verilir.

*„Əhalinin əsas tələbi puldur. Xidmətlə bağlı müraciətlər çox zəifdir, bəyənmirlər. Hər şeyi maddi baxımdan istəyirlər. İldə 15 000-dən artıq ərizə gəlir və buradan 7-8 min ərizə maddi yardım tələbi ilə bağlıdır" (Bolnisi meriyasının nümayəndəsi)*

Kəmiyyət araşdırması çərçivəsində qiymətləndirildi:

- Hədəf bölgələrdə sorğu edilən ailələr həssas vəziyyəti təsvir edən hər hansı statusa malikdirmi;
- Müsahiblərin iş vəziyyəti;

Sorğunun nəticələri göstərir ki, müsahiblərin 11,9%-nin ailəsinin aztəminatlı (Samtsxe-Cavaxeti- 6,1%, Kvemo Kartli – 17,7%), 1,8%-nin məcburi köçkün şəxs (Samtsxe-Cavaxeti-0,5%, Kvemo Kartli – 3,1%) statusu var. Göründüyü kimi, əksər hallarda ailəyə heç bir status verilməyib (85,5%). Fiziki imkanları məhdud şəxs statusunun olması (6,5%) da nadir haldır; 93,5% oxşar statusa malik deyil (Samtsxe-Cavaxeti – 92,8%, Kvemo Kartli – 94,2%).

Araşdırmada iştirak edən şəxslərin əsas məşğuliyyətini müəyyən edərkən sonrakı dominant təbəqələr yaranıb:

- Dövlət sektorunda maaşlı işçi – 16,8%
- Özəl sektorda maaşlı işçi – 9%
- Özünüməşğul (sahibkar, təsərrüfatçı, peşə fəaliyyəti ilə məşğul olan şəxs) – 11,5%
- Təqaüdçü – 17,9%
- Evdar xanım – 18,6%
- Hazırda işsiz – 17,2% (Bax. diaqram #1).

**Diaqram #1**




Kvemo Kartlidə sorğuda iştirak edənlər arasında işlə təmin edilmə statusuna görə evdar xanımlar (22,7%), hazırda (sorğu dövründə) işsizlər (18,8%), təqaüdçülər (17,5%) və dövlət sektorunda maaşlı işçilər (15,1%) seçilirlər. Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlər arasında demək olar təqaüdçülər (18,5%) və dövlət sektorunda işləyən müsahiblər (18,5%) bərabər səviyyədə təmsil olunublar. Bu regionda sorğuda iştirak edənlərin 15,6%-i sorğu dövründə işsiz idi (Bax. Cədvəl #1).

**Cədvəl #1**

| Müsahibin məşğulluq vəziyyəti (əsas fəaliyyət nəzərdə tutulur) (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Dövlət sektorunda maaşlı işçi | 18.5% | 15.1% |
| Özəl sektorda maaşlı işçi | 12.7% | 5.4% |
| Özünüməşğul (iş verən) | 3.4% | 1.9% |
| Özünüməşğul (sahibkar, təsərrüfatçı, peşə fəaliyyəti ilə məşğul olan şəxs) | 10.8% | 12.2% |
| Təqaüdçü | 18.4% | 17.5% |
| Analıq məzuniyyətində olan | 0.1% | - |
| Evdar xanım | 14.6% | 22.7% |
| Tələbə | 3.9% | 1.6% |
| Hazırda işsiz | 15.6% | 18.8% |
| Heç vaxt işləməyib | 0.6% | 1.9% |

| Müsahibin məşğulluq vəziyyəti (əsas fəaliyyət nəzərdə tutulur) (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Digər | 1.4% | - |
| Cavabdan imtina edirəm | - | 3% |

Belə ki, sorğu nəticələrinin göstərdiyinə görə, Samtsxe-Cavaxeti əhalisində işləyənlərin payı (45,4%), Kvemo Kartli regionunda (34,6%) işləyənlərin payını (özünüməşğullar da daxil olmaqla) əhəmiyyətli dərəcədə aşır. Müvafiq olaraq, işsizlərin payı Kvemo Kartlidə (20,7%) Samtsxe-Cavaxetidən (16,2%) daha yüksəkdir. Qeyd etmək lazımdır ki, işsizliyin bu göstəricisi Milli Statistika Xidmətinin 2021-ci il göstəricilərinə (Kvemo Kartli – 25,2%; Samtsxe-Cavaxeti- 14,9%) yaxındır[9].

## Covid-19-un əhaliyə təsiri və yerli hakimiyyətdən yardım

Fokus-qrup iştirakçıları arasında Covid-19 infeksiyasını orta ağır və ya ağır keçirən müsahiblər də oldu. Həmçinin, qohumları və ya yaxınları Covid-19-dan dünyasını dəyişənlər də var idi. Pandemiya əhalinin iqtisadi vəziyyətini mühüm dərəcədə pisləşdirdi. Konkret olaraq, iş yerlərini itirmək. Pandemiya xüsusilə əhalinin xidmət sahəsində işləyən hissəsinə mənfi təsir göstərdi. Özünüməşğullar üçün ağır şərait yarandı. Onların işlərini dayandırmalı oldular. Bu isə yoxsulluğa səbəb oldu. Fokus-qrup iştirakçıları qeyd etdilər ki, Covid-19 pandemiyası bütün sahələrə, eləcə də kənd təsərrüfatına (məhsulun satışına problem yarandı) və təhsilə mənfi təsir göstərdi. Distant təhsil əhalinin mühüm hissəsinə əlçatan deyildi, çünki: müvafiq texniki təchizatları (kompüter, android telefon və s.), internet əlçatanlığı (pis əlaqə, internetin baha olması) və şagirdlərin, tələbələrin məruzəyə/dərsə maneəsiz qoşulması üçün məkan yox idi (bu problem xüsusuilə çoxüzvlü ailələrdə özünü göstərdi). Bu faktorları nəzərə almaqla, Covid-19-a görə yaranmış vəziyyət ümumilikdə təhsilin keyfiyyətinə mənfi təsir göstərdi.

Fokus-qrupların iştirakçısı olan həssas vəziyyətli müsahiblər qeyd etdilər ki, pandemiya zamanı yerli hakimiyyətdən birdəfəlik yardım alırdılar. Bu pul yardımı, qida məhsulları ilə yerində təhvil verməklə təminat və s. idi. Fokus-qrup iştirakçıları beynəlxalq "Qızıl Xaç" təşkilatını qeyd etdilər. Təşkilat həssas vəziyyətdə olan şəxslərə ərzaq və gigiyenik vasitələr verirmiş. Qeyd edək ki, yardım prosesinə yerli hakimiyyət nümayəndələri də fəal olaraq qoşulubmuş. Bu əsasən locistika (planlaşdırma-çatdırılma) yardımını nəzərdə tuturdu. Həssas vəziyyətdə olan şəxslər, xüsusilə yaşlılar özəl sektordan da yardım alıblar. Bu ərzaqla təmin olunmaq idi. Araşdırmada iştirak edən həssas vəziyyətdə olan adamlar ümumilikdə, covid-19 pandemiyası zamanı yerli hakimiyyət tərəfindən göstərilmiş diqqətdən razıdırlar. Ancaq müsahiblərin bir qismi pandemiya zamanı hökumət tərəfindən göstərilən yardımdan daha çox ehtiyacla üzləşdiklərini qeyd edib.

Aztəminatlı ailələr pandemiya zamanı mərkəzi hakimiyyət tərəfindən 6 ay ərzində 100 lari dəyərində pul yardımı alıb. Fiziki imkanları məhdud şəxslər qeyd ediblər ki, onların təqaüdü artırılıb. Müsahiblər üçün pandemiya zamanı kommunal vergilərin qarşılıqlı maliyyəsi mühüm güzəşt idi.

9 İşsizlik göstəriciləri https://www.geostat.ge/ka/modules/categories/683/dasakmeba-umushevroba

# BAŞLIQ 2. TƏHSİL

## Məktəbəqədər/ümumi təhsil

Araşdırmada iştirak edən şəxslərin tam əksəriyyəti (97,5%) qeyd edir ki, onların qəsəbəsində ictimai məktəb fəaliyyət göstərir. İctimai uşaq bağçasının fəaliyyət göstərməsini nisbətən az adam qeyd edir, bununla belə, əksəriyyət (73,7%), dörddə birindən çoxu (26,3%) yaşayış məntəqələrində dövlət uşaq bağçasının olmadığını vurğulayır. Baxmayaraq ki, qəsəbədə əsasən məktəbəqədər/ümumi təhsil müəssisələri var, müsahiblərin əksəriyyəti onların heç birindən faydalanmır: İctimai dövlət bağçası – 83,9%, ictimai məktəb – 57,6%[10] (Bax. diaqram #2).

**Diaqram #2**




Məsələnin ayrıca region kontekstinin analizi zamanı Samtsxe-Cavaxetidə, eləcə də Kvemo Kartlidə ümumi tendensiya qorunur. Sorğuda iştirak edənlərin əksəriyyəti qeyd edir ki, ictimai uşaq bağçası və ictimai məktəb fəaliyyət göstərir, ancaq qeyd olunan xidmətdən, xüsusuilə ictimai uşaq bağçasından faydalananların sayı aşağıdır: Samtsxe-Cavaxeti 18%, Kvemo Kartli – 14,2%. Qeyd edək ki, Kvemo Kartlidə ictimai bağçanın olmasını Samtsxe-Cavaxetidən (83,7%) kifayət qədər az adam qeyd edir (63,5%) (Bax. Cədvəl #4).

10 Qeyd olunan göstəricilər, tədqiqatda iştirak edən şəxslərin əksəriyyətinin ailəsində məktəb və ya bağça yaşında övladının olmadığını göstərir;

**Cədvəl #4**

| (Region konteksti) | | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|---|
| **Sizin qəsəbədə ictimai uşaq bağçası fəaliyyət göstərirmi...** | | | |
| İctimai uşaq bağçası | Bəli | 83.7% | 63.5% |
| | Xeyr | 16.3% | 36.5% |
| İctimai məktəb | Bəli | 98.1% | 97% |
| | Xeyr | 1.9% | 3% |
| **Faydalanırsınız ya yox...** | | | |
| İctimai uşaq bağçası xidmətindən | Bəli | 18% | 14.2% |
| | Xeyr | 82% | 85.8% |
| İctimai məktəb xidmətindən | Bəli | 40.9% | 44% |
| | Xeyr | 59.1% | 56% |

İctimai uşaq bağçası və ya məktəb xidmətindən faydalanan müsahiblər qeyd olunan təhsil institutlarının müxtəlif aspektlərindən nə dərəcədə razı olduqları barədə danışdılar. Qiymətləndirmə üçün 5 ballıq şkaladan istifadə olundu. 1 bal "çox narazı", 5 bal isə "çox razı" kateqoriyasını əks etdirirdi. Müsahiblər ictimai məktəb eləcə də uşaq bağçası xidmətini müsbət qiymətləndirirlər, əksəriyyət aşağıda qeyd edilmiş aspektlərdən razıdır (ballar 4 və 5):

- Əlçatanlıq: İctimai uşaq bağçası - 78.9%, ictimai məktəb - 73.9%;
- İnfrastruktur: İctimai uşaq bağçası – 82.9%, ictimai məktəb – 66,8;
- Rəhbərlik: İctimai uşaq bağçası - 83.9%, ictimai məktəb - 75.1%;
- Qeydiyyat prosedurları (sadəlik): İctimai uşaq bağçası - 83.1%, ictimai məktəb - 78.4%;
- Pedaqoqların ixtisasi: İctimai uşaq bağçası - 84.6%, ictimai məktəb - 74.1%;
- Təhlükəsizlik: İctimai uşaq bağçası - 82.9%, ictimai məktəb - 79.5%.

Uşaq bağçası xidmətindən faydalanan 70,8% qida komponentindən razıdır. Ola bilsin bəzi ictimai məktəblərdə qida məkanının olmamasına görə, müsahiblərin böyük qismi (42,1%) cavab verməkdən imtina etdi, dörddə birindən çoxu isə (26,8%) qidadan narazıdır (Bax. Cədvəl #5).

**Cədvəl #5**

| Sonrakı aspektlərdən nə dərəcədə razısınız? | Çox narazı | Narazı | Həm razı həm narazı | Razı | Çox razı | Cavabdan imtina edirəm |
|---|---|---|---|---|---|---|
| **İctimai uşaq bağçası (N=193)** | | | | | | |
| Əlçatanlıq | 3.5% | 5.1% | 12.1% | 49.3% | 29.6% | 0.4% |
| İnfrastruktur | 1% | 1.4% | 14.2% | 59.6% | 23.3% | 0.4% |
| Rəhbərlik | 0.9% | 2.7% | 12.1% | 57.8% | 26.1% | 0.4% |
| Qeydiyyat prosedurları (sadəlik) | - | 3.1% | 11.5% | 61.4% | 21.7% | 2.4% |
| Qida | 2.6% | 6.3% | 13.7% | 48.3% | 22.5% | 6.6% |
| Pedaqoqların ixtisası | 1% | 2.4% | 11% | 57.3% | 27.3% | 0.9% |
| Təhlükəsizlik | 2% | 3.2% | 11.1% | 57.4% | 25.5% | 0.9% |
| **İctimai məktəb (N=519)** | | | | | | |
| Əlçatanlıq | 1.4% | 4% | 19.8% | 55.6% | 18.3% | 0.9% |
| İnfrastruktur | 2.5% | 8.5% | 22.2% | 52.2% | 14.6% | - |
| Rəhbərlik | 0.6% | 4.3% | 18.5% | 55.3% | 19.8% | 1.5% |
| Qeydiyyat prosedurları (sadəlik) | 1.2% | 1.8% | 15.2% | 60.6% | 17.8% | 3.4% |
| Qida | 7% | 19.9% | 12.9% | 12.8% | 5.4% | 42.1% |
| Pedaqoqların ixtisası | 1% | 3.6% | 19.9% | 55.9% | 18.3% | 1.3% |
| Təhlükəsizlik | 1% | 2.9% | 15.7% | 59.6% | 19.9% | 0.9% |

## Peşə və ali təhsil

Məktəbəqədər və ümumi təhsil müəssisələrindən fərqli olaraq müsahiblərin əksəriyyəti qeyd edir ki, onların bələdiyyəsində/şəhərində nə peşə təhsil müəssisəsi (59,2%), nə də dövlət maliyyələşdirməsi olan ali təhsil müəssisəsi (67,6%) fəaliyyət göstərmir. Məlum oldu ki, regionlar/hədəf bələdiyyələr arasında mühüm fərq var: Peşə və ali təhsil səviyyəsində fəaliyyət göstərən institutlarla bağlı Samtsxe-Cavaxeti Kvemo Kartlidən daha çox fərqlənir. Samtsxe-Cavaxeti bələdiyyəsində sorğuda iştirak edənlərin əksəriyyəti yazır ki, onların bələdiyyəsində/şəhərində peşə təhsil müəssisəsi (59,6%), eləcə də dövlət maliyyələşdirməsi olan ali təhsil müəssisəsi fəaliyyət göstərir (56,9%). Kvemo Kartlidə sorğuda iştirak edənlərin əksəriyyəti isə bu kimi müəssisələrin olmadığını qeyd edir: Peşə təhsil müəssisəsi – 75,9%, dövlət maliyyələşdirməsi olan ali təhsil müəssisəsi – 92,5%. Qalan 7,5% cavab verməkdən imtina edib.

Aydın olub ki, müsahiblərin çox az qismi peşə təhsil müəssisəsi (2,7%, N=13) və ya ali təhsil müəssisəsi xidmətindən (8%, N=24) faydalanır. 8 müsahib peşə təhsili xidmətindən razıdır (ballar 4 və 5), 5 nəfər isə neytral mövqe tutur (bal 3 – "həm razı həm narazı"). Digər tərəfdən isə dövlət maliyyələşdirməsi olan ali təhsil müəssisəsindən

faydalananlar arasında 15 müsahib xidmətdən razıdır (ballar 4 və 5), 3 nəfər narazıdır (ballar 1 və 2). Müvafiq olaraq, 6 müsahib neytral mövqe tutub (bal 3). Dövlət maliyyələşdirməsi olan ali təhsil müəssisələrindən narazılıq səbəbləri arasında ayrıca hallarda belə cavablar qeyd olunub: pedaqoqların ixtisası, təhsil proqramlarının az olması, qeyri-aktual təhsil proqramları, idarəetmə, bürokratiya, təhsil haqqı.

## BAŞLIQ 3. BƏLƏDİYYƏ XİDMƏTLƏRİ HAQQINDA MƏLUMATLILIQ

Fokus-qruplarda bələdiyyə xidmətləri haqqında məlumat almağın bir neçə əsas mənbəyi qeyd olundu: Kütləvi media vasitələri, əsasən yerli televiziya və radio, sosial şəbəkələr (Xüsusilə "Facebook"), bələdiyyələrin rəsmi veb-səhifələri və qeyri–formal əlaqələr – qohumlar, qonşular, dostlar və s. arasında məlumat mübadiləsi. Müsahiblərin kiçik qismi xidmətlər haqqında məlumatı bələdiyyə meri və kənd müvəkkilləri ilə məlumatlandırıcı görüşlərdə iştirak etməklə və ya bələdiyyəyə səfər vasitəsi ilə alır. Fokus-qrupların iştirakçılarından aydın oldu ki, bələdiyyə xidmətləri barədə məlumatları kifayət səviyyədə deyil və natamamdır.

> *„Çox adam xidmətlər haqqında bilir və düşünürəm ki, onlarda olan məlumat dəqiq olmaya bilər" (63 yaşlı qadın, müəllim, etnik gürcü, Bolnisi)*

Sosial və səhiyyə xidmətləri haqqında məlumat çatışmazlığı xüsusilə etnik azlıqlarda – azərbaycanlılar və ermənilərdə qeydə alınır. Çünki dil baryeri və inteqrasiyanın aşağı səviyyədə olmasına görə, gürcülərə nisbətən onların məlumat almaq imkanları azdır. Məhz buna görə, xidmətlər haqqında məlumat almaq üçün əsasən qeyri-formal yollardan istifadə edirlər. Əhali xidmətdən faydalanmış və ya bələdiyyə orqanından tam məlumat almaq imkanı olan şəxslərdən məlumat almağa çalışır. Fokus-qruplarda xidmətlər haqqında məlumat almaq mənbəyi olaraq yerli, etnik azlıqların dilində fəaliyyət göstərən media vasitələri qeyd olundu. Ancaq onu da qeyd etdilər ki, media xidmətləri haqqında məlumat sistematik şəkildə yayımlanmış və ola bilsin bütün lazımı məlumatı ala bilməsinlər. Tsalka və Ninotsminda sakinləri konkret media vasitələrini qeyd etdilər. Bunlar "Parvana" televiziyası və "Nor" radiosudur. Etnik azərbaycanlılarda "Marneuli" radiosu, Actual.ge veb-səhifəsi və Marneuli Televiziyası məşhurluq qazanıb. Marneuli sakinləri fokus-qrupda qeyd etdilər ki, bələdiyyənin fəaliyyəti haqqında əsasən sosial mediadan – "Facebook" vasitəsi ilə məlumat alırlar.

> *„Marneuli bələdiyyəsi feysbuk səhifəsi vasitəsi ilə iki dildə məlumat yayımlayır: Azərbaycan və gürcü dilində. Bundan əlavə, azərbaycan dilində başqa heç bir məlumat yoxdur" (28 yalı qadın, işləyən, etnik azərbaycanlı, Marneuli)*

Əgər vətəndaş azərbaycan dilində bələdiyyə orqanına müraciət edirsə, cavab almayacağı ehtimalı yüksəkdir. Çünki mövcud təcrübəyə görə, gürcü dilini bilməyən vətəndaşlar bələdiyyəyə müraciət məqsədi ilə gürcü dili bilənlərdən kömək istəyirlər. Ninotsminda sakinləri qeyd etdilər ki, gürcü dilində tərtib edilmiş elə sənədlərə imza atmalı olurlar ki, məzmununu başa düşmürlər. Ninotsminda bələdiyyəsinin spesifikası budur ki, bələdiyyə orqanlarında işləyənlərin əksəriyyəti etnik ermənidir və dil barieri əməkdaşlarda da mühüm problemdir.

Fokus-qrup iştirakçısı olan kənd sakinləri qeyd etdilər ki, bələdiyyə əməkdaşlarının təqdimat keçirməsi və yerli əhaliyə mövcud xidmətlər haqqında şəxsən məlumat vermələri mütləqdir. Xüsusilə etnik azlıqların yaşadığı qəsəbələrdə məlumat çatdırılmasına ehtiyac var. Çünki onların məlumat alması üçün imkan azdır. Məlumat ya-

yımlamağın daha bir yolu olaraq azlıqların dilində tərtib edilmiş broşürların paylanması qeyd olundu.

Fokus-qrup iştirakçıları qeyd etdilər ki, bələdiyyə nümayənələri ilə məlumat xarakterli görüş zamanı əsasən eyni şəxslər görüşdə iştirak edirlər. Onlar bələdiyyənin fəaliyyəti barədə onsuz da məlumatlıdırlar. Bunu nəzərə almaqla, əhalinin məlumat əlçatanlığı olmayan hissəsinə də məlumat çatdırmaqları yaxşı olardı.

# BAŞLIQ 4. SOSİAL VƏ SƏHİYYƏ XİDMƏTLƏRİ

## Sosial xidmətlər

Araşdırma çərçivəsində müsahiblərə bir tərəfdən bələdiyyə, digər tərəfdən isə dövlət (mərkəzi) sosial xidmətlərin siyahısı təqdim olundu. Məlum oldu ki, sorğuda iştirak edənlərin əksəriyyətinin (81,2%) nə özü, nə də ailə üzvləri heç bir bələdiyyə sosial xidmətindən faydalanmır. 6,4% birdəfəlik (pul və ya başqa növ) sosial yardım almaq təcrübəsi var. 4,3% isə aztəminatlı uşaqlar və yeni doğulmuş körpələrə dəstək proqramının benefisiarıdır. Qeyd edək ki, evdə xidmət proqramı və müxtəlif növ zorakılıq qurbanlarına yardım göstərmədən heç bir müsahib faydalanmır (bax. Diaqram #3).

**Diaqram #3**



Ayrıca bələdiyyə sosial xidmətindən faydalanmaq göstəricisi Samtsxe-Cavaxetidə, eləcə də Kvemo Kartlidə aşağıdır. Əksəriyyət hər iki regionda qeyd edir ki, nə onlar nə də ailə üzvləri heç bir xidmətdən faydalanmayıb: Samtsxe-Cavaxeti – 87,8%, Kvemo Kartli – 74,9%. Digər tərəfdən isə aydın oldu ki, Kvemo Kartlidə müxtəlif sosial xidmətlərdən faydalananların ümumi payı bir az yüksəkdir. Qeyd edək ki, Kvemo Kartlidə demək olar hər onuncu müsahib birdəfəlik (pul və ya başqa növ) sosial yardımdan faydalanır, Samtsxe-Cavaxetidə isə nisbətən aztəminatlı uşaqlara və yeni doğulmuş körpələrə dəstək proqramı benefisiarlarının payı daha çoxdur (Bax. Cədvəl #6).

**Cədvəl #6**

| Siz və ya ailə üzvünüz aşağıdakı bələdiyyə sosial xidmətlərindən faydalanırsınızmı? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Xeyr, heç biri | 87.8% | 74.9% |
| Birdəfəlik (pul ya başqa növ) sosial yardım | 3% | 9.6% |
| Evsiz şəxslərin sığınacaqla təmin edilməsi (sosial mənzil) | - | 0.1% |
| Çoxuşaqlı ailələrə/tək valideynlərə sosial yardım | 1.7% | 5.4% |
| Aztəminatlı uşaqlar və yeni doğulmuş körpələrə dəstək proqramı | 4.8% | 3.9% |
| Fiziki imkanları məhdud şəxslərə yardım | 2% | 1.2% |
| Pulsuz gediş haqqı | - | 0.6% |
| Pulsuz yeməkxana proqramı | 0.3% | - |
| Evdə qulluq proqramı | - | - |
| Müxtəlif növ zorakılıq qurbanlarına yardım | - | - |
| Gürcüstanın işğal edilmiş ərazilərindən məcburi köçkün şəxslər və döyüşçülər (veteranlar) və onların ailələrinə yardım | 0.3% | 1.6% |
| Təbii fəlakət nəticəsində zərərçəkmiş və ağır yaşam şəraitində olan şəxslərə dəstək | - | 0.1% |
| Ritualla bağlı yardım | - | 0.5% |
| Yeni evlənmiş ailələrin həvəsləndirilməsi | - | 0.1% |
| Onlayn təhsil dövründə aztəminatlı ailələrin təhsilə əlçatanlığı | - | 1.3% |
| Tələbələrə və idmançılara yardım | - | 0.5% |
| Digər | 0.1% | 0.2% |

Aydın olduğu kimi, müsahiblərin əksəriyyəti yuxarıda qeyd olunan bələdiyyənin sosial yardım/xidmətlərini vaxtında alır. Eyni tendensiya həm Samtsxe-Cavaxeti, həm də Kvemo Kartli üçün uyğundur. Müxtəlif xidmərlərdən faydalananların əksəriyyəti xidmət almaq üçün lazımı qeydiyyat prosedurlarını asan (4 ballıq şkalada 3 və 4 bal) qiymətləndirir.

Ayrı xidmətlər halında 65%-dən çoxunun belə təcrübəsi var. Pulsuz yeməkxana proqramının qiymətləndirilməsi zamanı göstərici 57,9%-ə qədər azalır. Digər tərəfdən, qeyd etmək lazımdır ki, fiziki imkanları məhdud şəxslər üçün yardımdan faydalanan hər üçüncü müsahib qeydiyyat prosedurunun çətin olduğunu (34,5%, N=7) qeyd edir. Onların payı demək olar beşdə birə bərabərdir. Onların qiymətləndirməsinə görə, birdəfəlik (pul və ya başqa növ) sosial yardım və çoxuşaqlı ailələrin/tək valideynlərin sosial yardım alması üçün lazımı qeydiyyat

proseduru çətindir (4 ballıq şkalada 1 və 2 ballar) (Bax. Cədvəl #2).

Mövcud vəziyyəti nəzərə almaqla müsahiblər bələdiyyələrin göstərdiyi əsas sosial xidmətlərdən razıdırlar – göstərici 57%-dən artıqdır (5 ballıq şkalada 4 və 5 bal). Ancaq bəzi xidmətlərlə bağlı sorğuda iştirak edən şəxslər neytral mövqe tuturlar (3 bal). Daha konkret desək, tez-tez istifadə olunan xidmətlərlə bağlı razılıq göstəriciləri belədir:

- Birdəfəlik (pul və ya başqa növ) sosial yardım – 76%, N=79
- Aztəminatlı uşaqlara və yeni doğulmuş körpələrə dəstək proqramı – 89,8%, N=55
- Çoxuşaqlı ailələr/tək valideynlər üçün sosial yardım – 71,4%, N43

(Ətraflı göstəricilərə bax. Cədvəl #7)

**Cədvəl #7**

| | Bələdiyyənin sosial xidmətlərini almaq üçün tələb olunan qeydiyyat prosedurunu necə qiymətləndirərdiniz? (%) | | | | | | Bələdiyyələr tərəfindən göstərilən sosial xidmətlərdən nə dərəcədə razısınız? (%) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Çox çətin | Çətin | Asan | Çox asan | Qeydiyyatla əlaqəsi olmayıb | Bilmirəm | Çox narazı | Narazı | Həm razı həm narazı | Razı | Çox razı | Cavab verməkdə çətinlik çəkirəm |
| Birdəfəlik (pul və ya başqa növ) sosial yardım (N=79) | 2.6 | 16 | 61.5 | 11.5 | 7 | 1.3 | 1 | 9.5 | 13.6 | 62.2 | 13.8 | - |
| Evsiz şəxslərin sığınacaqla təmin edilməsi (sosial mənzil) (N=1) | - | - | 100 | - | - | - | - | - | - | 100 | - | - |
| Çoxuşaqlı ailələr/tək valideynlər üçün sosial yardım (N=43) | 2.1 | 16.7 | 66.2 | 15 | - | - | - | 2.1 | 24.7 | 60.8 | 10.6 | 1.8 |
| Aztəminatlı uşaqlara və yeni doğulmuş körpələrə dəstək proqramı (N=55) | 6.7 | 12.5 | 59.2 | 15.1 | - | 6.4 | 1.3 | 1.7 | 7.2 | 73.1 | 16.7 | - |
| Fiziki imkanları məhdud şəxslərə yardım (N=21) | - | 34.5 | 57.9 | 7.6 | - | - | - | 10.6 | 53.9 | 30.6 | 4.9 | - |
| Pulsuz gediş haqqı (N=5) | - | - | 63.5 | 36.5 | - | | - | - | - | 55.3 | 44.7 | - |
| Pulsuz yeməkxana proqramı (N=2) | - | - | 57.9 | - | - | 42.1 | - | - | 42.1 | 57.9 | - | - |

| | Bələdiyyənin sosial xidmətlərini almaq üçün tələb olunan qeydiyyat prosedurunu necə qiymətləndirərdiniz? (%) | | | | | | Bələdiyyələr tərəfindən göstərilən sosial xidmətlərdən nə dərəcədə razısınız? (%) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Çox çətin | Çətin | Asan | Çox asan | Qeydiyyatla əlaqəsi olmayıb | Bilmirəm | Çox narazı | Narazı | Həm razı həm narazı | Razı | Çox razı | Cavab verməkdə çətinlik çəkirəm |
| Gürcüstanın işğal edilmiş ərazilərindən məcburi köçkün şəxslər və döyüşçülər (veteranlar) və onların ailələrinə yardım (N=14) | - | - | 70 | 12.6 | - | 17.5 | 13 | 8.2 | 53.8 | 25 | - | - |
| Təbii fəlakət nəticəsində zərərçəkmiş və ağır yaşam şəraitində olan şəxslərə dəstək (N=1) | - | 100 | - | - | - | - | - | - | 100 | - | - | - |
| Ritualla bağlı yardımlar (N=3) | - | - | 69.7 | 30.3 | - | - | - | - | - | - | 100 | - |
| Yeni evlənmiş ailələrin həvəsləndirilməsi (N=1) | - | 100 | - | - | - | - | - | - | 100 | - | - | - |
| Onlayn təhsil dövründə aztəminatlı ailələrin təhsilə əlçatanlığı (N=8) | 9.1 | - | 37.8 | 53.1 | - | - | - | - | 9.1 | 50.2 | 40.7 | - |
| Tələbələrə və idmançılara yardım (N=3) | - | - | 100 | - | - | - | - | - | - | 100 | - | - |
| Digər (N=2) | 42.3 | - | 57.7 | - | - | - | - | - | - | 100 | - | - |

Qeydiyyat prosedurlarının region sahəsində müzakirəsi zamanı fərqli təcrübə məlum oldu. Doğrudur, Samtsxe-Cavaxetidə, eləcə də Kvemo Kartlidə sorğuda iştirak edənlərin əsas hissəsi hesab edir ki, xidmətdən faydalanmaq üçün lazımı qeydiyyat proseduru asandır. Ancaq müxtəlif istisnalar var. Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin 41,7%-nin təcrübəsinə görə, birdəfəlik (pul və ya başqa növ) sosial yardımın qeydiyyat prosesi çox çətin və ya çətindir (1 və 2 bal). Ola bilsin, məhz bu xidmətdən faydalananların hissəsinin aşağı olmasının (3%) səbəbi budur. Kvemo Kartlidə isə yalnız 11,6% hesab edir ki, bu xidmətlərdən faydalanmaq üçün lazımı qeydiyyat proseduru çətindir (1 və 2 bal). Digər tərəfdən, Kvemo Kartlidə problem olaraq aztəminatlı uşaqlara və yeni doğulmuş körpələrə dəstək proqramından faydalanmaq qeyd olundu (qeydiyyat prosedurları çətindir və ya çox çətindir – 24,9% (1 və 2 bal)). Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin əksəriyyəti, ayrıca xidmətlərdən faydalanmaq baxımından razı olduqlarını bildirirlər (4 və 5 bal) – hər xidmətdən razılıq göstəricisi 57%-dən

artıqdır. Kvemo Kartlidə isə ayrıca xidmətlərdən razı olanlar 71%-dən çoxdur. İki regionda istisna fiziki imkanları məhdud olan şəxslərə yardımdır. Samtsxe-Cavaxetidə qeyd olunan xidmətdən 29%, Kvemo Kartlidə isə 44,3% razıdır. Sonra dövlət (mərkəzi) sosial xidmətdən faydalananların təcrübəsi qiymətləndirildi. Məlum olduğu kimi, sorğuda iştirak edənlərin dörddə birindən artığının (26,4%) nə özü, nə də ailə üzvləri heç bir xidmətdən faydalanmırlar. Digər tərəfdən, 29%-nin yaş təqaüdü, 19,9% dövlət sığortası, 18% -nin isə kommunal subsidiyalardan faydalanmaq təcrübəsi var (Bax. Diaqram #4).

**Diaqram #4**




Samtsxe-Cavaxetidə eləcə də Kvemo Kartlidə sorğuda iştirak edən şəxslərin böyük hissəsi qeyd edir ki, aşağıdakı mərkəzi sosial xidmətlərdən faydalanır:

- Yaşa görə təqaüd: Samtsxe-Cavaxeti- 29,2%, Kvemo Kartli – 28,8%
- Dövlət tibb sığortası: Samtsxe-Cavaxeti-21,1%, Kvemo Kartli – 18,6%
- Kommunal subsidiyalar: Samtsxe-Cavaxeti – 20,1%, Kvemo Kartli – 15,8%

Ancaq qeyd etmək lazımdır ki, təxminən 26% heç bir dövlət xidmətindən faydalanmır (Samtsxe-Cavaxeti – 23,9%, Kvemo Kartli – 29,1%) (Bax. Cədvəl #8).

**Cədvəl #8**

| Siz və ya ailə üzvünüz aşağıda sadalanan dövlət (mərkəzi) sosial xidmətlərdən hər hansı birindən faydalanırsınızmı? (Region konteksti) | სამცხე-ჯავა-ხეთი (N=600) | ქვემო ქართლი (N=600) |
|---|---|---|
| Xeyr, heç biri | 23.9% | 29.1% |
| Yaş təqaüdü | 29.2% | 28.8% |
| Fiziki imkanları məhdud şəxslər (həmçinin, uşaqlar) üçün təqaüd | 3.7% | 3.6% |
| Fiziki imkanları məhdud şəxslər üçün Gün Mərkəzləri | - | 0.3% |
| Ailə başçısını itirənlər üçün təqaüd | 0.1% | 0.4% |
| Müharibə veteranları üçün təqaüd | 1.3% | 1% |
| Məcburi köçkün şəxslər üçün yardım | 0.2% | 1.1% |
| Dövlət tibb sığortası | 21.1% | 18.6% |
| Tək yaşayan təqaüdçülər üçün sosial yardım | 0.2% | 0.4% |
| Kommunal subsidiyalar | 20.1% | 15.8% |
| Sosial xidmətçilər üçün vauçerlər (məs: tibbi yardım mərkəzinin vauçeri, erkən müdaxilə vauçeri, qida vauçeri və.s) | 0.1% | 0.7% |
| Uşaqların erkən inkişaf proqramı | - | 0.1% |
| Uşaqların bərpası/habilitasiya proqramı | 0.1% | - |
| Digər | - | 0.1% |

Məlum oldu ki, benefisiarlar dövlət sosial xidmətini vaxtında alırlar – hər bir xidmətlə bağlı göstərici 80%-i aşır. Yeganə istisna fiziki imkanları məhdud şəxslərin Gün Mərkəzlərindən faydalanmasıdır – doğrudur, 63,6% müvafiq xidməti vaxtında alır, ancaq üçdə birindən artığının (34,4%) əks təcrübəsinin olması da mühümdür. Müsahiblərin əksəriyyəti ayrıca xidmətlərin qiymətləndirilməsi zamanı qeyd edir ki, xidmətdən faydalanmaq üçün lazımı qeydiyyat prosedurları asan idi. Fiziki imkanları məhdud şəxslərin Gün Mərkəzlərindən faydalanması üçün qeydiyyat üçdə birindən artıq adamlar üçün (36,4%) çətin təcrübə ilə əlaqələndirilir. Tək yaşayan təqaüdçülər üçün sosial yardımla bağlı 31,3% qeyd edib ki, xidmətdən faydalanmaq üçün qeydiyyat prosedurundan keçməyib (Bax. Cədvəl #3).

Göstərilən xidmətlərlə əlaqədar müsahiblərin əksəriyyəti dövlət tərəfindən göstərilən sosial xidmətdən razıdır. Ancaq bəzi xidmətlərlə bağlı narazı olanlara da diqqət yetirmək lazımdır. Doğrudur, əksəriyyət (64,4%) fiziki imkanları məhdud şəxslərin Gün Mərkəzləri xidmətindən razıdır, ancaq sorğuda iştirak edənlərin üçdə birindən çoxu (35,6%) narazı olduğunu bildirir (2 bal). Müsahiblərin 42,7%-i dövlətin göstərdiyi məcburi köçkün şəxslərə yardım xidmətindən  çox narazı ya narazıdır (1 və 2 bal) (Bax. Cədvəl #9).

**Cədvəl #9**

| | Dövlət (mərkəzi) sosial xidmətlərindən faydalanmaq üçün tələb olunan qeydiyyat prosedurunu necə qiymətləndirərdiniz? (%) | | | | | | Dövlət tərəfindən göstərilən sosial xidmətlərdən nə dərəcədə razısınız? (%) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Çox çətin | Çətin | Asan | Çox asan | Qeydiyyat prosesi ilə əlaqəsi olmayıb | Bilmirəm | Çox narazı | Narazı | Həm razı həm narazı | Razı | Çox razı | Cavab verməkdə çətinlik çəkirəm |
| Yaşa görə təqaüd (N=494) | - | 2.8 | 64.6 | 25.2 | 3 | 4.4 | 2.6 | 6.4 | 15.3 | 67.8 | 6 | 1.9 |
| Fiziki imkanları məhdud şəxslər (həmçinin, uşaqlar) üçün təqaüd (N=61) | 10.9 | 18.7 | 47.8 | 14.2 | 2.3 | 6.3 | 5.6 | 15.3 | 24.2 | 42.8 | 12.2 | - |
| Fiziki imkanları məhdud şəxslər üçün Gün Mərkəzləri (N=3) | - | 36.4 | 63.6 | - | - | - | - | 35.6 | - | 64.4 | - | - |
| Ailə baçısını itirmiş şəxslər üçün təqaüd (N=5) | - | - | 42.5 | 57.5 | - | - | - | 41.5 | - | 42.5 | 16 | - |
| Müharibə veteranları üçün təqaüd (N=22) | - | - | 77.9 | 22.1 | - | - | 8.3 | 10.5 | 12.2 | 60.4 | 8.6 | - |
| Məcburi köçkün şəxslər üçün yardım (N=12) | - | - | 71.5 | 9.1 | - | 19.4 | 7.2 | 35.5 | 9.8 | 47.5 | - | - |
| Dövlət tibb sığortası (N=331) | 0.2 | 0.8 | 72.3 | 17.9 | 6.3 | 2.5 | - | 2 | 12.8 | 74.8 | 5.9 | 4.6 |
| Tək yaşayan təqaüdçülər üçün sosial yardım (N=5) | 17.3 | 16.7 | 17.3 | 17.3 | 31.3 | - | - | 17.3 | 16.7 | 66 | - | - |
| Kommunal subsidiyalar (N=301) | - | 0.7 | 77.9 | 10.1 | 4.9 | 6.4 | - | 0.8 | 10.4 | 80.5 | 8.3 | - |
| Sosial xidmətlər üçün vauçerlər: (Məs: tibbi yardım mərkəzinin vauçeri, erkən müdaxilə vauçeri, qida vauçeri və s.) (N=7) | - | - | 42.4 | 40.7 | - | 17 | - | - | - | 46.5 | 53.5 | - |
| Uşaqlar üçün erkən inkişaf proqramı (N=1) | - | - | 100 | - | - | - | - | - | - | 100 | - | - |
| Uşaqların bərpa/habilitasiya proqramı (N=1) | - | - | 100 | - | - | - | - | - | - | 100 | - | - |
| Digər (N=2) | - | - | 100 | - | - | - | - | - | 100 | - | - | - |

Region kontekstində ayrıca dövlət (mərkəzi) sosial yardım almaq üçün lazımı qeydiyyat prosedurları, əsasən, asan olaraq qiymətləndirilir. Ancaq fiziki imkanları məhdud şəxslərin (həmçinin, uşaqların) təqaüd almaq prosesi problemli təbəqə olaraq müəyyən edilir. Samtxe Cavaxetidə (26,5%) eləcə də Kvemo Kartlidə (32,7%) sorğuda iştirak edənlərin böyük hissəsi qeyd edir ki, qeydiyyat proseduru çox çətin və ya çətin idi. Maraqlıdır ki, Samtsxe-Cavaxetidə yardım alan bir nəfər qeyd edir ki, tək yaşayan təqaüdçülər üçün sosial yardım almağa görə qeydiyyatdan keçmək proseduru lazım deyil, Kvemo Kartlidə həmin xidmətlə bağlı iki müsahib qeydiyyat prosesinin çətin olduğunu bildirir. Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin əksəriyyəti xidmətdən razıdır – göstərici ayrıca hallarda 70%-i aşır.

## Səhiyyə xidmətləri

Sosial xidmətlər kimi müsahiblər bələdiyyə və mərkəzi səhiyyə xidmətlərini də qiymətləndirdilər. Bu halda da sorğuda iştirak edənlərin əksəriyyəti (89,4%) heç bir bələdiyyə səhiyyə xidmətindən faydalanmır (heç bir müsahibin ailə üzvləri). Qeyd olunan təbəqələr arasında isə müqayisədə pulsuz dərmanlarla təminat (6,6%) və bahalı müayinələrin (kompüter tomoqrafiyası, ezofaqoqastroduodenoskopiya, koronar angioqrafiya, döş xərçənginin genetik tədqiqatı və s.) maliyyələşdirilməsi (1,1%) təcrübəsi müəyyən edilib (Bax. Diaqram #5).

**Diaqram #5**




Sosial xidmətlərlə müqayisədə bələdiyyənin səhiyyə xidmətlərindən faydalanmayan müsahiblərin hissəsi olduqca yüksəkdir: Samtsxe-Cavaxeti – 93,9%, Kvemo Kartli – 85%. Qeyd olunan təbəqələr arasında isə müqayisədə pulsuz dərmanlarla təminat xidməti yayılıb: Samtsxe-Cavaxeti – 3,8%, Kvemo Kartli – 9,4% (Bax. Cədvəl #10).

**Cədvəl #10**

| Siz və ya ailə üzvünüz aşağıda sadalanan hər hansı bələdiyyə səhiyyə xidmətlərindən faydalanırsınızmı? | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Xeyr, heç biri | 93.9% | 85% |
| Pulsuz dərmanlarla təminat | 3.8% | 9.4% |
| Autizm spektri pozuntusu olan uşaqların bərpası | 0.4% | 0.1% |
| Müxtəlif xroniki xəstəlikləri (Xərçəng, böyrək çatışmazlığı, leykemiya və s.) olan şəxslərə yardım | - | 1.3% |
| Bahalı müayinələrin maliyyələşdirilməsi | 0.5% | 1.7% |
| Fiziki imkanları məhdud şəxslərin və aztəminatlı şəxslərə tibbi yardım | 0.9% | 0.4% |
| Digər | 0.5% | 2% |

Müsahiblərin əksəriyyəti qeyd edir ki, yuxarıda qeyd olunan xidmətləri vaxtında alır – göstərici əksər hallarda 94%-dən artıqdır. Müqayisədə autizm spektri pozulmuş uşaqların bərpası istiqamətində nisbətən aşağı nəticə qeydə alındı. 26,7%  vaxtında yardım ala bilməyib, ancaq əksəriyyət yenidən müsbət təcrübəsi olduğunu qeyd edir. Ayrıca hallarda müsahiblərin əksəriyyəti qeyd edir ki, xidmətdən faydalanmaq üçün lazımı qeydiyyat prosedurları asan idi ( 4 ballıq şkalada 3 və 4 bal). Müqayisədə yenidən autizm spektri pozulmuş uşaqların bərpası problem olaraq qeyd olunur – 26,7% qeydiyyat prosedurlarını çətin qiymətləndirir. 40,1% isə bu kimi təbəqələrə müxtəlif xroniki xəstəikləri olan adamlara yardım üçün lazımı qeydiyyat prosesini də daxil etdi (Bax. Cədvəl #4).

Mövcud təcrübə əsasında müsahiblərin əksəriyyəti əsas hallarda bələdiyyələr tərəfindən göstərilən səhiyyə xidmətlərindən razıdır. Tendensiya yenə qorunub – autizm spektri pozulmuş uşaqların bərpasından faydalanan şəxslərin (26,7%) narazılıq təcrübəsi var. Müxtəlif xroniki xəstəlikləri olan adamlara yardım istiqamətində müsahiblərin 40,1% ciddi mövqe bildirməkdən çəkindi və bələdiyyənin xidmətini neytral qiymətləndirdi (Bax. Cədvəl #11).

**Cədvəl #11**

| | Bələdiyyənin səhiyyə xidmətlərindən faydalanmaq üçün tələb olunan qeydiyyat prosedurunu necə qiymətləndirərdiniz? (%) | | | | | | Bələdiyyələrin göstərdiyi səhiyyə xidmətlərindən nə dərəcədə razısınız? (%) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Çox çətin | Çətin | Asan | Çox asan | Qeydiyyat prosesi ilə əlaqəsi olmayıb | Bilmirəm | Çox narazı | Narazı | Həm razı həm narazı | Razı | Çox razı | Cavab verməkdə çətinlik çəkirəm |
| Pulsuz dərmanlarla təminat (N=85) | 4.8 | 6.4 | 73.9 | 3.4 | 2 | 9.4 | - | 8.2 | 26.9 | 64.9 | - | - |
| Autizm spektri pozuntusu olan uşaqların bərpası (N=4) | - | 26.7 | 73.3 | - | - | - | - | 26.7 | 49.2 | 24.1 | - | - |
| Müxtəlif xroniki xəstəlikləri (Xərçəng, böyrək çatışmazlığı, leykemiya və s.) olan şəxslərə yardım (N=10) | - | 40.1 | 59.9 | - | - | - | - | - | 40.1 | 59.9 | - | - |
| Bahalı müayinələrin maliyyələşdirilməsi (N=15) | - | 5.7 | 72.3 | 7.9 | 14.1 | - | - | 5.7 | 22.7 | 71.5 | - | - |
| Fiziki imkanları məhdud şəxslərin və aztəminatlı şəxslərə tibbi yardım  (N=9) | - | - | 66.5 | 9.3 | - | 24.1 | - | - | 9.9 | 80.8 | 9.3 | - |
| Digər (N=16) | - | 6.3 | 93.7 | - | - | - | | - | 19.8 | 60 | 20.1 | - |

Kvemo Kartlidə qeyd olunan xidmətlərlə bağlı qeydiyyatın nisbətən çətin olmasından söhbət açırlar: Müxtəlif xroniki xəstəlikləri olan şəxslərə yardım – 40,1% (N=4), pulsuz dərman təminatı – 13,3% (N7). Samtsxe-Cavaxetidə isə autizm spektri pozulmuş uşağın bərpa proqramının benefisiarı da xidmətdən faydalanmaq prosedurlarının çətin olmasından söhbət açır (35,7%, N=1). Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlər arasında xidmətlərdən razılıq göstəricisi 63%-dən artıqdır; Kvemo Kartlidə ayrıca hallarda göstəricilər 56%-ə qədər azalıb. Hər iki regi-

onda istisna autizm spektri pozulmuş uşaqların bərpa xidmətidir. Samtsxe-Cavaxetidə razı müsahiblər 32,3%-ə bərabərdir. Narazıların sayı isə 35,7%-dir (2 bal). Kvemo Kartlidə isə bu xidmətdən faydalanan müsahib neytral mövqe tutur (3 bal).

Sorğu nəticəsində məlum oldu ki, müsahiblərin əksəriyyəti (53,6%) dövlət (mərkəzi) səhiyyə xidmətindən də faydalanmayıb. Demək olar beşdə biri kənd həkimi, 13,5%-i isə təcili yardım xidmətindən faydalanıb. Demək olar ki, onda biri immunizasiya xidmətindən (planlı peyvəndlər) faydalananlara bərabərdir (Bax. Diaqram #6).

**Diaqram #6**




Bələdiyyə səhiyyə xidməti kimi Samtsxe-Cavaxeti (60,7%) və Kvemo Kartli (46,6%) əhalisinin əsas hissəsi heç dövlət səhiyyə xidmətlərindən də faydalanmır. Ancaq bələdiyyə səviyyəsində göstərilən xidmətlərlə müqayisədə göstərici aşağıdır. Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlər arasında təcili tibbi yardım xidməti (11,5%) və kənd həkimi (17,5%) xidmətindən faydalanan şəxslərin sayı onda birdən çoxdur. Kvemo Kartlidə təcrübə oxşardır, təxminən 18% məhz qeyd olunan xidmətdən faydalanır, ancaq əlavə olaraq məlum olub ki, onda birindən çoxusu (11,7%) immunizasiya (planlı peyvəndlər) edir (Bax. Cədvəl #12).

**Cədvəl #12**

| Siz və ya ailə üzvünüz aşağıda sadalanan dövlət (mərkəzi) səhiyyə xidmətlərindən faydalanırsınızmı? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Xeyr, heç biri | 60.7% | 46.6% |
| Xəstəliklərin erkən aşkarlanması və skrininq | 0.1% | 0.9% |
| İmmunizasiya (planlı peyvəndlər) | 7.1% | 11.7% |
| Vərəmin idarəedilməsi | 0.1% | - |
| HİV infeksiyası/QİÇS-in idarə edilməsi | - | 0.1% |
| Ana və uşaq sağlamlığı (yüksək riskli hamilələrin və yeni uşaq dünyaya gətirmiş qadınların müalicəsi, genetik patalogiyaların erkən aşkarlanması, yeni doğulmuşların eşitməsinin skrininq müayinəsi, hamilələrin dərmanla təmin edilməsi və s.) | - | 1.2% |
| Narkomaniya xəstələrinin müalicəsi | - | - |
| Psixi sağlamlıq | 0.7% | 0.7% |
| Diabetin idarəedilməsi | 0.7% | 1.8% |
| Təcili tibbi yardım xidməti | 11.5% | 15.3% |
| Kənd həkimi | 17.5% | 20.4% |
| Xroniki xəstəliklərin dərmanlarla müalicəsinin təmin edilməsi | 1.4% | 1.4 |
| Digər | 0.1% | - |

Müsahiblərin böyük əksəriyyəti dövlət (mərkəzi) səhiyyə xidmətini vaxtında alır, göstərici, əksər hallarda 100%-ə bərabərdir (Burada N müsahiblərin sayı azdır), ayrıca hallarda 91%-97% arasında dəyişir:

- Psixi sağlamlıq – 91,7%
- Diabetin idarəedilməsi – 91,8%
- Təcili tibbi yardım – 96.1%
- Kənd həkimi – 96.5%
- Xroniki xəstəliklərin dərmanlarla müalicəsinin təmin edilməsi – 96,4%

Psixi sağlamlıq xidmətindən başqa digər mərkəzi səhiyyə xidmətlərindən faydalanmaq üçün lazımı qeydiyyat prosedurları müsahiblərin əksəriyyəti tərəfindən asan (3 və 4 bal) qiymətləndirilir. Psixi sağlamlıq xidmətlərindən faydalanan hər ikinci şəxsə xidmət göstərmək üçün nəzərdə tutulmuş qeydiyyat prosesi çətin qiymətləndirilib (1 və 2 bal). 49,6% isə bu halda da qeydiyyatın asan prosedurlarını qeyd edir (Bax. Cədvəl #5).

Bu təcrübəni nəzərə almaqla, müsahiblər əsasən dövlət səhiyyə xidmətlərini müsbət qiymətləndirirlər. Sorğuda iştirak edənlərin əksəriyyəti xidmətdən razıdır. Ancaq qeyd etmək lazımdır ki, xəstəliklərin erkən aşkarlanması və skrininqi, vərəmin idarəedilməsi proqramının qiymətləndirilməsi zamanı neytral təbəqə dominant mövqe tutur (3 bal – "həm razı həm narazı"). Sorğuda iştirak edən hər ikinci adam psixi sağlamlıq baxımından dövlətin göstərdiyi xidmətdən narazıdır (2 bal) (Bax. Cədvəl#13).

**Cədvəl #13**

| | Siz dövlət (mərkəzi) səhiyyə xidmətlərindən faydalanmaq üçün tələb olunan qeydiyyat prosedurunu necə qiymətləndirərdiniz? (%) | | | | | | Dövlətin göstərdiyi səhiyyə xidmətlərindən nə dərəcədə razısınız? (%) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Çox çətin | Çətin | Asan | Çox asan | Qeydiyyatla əlaqəsi olmayıb | Bilmirəm | Çox narazı | Narazı | Həm razı həm narazı | Razı | Çox razı | Cavab verməkdə çətinlik çəkirəm |
| Xəstəliklərin erkən aşkarlanması və skrininq (N=8) | - | - | 76 | 10.8 | 13.1 | - | - | - | 55.2 | 33.9 | 10.8 | - |
| İmmunizasiya (planlı peyvəndlər) (N=134) | - | - | 75.3 | 18.8 | 5.1 | 0.8 | - | 0.7 | 3.1 | 88.3 | 7.9 | - |
| Vərəmin idarəedilməsi (N=1) | - | - | 100 | - | - | - | - | - | 100 | - | - | - |
| HİV infeksiyası/QİÇS-in idarə edilməsi (N=1) | - | - | 100 | - | - | - | - | - | - | 100 | - | - |
| Ana və uşaq sağlamlığı (yüksək riskli hamilələrin və yeni uşaq dünyaya gətirmiş qadınların müalicəsi, genetik patalogiyaların erkən aşkarlanması, yeni doğulmuşların eşitməsinin skrininq müayinəsi, hamilələrin dərmanla təmin edilməsi və s.) (N=8) | - | - | 100 | - | - | - | - | - | - | 100 | - | - |
| Psixi sağlamlıq (N=7) | 42.1 | 8.3 | 39.7 | 10 | - | - | - | 50.4 | - | 49.6 | - | - |
| Diabetin idarə edilməsi (N=20) | 4.2 | 19.6 | 71.8 | 4.4 | - | - | - | 17 | 9.4 | 73.6 | - | - |
| Təcili tibbi yardım xidməti (N=192) | - | 5.7 | 74.1 | 15.3 | 4 | 0.9 | - | 3.1 | 9.4 | 78.6 | 8.9 | - |
| Kənd həkimi (N=283) | - | 2.3 | 79.9 | 12 | 2.9 | 2.9 | 0.6 | 3.4 | 6.1 | 76.5 | 12.6 | 0.8 |
| Xroniki xəstəliklərin dərmanlarla müalicəsinin təmin edilməsi (N=20) | 12.2 | 11.1 | 51.3 | 20.2 | - | 5.3 | - | 3.6 | 11 | 68.1 | 17.3 | - |
| Digər (N=1) | - | - | - | 100 | - | - | - | - | - | 100 | - | - |

Maraqlıdır ki, əgər Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlər arasında heç bir müsahib psixi sağlamlıqla əlaqədar xidmətlər üçün lazımı qeydiyyat prosedurlarını çətin qiymətləndirmir. Kvemo Kartlidə bu xidmətdən faydalanan bütün fərdlər (N=5) qeyd edir ki, qeydiyyat prosesi çətin və ya çox çətindir. Diabet xidməti ilə əlaqədar qiymətləndirmələr qeydə alınır. Kvemo Kartlidə sorğuda iştirak edənlərin üçdə biri (33,4%) xidmətdən fay-

dalanmaq üçün lazımı qeydiyyat prosedurlarının çətin olduğunu diqqətə yetrir ( 1 və 2 bal). Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin əksəriyyət xroniki xəstəliklər üçün dərman almaq üçün mürəkkəb qeydiyyat prosesindən keçməli olduğunu qeyd edir (59,6%, N=5). Kvemo Kartlidə sorğuda iştirak edən, bu xidmətdən faydalanan müsahiblərin 22,2% də (N=2) bu mövqeyi qeyd edir. Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlər arasında hər xidmət sahəsində göstərilən xidmətdən razılıq səviyyəsi yüksəkdir, ayrıca göstəricilər 85%-dən artıqdır. Kvemo Kartlidə sorğuda iştirak edənlərin əksəriyyəti ayrıca xidmətlərdən razıdırlar, ancaq məsələn, psixi sağlamlıqdan faydalanan müsahiblər xidmətdən narazıdırlar.

* * *

**Keyfiyyət araşdırması** çərçivəsində fokus-qrup iştirakçıları faydalandıqları sosial və səhiyyə xidmətlərini qeyd etdilər. Sosial xidmətlər arasında qeyd edilməlidir – birdəfəlik maddi yardım, uşaqlar üçün incəsənət dərnəklərində (musiqi, rəsm) iştirak etmənin maliyyələşdirilməsi, ritual xidməti. Səhiyyə xidmtələri arasında qeyd olunub – sağlamlıqla əlaqədar müayinələr, əməliyyat və dərmanların qarşılıqlı maliyyələşdirilməsi. İştirakçılar ümumi sığorta çərçivəsində maliyyələşdirilən səhiyyə xidmətlərindən də danışdılar. Dərin müsahibə iştirakçısı olan Axalkalaki bələdiyyəsinin yerli hakimiyyət nümayəndələri həssas vəziyyətdə olan şəxslərə göstərilən yardımları qeyd ediblər. Bələdiyyə nümayəndələrinin fikrincə yardımlar rəngarəngdir və nəzərdə tutur: dərmanlarla təminatı, pul yardımını (birdəfəlik və ya şəxsin statusundan asılı olaraq müəyyən müntəzəmliklə), dəfn xərclərinin ödənməsi, ərzaq paketləri ilə yardımı, şəhərlər arasında nəqliyyatı, odunla təminat, fiziki imkanları məhdud şəxslərin araba ilə təmin edilməsini (beynəlxalq təşkilatların dəstəyi ilə) və s.

Fokus-qrupların iştirakçıları sosial və səhiyyə bələdiyyə xidmətləri və maliyyələşdirmə prosedurlarını qiymətləndiriblər. Müzakirələr nəticəsində sosial və səhiyyə üzrə bələdiyyə xidmətlərindən razılıq müəyyən edildi. Prosedurları keçmək mühüm çətinliklərlə əlaqədar deyil. Müzakirə iştirakçılarının qeyd etdiyi kimi, mövcud ehtiyacların təmin edilməsinin proqramlaşdırılması və vəsaitlərin bələdiyyə büdcəsindən məqsədyönlü şəkildə ayrılması vacibdir.

> *„Mən aztəminatlı şəxsəm və faydalanmışam, bir neçə əməliyyat etdirmişəm və 100 faiz maliyyələşdiriblər. Dərmanların da müəyyən qədərini maliyyələşdirirlər. Maliyyə almaq çox asan idi, çünki həkimin sənədlərini bələdiyyəyə verdim və maliyyələşdirdilər" (32 yaşlı kişi, özünüməşğul, etnik gürcü, Axaltsixe);*
>
> *"Mənim uşağıma əməliyyat lazım oldu. Bələdiyyədən müsbət cavab gəldi. Bələdiyyəyə yalnız ərizə yazdım və 100 Forma verdim. Asan maliyyələşdirildi" (63 yaşlı qadın, müəllim, etnik gürcü, Bolnisi);*
>
> *„Mən serebral iflicəm və məşqləri Tbilisidə edirdim, bir neçə dəfə pul yardımına ehtiyacım oldu və bələdiyyəyə müraciət etdim, 10 günlük kursu maliyyələşdirdilər" (19 yaşlı oğlan, tələbə, etnik gürcü, Tetritskaro).*

Fokus-qrup iştirakçıları bələdiyyə meriyalarının maliyyələşdirmədən imtina etmə halları barədə də danışıblar. İmtina səbəbi adətən kifayət qədər vəsaitin olmamasıdır. Həmçinin, bələdiyyənin səhiyyə xidmətlərindən faydalanan şəxslər əməliyyatdan sonra bərpanın maliyyələşdirilməməsinə görə narazılıqlarını bildiriblər. Bu əhali üçün mühüm xərclərlə əlaqədardır. İştirakçıların qiymətləndirməsinə görə, məhz bu istiamətdə bələdiyyələrin yardımına ehtiyac duyurlar. Qeyd edək ki, fokus-qruplarda iştirak edən etnik azlıq nümayəndələrinin sosial və səhiyyə xidmtələrindən faydalanmaq baxımından problemləri yaranmayıb.

Dərin müsahibələr çərçivəsində yerli hakimiyyət nümayəndələri qeyd ediblər ki, yardım/xidmət paketi bütün bələdiyyələrdə iki təbəqəni əhatə edir: a) Sosial yardımlar və b) Səhiyyə proqramı çərçivəsində olan xidmətlər. Vətəndaş cəmiyyəti təşkilat nümayəndələri qeyd edilər ki, sosial və səhiyyə proqramları çərçivəsində çox adama yardım edirlər, ancaq yardım tələbi və ehtiyacı olanların sayı daha çoxdur.

*„Adamlara dərman pulu verirlər, müalicə pulu köçürürlər, eləcə də Bolnisidə çox böyük yardımlar edilir. Çünki büdcə buna imkan verir, amma bunlar hamısı kifayət deyil". (Kvemo Kartlinin Etniklərarası İttifaqı – Bolnisi).*

Yerli hakimiyyət nümayəndələri mövcud mərkəzi və bələdiyyə sosial xidmətlərindən Söhbət açdılar. Onların bələdiyyələri üçün spesifik olan xidmətləri ayrca qeyd etdilər. Məsələn, Axaltsixenin dağlıq qəsəbələrində bələdiyyə yeni doğulmuş bütün körpələrə görə maddi baxımdan ailəyə kömək edir. Bundan əlavə, doğuş göstəricisinin azalması halında dövlət üçüncü uşağa aylıq maddi yardım verir.

*„Doğum göstəricisi ötən illə müqayisədə azalır, sonra avtomatik olaraq proqram qurulur və hər üçüncü uşağa görə ailəyə stimul verilir, dövlət aylıq maddi yardım göstərir" ( Axaltsixenin yerli hakimiyyət nümayəndəsi).*

Yerli hakimiyyət nümayəndəsinin sözlərinə görə, bələdiyyələrdə olan sosial xidmətlərin əhaliyə əlçatanlığı qənaətbəxşdir. Bələdiyyə nümayəndələri yerli sakinlərə sosial xidmətlər, onlarda dəyişiklik və yeni xidmətlər haqqında davamlı olaraq məlumat verirlər. Bununla xidmət haqqında məlumatlılığı artırmağa çalışırlar.

*„Xidmətlər buradan irəli gələrək əlçatandır ki, vətəndaşlar hansı xidmətlərimizin olduğu barədə məlumatlıdır. Əhaliyə yalnız yerli hakimiyyət nümayəndələri məlumat vermir, həm də komissiya üzvlərinin vətəndaşlarla sıx əlaqəsi var" (merin Tetritskaroda nümayəndəsi).*

Yerli hakimiyyət nümayəndələrindən fərqli olaraq, Kvemo Kartlidə işləyən sosial işçilərin fikrincə yerli əhaliyə sosial xidmətlər az-çox əlçatandır, ancaq xidmətlərdən faydalanmaq baxımından vətəndaşların xidmət üçün keçməli olduğu prosedurların çox olması maneə yaradır.

*„Böyük bürokratiyadır, əhali o dərəcədə çox sənədlər təqdim etməli və doldurmalı olur ki, bu xidmətdən faydalanmaq baxımından maneə yaradır" (Sosial işçi).*

Yerli hakimiyyət nümayəndələri yardımların/xidmətlərin maliyyələşdirilməsinin kifayət etmədiyini qeyd edirlər. Onların fikrincə, büdcənin artırılması ilə yanaşı mövcud sosial xidmətlərin yaxşılaşdırılması da mümkündür. Çünki mövcud büdcə yerli həssas əhalinin ehtiyaclarının az-çox tam təmin edilməsinə kifayət etmir.

*„Hər şeyi yaxşılaşdırmaq olar, büdcə buna imkan verməlidir. Amma kifayət etməyəndə, o zaman imkan daxilində hərəkət edirsən. İndi uşaqlar üçün Gün Mərkəzlərinin açılmasını istəyirik, amma bilmirəm nə dərəcədə həyata keçirə biləcəyik" (Tsalka bələdiyyəsinin nümayəndəsi).*

Yerli hakimiyyət nümayəndələrinin bir hissəsi benefisiarların razı qaldığı konkret bir proqram qeyd etməkdə çətinlik çəkirlər. Bəzi müsahiblər birdəfəlik maddi yardım və səhiyyə xidmətləri benefisiarlarının razılığını qeyd edir. Həmçinin, vətəndaş cəmiyyətinin nümayəndələri shiyyə proqramlarının effektivliyini qeyd edirlər. Amma qeyd edirlər ki, səhiyyə xidmətləri büdcəsi kifayət deyil və büdcənin şəffaflığı da bəzən problemdir.

*„Səhiyyə proqramları qeyri-adidir. Vətəndaşlar ən çox əməliyyat üçün pul alırlar, bu çox yaxşıdır, amma əksər hallarda müayinələr maliyyələşdirilmir, bu isə əhaliyə  çox baha başa gəlir" ("Tolerantlıq" Assosiasiyası – Samtsxe-Cavaxeti regionu)*

Yerli hakimiyyət nümayəndələri vətəndaşların sosial yardımdan faydalanan zaman qarşılaşdığı maneələri qeyd etməkdə çətinlik çəkirlər – "Düşünürəm ki, bizim proqramdan faydalanmaq baxımından problemləri yoxdur" (Axaltsixe bələdiyyəsinin nümayəndəsi) Müsahiblərin sözlərinə görə, hər hansı qeyri-sistemli və vəziyyətlə bağlı maneə varsa, bələdiyyənin müvafiq xidmətinin əməkdaşları problemin həlli üçün hər şeyi edirlər.

Yerli hakimiyyət nümayəndələri bələdiyyələrdə sosial xidmət, səhiyyə, infrastruktur, təhsil və kommunal sahələrdə mövcud olan hansısa standart, bələdçi qeyd edə bilmirlər. Onların sözlərinə görə, onlar yazılmış bələdçilərlə hərəkət etmirlər və ad hoc hazırlanmış plana görə, imkan daxilində əhaliyə yardım göstərməyə çalışırlar.

*„Problem də budur ki, bələdçi hazırlanmayıb. Qeyri-hökumət təşkilatlarından biri başladı və bildirdi ki, kömək edəcəyik. Amma yekun nəticə yoxdur. Nəisə həyata keçirilsə çox yaxşı olardı. Yalnız illik strategiya sənədi işlənir, başqa heç nə" (Bolnisi meriyasının nümayəndəsi).*

Yerli hakimiyyət nümayəndəsi kimi, vətəndaş cəmiyyəti təşkilatının nümayəndələri də bələdiyyələrin rəhbərlik etdiyi hansısa növ standart/bələdçiləri qeyd etməkdə çətinlik çəkirlər. Dərin müsahibələr çərçivəsində müsahiblər yalnız iqtisadiyyatın inkişaf planı və səhiyyə xidmətlərində olan təcili əməliyyatların maliyyələşdirilmə qaydasını qeyd etdilər.

Dərin müsahibə çərçivəsində, yerli hakimiyyət və vətəndaş cəmiyyəti nümayəndələri son üç il ərzində həyata kçeirilmiş və aparılan proqramları ən uğurlu və az uğurlu proqramları qeyd etdilər. Eləcə də xidmətlərin həyata keçirilməsi zamanı olan çatışmazlıqları müzakirə etdilər.

Uğurlu proqramlar arasında icarə ilə təmin etmə proqramı, səhiyyə proqramları, pulsuz yeməkxana proqramı qeyd olundu. Müsahiblər hər bir uğurlu proqramın əlavə dəyəri (added value) haqqında danışdılar: Məsələn, pulsuz yeməkxana benefisiarlara ərzaqlara və kommunal xərclərə qənaət etmək imkanı verir.

*„Onlar evdə əlavə olaraq yemək hazırlamırlar. Eləcə də ərzaq paketi verdiyimiz  vətəndaşlardan biri xahiş etmişdi ki, bu yardımı yeməkxana ilə əvəz edək. Çünki kommunal vergilərə qənaət edəcək" (Axaltsize bələdiyyə nümayəndəsi).*

Vətəndaş cəmiyyəti təşkilat nümayəndələri uğurlu proqramlar arasında səhiyyə proqramları və vətəndaş büdcəsi proqramlarını, eləcə də pandemiya dövründə olan kovidə qarşı peyvənd, test proqramlarını qeyd edirlər.

*„Kovid pandemiyası zamanı biz də qoşulmuşduq ki, əhaliyə peyvəndin, test vermənin nə dərəcədə mütləq olduğunu çatdıraq. Testlər indi də hər həftə aparılır, kovid istiqamətində hər şey yaxşı edildi və müsbət qiymətləndirərdim" (Sülh Xartiyası – Ninotsminda).*

Yerli özünüidarə nümayəndələri az uğurlu proqramları qeyd etməkdə çətinlik çəkdilər – "Bilirsiniz məsələ nədir, çatışmazlıqlar yəqin ki, kənardan daha yaxşı görünür" (Tetritskaro meriya nümayəndəsi). Axaltsixenin yerli hakimiyyət nümayəndəsi az uğurlu proqramlar arasında 99 yaşından yuxarı vətəndaşlar üçün maddi yardım proqramını qeyd etdi. Müsahibin sözlərinə görə, bu xidmətdən hazırda bir nəfər faydalanır və məhz bu proqramın az uğurlu olmasına əsas yaradır.

Müxtəlif bələdiyyələrdə işləyən vətəndaş cəmiyyəti təşkilat nümayəndələrinin uğurlu və uğursuz proqramlar haqqında fikri fərqlidir. Məsələn, müsahiblərdən birinin sözlərinə görə, mühüm problemlərdən biri səhiyyə proqramının natamam maliyyələşdirilməsidir. Müsahib bir benefisiarı misal gətirir. O, lazım olan vəsaitin beşdə birini alıb və buna görə tam müalicə ala bilməyib. Eləcə də Marneulidən vətəndaş cəmiyyəti təşkilat nümayəndəsi qeyd etdi ki, formal yazılmış və təcrübədə istifadə olunmayan proqramlar var – "Yazılan və həyata keçirilməyən, formal olaraq mövcud olan bütün proqramlar uğursuzdur" (Marneuli Mülki Məşğulluq Mərkəzi).

Axaltsixe yerli hakimiyyət nümyəndəsinin sözlərinə görə, sosial xidmət sistemi elektron formata keçib və bu ərizənin elektron formada qəbul edilməsini, sonra elektron qaydada ərizəyə cavab verilməsini nəzərdə tutur. Bu yerli əhaliyə distant qaydada xidmətlərdən faydalanmaq imkanı yaradır. Müsahibərin sözlərinə görə. qeyd olunan yanaşma əhaliyə vaxt, eləcə də maddi qənaət etməyə şərait yaradır.

Tetritskaro meriya nümayəndəsinin sözlərinə görə, 2018-ci ildə onlar evsiz statusunun verilməsi qaydasını dəyişiblər. Müsahibin sözlərinə görə, yanaşmanın dəyişdirilməsi nəticəsində onların bələdiyyəsində evsizlər problemi tamamilə həll olunub – "4 ildir ki, meriya evsizlər statusunun verilməsi qaydasını dəyişib. Bundan sonra bizim vətəndaşlar küçədə yaşamırlar və bələdiyyədə sığınacaqsız qalmış adamlar yoxdur" (Tetritskaro meriya nümayəndəsi). "Dmanisililər"- Vətəndaş cəmiyyəti təşkilatının nümayəndəsinin sözlərinə görə, son dövrdə bələdiyyənin yanaşması sağlam həyat tərzinin stimullaşdırılması ilə əlaqədardır. Konkret olaraq, yerli hakimiyyət futbol və raqbi klubları yaradıb, eləcə də müvafiq stadionlar tikib.

Yerli özünüidarə nümayəndəsinin sözlərinə görə, sosial xidmət sisteminin yaxşılaşdırılması üçün bələdiyyənin maliyyələşdirməsinin artırılması lazımdır. Bu müxtəlif istiqamətlərdə əhalinin ehtiyaclarının təmin edilməsini daha da mümkün edir – "Vətəndaşlarımıza daha çox təkliflər etmək üçün daha çox büdcə lazımdır və bununla qismən bu gün olan xidmətlərimizi yaxşılaşdıracağıq" (Qardabaninin yerli hakimiyyət nümayəndəsi). Digər tərəfdən Tetritskaro meriya nümayəndəsinin sözlərinə görə, sosial xidmətlərin yaxşılaşdırılması qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı gücləndirməklə mümkündür.

"Dmanisililər" vətəndaş cəmiyyəti təşkilatı nümayəndəsinin fikrincə bələdiyyədə araşdırma aparmaq mütləqdir. Bu araşdırma yerli əhalinin hansı ehtiyac və problemlər qarşısında durduğunu müəyyən edəcək. Bundan əlavə, müsahibin sözlərinə görə, yerli hakimiyyət nümayəndələri və əhali arasında fəal ünsiyyət mütləqdir.

> *„İlk növbədə nəisə edəndə araşdırma aparmaq lazımdır ki, hansı ehtiyacların olduğunu və konkret layihəni niyə yaratdığımızı öyrənək. Buradan irəli gələrək, araşdırmanın nəticələrini nəzərə alacağıq və adamlarla tez-tez görüşəcəyik. Onlara tez-tez problemlər haqqında danışacağıq, bütün xidmətlər mütləq yaxşılaşdırılacaq" ("Dmanisililər" təşkilatı – Dmanisi bələdiyyəsi).*

Tsalka bələdiyyəsində fəaliyyət göstərən "Qadın Otağı" təşkilatının nümayəndəsinin sözlərinə görə, xidmətlərin yaxşılaşdırılması və effektivliyinin artırılmasını təmin etmək üçün əhalinin müxtəlif istiqamətlərdə məlumatlandırılması mütləqdir. Məsələn, müsahibin sözlərinə görə, elə hallar var ki, fiziki imkanlar məhdud şəxslərin ailələri bunu gizlədirlər, çünki ailədə belə adamların olmasının utandırıcı olması fikri mövcuddur. Fiziki imkanları məhdudluğun damğaya çevrilməsinin əsası məhz demokratik məlumatlandırmanın aşağı səviyyədə olmasının nəticəsidir.

## Səhiyyə və sosial təminat baxımından ehtiyaclar

Fokus-qrup iştirakçıları səhiyyə və sosial istiqamətdə olan ehtiyaclarından söhbət açıblar. Mühüm ehtiyaclardan biri ixtisaslı tibb mütəxəssisindən məsləhət almaqdır. İştirakçıların dediyinə görə, ixtisaslı həkimlər dövrü olaraq, Tbilisidən dəvət olunan zaman yerində əlçatan olurlar. Ancaq əlavə maneə məsləhətin baha olmasıdır – "Həkim yanına getmək çox bahadır, iki dəqiqə söhbət etmək 80 lari idi" (30 yaşlı qadın, özünüməşğul, etnik gürcü, Axaltsixe). Həssas vəziyyətdə olan müsahiblərdə daha bir ehtiyac müəyyən olundu – vacib dərmanlar əlçatan deyil. İştirakçıların qiymətləndirməsinə görə, dərmanların siyahısını genişləndirmək lazımdır. Bələdiyyələr sağlamlıq problemi olan şəxslər üçün vacib şəkildə mühüm olan dərmanların alınmasını maliyyələşdirməlidir. Fokus-qruplarda belə fikir səsləndirildi ki, bəzi səhiyyə xidmətləri yalnız aztəminatlılara əlçatan olmalı deyil, çünki səhiyyə bahalı xidmətdir və bundan aztəminatlı statusu olmayanlar da faydalanmalıdır. Fokus-qrup iştirakçısı olan azyaşlı uşaqların valideynləri qeyd etdilər ki, uşaqların erkən inkişafı baxımından bələdiyyələr müəyyən xidmətlər tətbiq etməlidir, onlar arasında loqoped xidməti də qeyd olundu. Xüsusi təhsilə ehtiyac duyan şagirdlər üçün psixoloqa və terapevtə də ehtiyac var. Çoxuşaqlı ailələrdə məktəb ləvazimatları ilə təchiz etmək ehtiyacı mövcuddur. Fokus-qrup iştirakçılarının qiymətləndirməsinə görə, pandemiyaya görə yaranmış ağır vəziyyət göstərdi ki, həssas ailələrdə yaşayan şagirdlərin təhsil almaq motivasiyasını artıracaq sosial proqramların hazırlanması mütləqdir. Bu dərsliklər və ya başqa lazımı ləvazimatlarla təminat ola bilər.

Dərin müsahibə iştirakçısı olan Samtsxe-Cavaxeti bələdiyyə nümayəndəsinin sözlərinə görə, həssas qrupda olan şəxslərin bir əsas ehtiyacı ictimaiyyətlə ünsiyyət və adaptasiya bacarığının inkişaf etdirilməsidir. Bu bir tərəfdən onların məşğulluğunun şərti, digər tərəfdən isə məşğulluğun məhsuludur.

> *„Onlar ictmaiyyətə adaptasiya olmalıdırlar. Onların ictimaiyyətlə müvafiq ünsiyyəti, layiqli yaşam şəraiti, işi olmalıdır, bələdiyyə onların işlə təmin olunmasına dəstək göstərməlidir" (Axaltsixe yerli hakimiyyət nümayəndəsi).*

Daha bir ehtiyac olaraq gənclərin boş vaxtını sərfəli istifadə etməsi qeyd olundu. Yerli hakimiyyətin buna dəstək olması yaxşı olardı. Fokus-qruplarda qeyd olundu ki, bələdiyyələrin peşə və ali təhsilə dəstək baxımından da rolu mühümdür. Bələdiyyə fərqlənən və motivasiyalı gənclərə dəstək olmalıdır, məsələn, bu qarşılıqlı təhsil haqqı, yaşayış yeri ilə təminat və s. ola bilər.

Bələdiyyələrin işlə təmin etməyə dəstək proqramları hazırlaması mütləqdir. Konkret olaraq, potensial işlə təmin edənlərlə əlaqə saxlasınlar, işlə təmin etmə forumları təşkil etsinlər və s. Müsahiblər qeyd edirlər ki, bu tipli fəallıqlar formal xarakter daşımamalıdır və real nəticə əldə etməyə istiqamətlənməlidir. Araşdırma iştirakçıları qeyd edirlər ki, işlə təmin edən zamanı əməkhaqqı  Gürcüstanda olan sosial-iqtisadi vəziyyətə uyğun olmalıdır – "Əgər aylıq xərc 830 laridirsə və bu zaman, sənə 500 larilik iş təklif edirlərsə, necə yaşayasan?!" (35 yaşlı kişi, işsiz, etnik azərbaycanlı, Marneuli).

Dərin müsahibə iştirakçısı, Axaltsixenin yerli hakimiyyət nümayəndəsinin sözlərinə görə, işsizlik istiqamətində aztəminatlı adamlara işlə təmin olunmaqda kömək edəcək dövlət proqramı artıq var[11].

> *„Yaqin işləmək məsələsi böyük problemdir. Doğrudur, indi aztəminatlı əhalinin işlə təmin edilməsinə dəstəklə bağlı dövlət proqramı var və mənim fikrimcə, bu irəli atılmış çox böyük addımdır" (Tetritskaro meriyasının nümayəndəsi).*

11 İşlə Təmin Etməyə Dəstək üzrə Dövlət Agentliyi tərəfindən həyata keçirilmiş proqramlar

## Yerli hakimiyyət və vətəndaş sektorunun rolu

Yerli hakimiyyət nümayəndələri əhaliyə xidmətlərin çatdırılması və yaxşılaşdırılması prosesində bələdiyyə xidmətinin rolundan danışıblar. Müsahiblərin qiymətləndirməsinə görə, bələdiyyə xidmətləri benefisiarların ehtiyaclarına istiqamətlənib və daim xidmətləri yaxşılaşdırmağa çalışırlar. Müsahiblərin sözlərinə görə, bələdiyyə sturkturları tələb-çatdırılma prinsipi ilə hərəkət edirlər: ən çox sosial və səhiyyə proqramları istiqamətində tələb çoxdur, müvafiq olaraq, bu istiqamətə diqqət yetirilir.

> *„Əsasən yenə ən çox sosial məsələlər, eləcə də səhiyyə baxımından yardımlar tələb olunur. Ən çoxunu edirik ki, bizim bələdiyyə yerli əhaliyə dəstək olsun və hər şəkildə yardım etsin” (Qardabani bələdiyyə nümayəndəsi).*

Vətəndaş cəmiyyəti təşkilat nümayəndələrinin sözlərinə görə, onların məqsədi əsas mövcud xidmətlər haqqında əhaliyə məlumat vermək və dövlət sturkturlarında yerli əhalinin ehtiyaclarının müzakirə edilməsidir. Müsahiblərin fikrincə, bələdiyyələrdə müvafiq araşdırmaların aparılması mühümdür. Bu yerli əhalinin ehtiyaclarını müəyyən edir. Eləcə də vətəndaş sektoru nümayəndələri vətəndaşların məlumatlandırılması, cəzaçəkmə müəssisələrindən çıxmış adamların bərpası, qadın hüquqları, fiziki imkanları məhdud olan şəxslər üçün infrastrukturun adaptasiyası, təhsil layihələri istiqamətində işləyirlər. Tetritskaro Gənclər Mərkəzinin nümayəndəsinin sözlərinə görə, onların təşkilatı ötən il 4 ambulatoriyanı tibbi heyətə lazım olan müxtəlif ləvazimatlarla təchiz edib. Bundan əlavə, kovid pandmeiyası zamanı 170-dən artıq ailəyə ərzaq və ilkin istifadə məhsulları ilə yardım göstərib.

Yerli hakimiyyət nümayəndələri və vətəndaş sektoru arasına əməkdaşlıq haqqında hər iki tərəf danışır. Ancaq əməkdaşlığın davamlılığı və effektivliyi regionlara görə fərqlidir. Məsələn, Marneuli Mülki Məşğulluq Mərkəzinin nümayəndəsinin sözlərinə görə, əməkdaşlıq stabil deyil və daha çox gücləndirməyə ehtiyac var. Müsahibin fikrincə, əməkdaşlığın davamlılığı əməkdaşlığın institusional çərçivəsindən deyil, yerli hakimiyyətdə kimin olmasından asılıdır. Məsələn, köhnə merin administrasiyası vətəndaş sektoru ilə əməkdaşlıq edirdi və fəal idi, ancaq yeni rəhbəlik bu istiqamətdə fəallıq etmir.

> *„Əvvəl, köhnə mer olanda, vətəndaşlarla fəal ünsiyyət qururdu, təşkilatlardan onunla görüşməyi xahiş edirdi. İndi o, yoxdur, meriyadan bizimlə əlaqə saxlamırlar” (Marneuli Mülki Məşğulluq Mərkəzi).*

Bolnisi və Tetritskaro bələdiyyələrinin yerli hakimiyyət nümayəndələrinin sözlərinə görə, vətəndaş cəmiyyəti təşkilatarı müxtəlif istiqamətlərdə fəal iştirak edirlər, sosial xidmətlərin inkişafı baxımından onların payı mühümdür. Müsahiblər vətəndaş cəmiyyəti təşkilatlarının fiziki imkanları məhdud şəxslərin hüquqlarının müdafiəsi, uşaq bağçalarının abadlaşdırılması, tibbi ambulatoriyaların təchizatı, tibbi heyətin hazırlanması kimi sahələrdəki töhfələrindən söhbət açıblar.

Əlavə olaraq, vətəndaş cəmiyyəti təşkilatının nümayəndələri ictimaiyyətin məlumatlandırılması, yerli sakinlər üçün pulsuz tibbi məsləhətlərin, zorakılıq qurbanı olan qadınlara və tək analara pulsuz psixoloji yardım kimi istiqamətlərdə öz töhfələrini qeyd ediblər. Tetritskaro Gənclər Mərkəzi nümayəndələrinin sözlərinə görə, onlar davamlı olaraq layihələri dəstəkləmək və həyata keçirmək iqtidarında deyillər, çünki vətəndaş cəmiyyəti təşkilatlarının sabit gəlirləri olmadığından və qrantlardan asılı olduqlarından, bu hal vətəndaş təşkilatlarının fəaliyyətinə mane olur – “Vətəndaş cəmiyyətləri maddi baxımdan donor təşkilatlar tərəfindən verilmiş qrantlardan asılıdırlar” (Gənclər Mərkəzi – Tetritskaro).

# BAŞLIQ 5. BAŞQA XİDMƏTLƏRDƏN (SƏHİYYƏ VƏ SOSİALDAN BAŞQA) FAYDALANMAQ

Fokus-qruplarda iştirak edən etnik azlıq nümayəndələrinin mövcud dövlət təhsil, iqtisadiyyat və kənd təsərrüfatı xidmətləri/proqramları barədə məlumatı azdır. Elə müsahiblər də var idi ki, müxtəlif xidmətlərin olması barədə fokus-qruplarda müzakirə zamanı məlumat aldılar. Məsələn, "Gürcüstanda istehsal et", "Güzəştli aqrokredit" və s. Fokus-qruplar nəticəsində məlum oldu ki, etnik gürcülər qalan etnik qruplarla müqayisədə müxtəlif dövlət proqramlarından dəfələrlə faydalanıblar.

Etnik azlıq nümayəndələrində "1+4" təhsil proqramı xüsusi məşhurluq qazanıb. Proqramın məqsədi dövlət dili səviyyəsinin yaxşılaşdırılması və müvafiq olaraq Gürcüstan universitetlərində ali təhsil almaq imkanlarını artırmaqdır. Bundan əlavə bəzi bələdiyyələrdə peşə təhsili almaq təmin olunub. Məsələn, Marneulidə peşə təhsil kolleci "Modus" açılıb. Burada etnik azlıq nümayəndələrinin peşə təhsili almaq imkanı var. Kəmiyyət araşdırması çərçivəsində bələdiyyə xidmətinin qiymətləndirilməsinin meyarlarından biri Qadın Otaqları haqqında məlumatlandırma səviyyəsinin müəyyən edilməsi idi. Aydın oldu ki, sorğuda iştirak edənlərin əksəriyyəti Qadın otaqları haqqında eşitməyib (82.2%) (Samtsxe-Cavaxeti – 79,4%, Kvemo Kartli – 84,9%). Bu xidmətlə bağlı müsahiblərin yalnız 17,1%-nin məlumatı var idi; Onlardan 5,2%-i özü də bu xidmətdən faydalanıb (Samtsxe-Cavaxeti – 3%, Kvemo Kartli – 8,3%). Məlumatlı müsahiblərin beşdə birindən çoxunun (22%) özü Qadın Otağı xidmətindən faydalanmayıb. Amma faydalanan başqa birini tanıyır (Samtsxe-Cavaxeti-24.4%, Kvemo Kartli – 18,5%). Sorğuda iştirak edənlərin əksəriyyəti isə bu xidmətdən faydalananları tanıyır (72,8%) (Samtsxe-Cavaxeti – 72,6%, Kvemo Kartli – 73,2%).

Qadın Otaqları xidmətindən faydalanmış şəxslərin əksəriyyəti aldığı xidmətdən razıdır (68,8%), həmçinin, 62,4% tam razıdır. Müsahiblərin beşdə birindən çoxu (23,6%) neytral mövqe tutur, 7,6% isə tam narazıdır.

Kəmiyyət araşdırmasının müsahibləri qəsəbənin planlaşdırılması/abadlaşdırılması və fiziki imkanları məhdud şəxslər üçün uyğun mühit xidmətlərindən razılıq səviyyəsini də qeyd ediblər.

Məlum olub ki, sorğuda iştirak edənlərin 39,1%-i qəsəbə planlaşdırılmasından, abadlaşdırmadan narazıdır (5 ballıq şkalada 1 və 2 bal), razı qalanların hissəsi isə 35,6%-ə bərabərdir (4 və 5 bal). Digər tərəfdən fiziki imkanları məhdud şəxslər üçün adaptasiya edilmiş mühitlə bağlı söhbət zamanı aydın olub ki, əksər hallarda müsahiblərin qəsəbəsində oxşar mühit ümumiyyətlə yoxdur, ya olub olmadığını bilmir, 56% məhz bunu qeyd edir. Qəsəbələrində fiziki imkanları məhdud şəxslər üçün adaptasiya edilmiş mühitin olduğunu qeyd edən müsahiblərin 23,4%-i qiymətləndirmə zamanı neytral mövqe tutur – həm razı həm narazıdır (3 bal). Görünür müsahiblərin baxışına görə, qəsəbə planlaşdırılması zamanı fiziki imkanları məhdud şəxslərin ehtiyacları nəzərə alınmayıb, çünki müsahiblərin 40.8%-i adaptasiya edilmiş mühitdən narazıdır (Bax. Cədvəl #14).

**Cədvəl #14**

| Öz qəsəbənizdə nə dərəcədə razısınız... | Planlaşdırma/ abadlaşdırmadan (N=1200) | Fiziki imkanları məhdud olan şəxslər üçün adaptasiya edilmiş mühitdən (N=529) |
|---|---|---|
| Tam narazı | 16% | 21.8% |
| Daha çox narazı | 23.1% | 19% |
| Həm razı həm narazı | 24.7% | 23.4% |
| Daha çox razı | 21.2% | 20.8% |
| Tam razı | 14.4% | 15.1% |
| Cavabdan imtinaedirəm/Cavab verməkdə çətinlik çəkirəm | 0.7% | |

Məsələni region sahəsində müzakirə edən zaman aydın oldu ki, planlaşdırma və abadlaşdırmadan Kvemo Kartlidən (29%) daha çox, Samtsxe-Cavaxetidə (42,1%) narazıdırlar (4 və 5 bal). Kvemo Kartlidə dominant mövqeni narazı müsahiblər tuturlar – 42,9% (1 və 2 bal). Digər tərəfdən, maraqlıdır ki, Kvemo Kartlidə sorğuda iştirak edən hər ikinci adamın (49,9%) qiymətləndirməsinə görə, onların qəsəbəsində fiziki imkanları məhdud şəxslərə uyğunlaşdırılmış mühit yoxdur, yaxud olub olmadığını bilmirlər. Qeyd olunan göstərici Samtsxe-Cavaxetidə 62%-ə bərabərdir. Kvemo Kartlidə qəsəbələrində adaptasiya olmuş mühitin olduğunu qeyd edən , soğruda iştirak edən şəxslərin 32%-i mühitin qiymətləndirilməsi zamanı neytral mövqe tutub (3 bal). Kvemo Kartlidə, əsasən narazı müsahiblər 51,2%-dən artıqdırlar (1 və 2 bal). Samtsxe-Cavaxetidə fərqli nəticələr əldə olunub. Göründüyü kimi, müsahiblərin qiymətləndirməsinə görə, Samtsxe-Cavaxetidə qəsəbənin planlaşdırılması zamanı fiziki imkanları məhdud şəxslərin ehtiyacları daha çox nəzərə alınıb. Həmin şəxslərin 61%-i hesab edir ki, qəsəbədə fiziki imkanları məhdud şəxslər üçün adaptasiya edilmiş mühit var və müvafiq olaraq razıdır (4 və 5 bal). (Bax. Cədvəl #15).

**Cədvəl #15**

| Öz qəsəbənizdə nə dərəcədə razısınız... (Region konteksti) | Planlaşdırma/abadlaşdırmadan | | Fiziki imkanları məhdud olan şəxslər üçün adaptasiya edilmiş mühitdən | |
|---|---|---|---|---|
| | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) | Samtsxe-Cavaxeti (N=231) | Kvemo Kartli (N=298) |
| Tam narazı | 12.7% | 19.3% | 12.1% | 29.2% |
| Daha çox narazı | 22.6% | 23.6% | 14.9% | 22% |
| Həm razı həm narazı | 22.1% | 27.3% | 12% | 32% |
| Daha çox razı | 23.7% | 18.7% | 28.3% | 15.1% |
| Tam razı | 18.4% | 10.3% | 32.7% | 1.8% |
| Cavabdan imtina edirəm/cavab verməkdə çətinlik çəkirəm | 0.5% | 0.8% | | |

Aydın oldu ki, müsahiblər qəsəbənin planlaşdırılması/abadlaşdırılması baxımından aşağıdakı səbəblərdən demək olar ki, eyni dərəcədə narazıdırlar:

- Yolların pis vəziyyətdə olması – 24.3%
- Səkilərin pis vəziyyətdə olması – 23,9%

- Parkların çatışmazlığı – 25.7%
- İdman infrastrukturunun çatışmazlığı – 23,9%

Ümumilikdə, küçə işıqlandırması, “tramplinlərin” olmaması, nəqliyyat məsafəsi, təhsil müəssisəslərinin qəzalı vəziyyətdə olan binaları, kanalizasiyaların olmaması və s. kimi səbəblərin hissəsi 2%-dən azdır (Bax. diaqrama #7).

**Diaqram #7**




Qəsəbədə fiziki imkanları məhdud şəxslər üçün adaptasiya edilmiş mühitdən narazılıq səsəblərinə gəldikdə isə, dominant mövqeni arabadan istifadə edən şəxslər üçün pandusların olmaması tutur (40%), arabadan istifadə edənlərin demək olar dörddə biri adaptasiya olunmamış nəqliyyat problemini (24,5%), qeyd edir. Beşdə biri isə adaptasiya olunmamış binaları qeyd edir (20,8%) (Bax. Diaqram #8).

**Diaqram #8**




Regionlar sahəsində də eyni problemlər müəyyən edildi. Planlaşdırma istiqamətində problemlər aşkarlandı:

- Yolların vəziyyəti: Samtsxe-Cavaxeti – 25,3%, Kvemo Kartli – 23,7%
- Səkilərin vəziyyəti: Samtsxe-Cavaxeti – 22,3%, Kvemo Kartli – 25%

- Parkların çatışmazlığı: Samtsxe-Cavaxeti – 25,3%, Kvemo Kartli – 26%
- İdman infrastrukturunun çatışmazlığı: Samtsxe-Cavaxeti – 25,3%, Kvemo Kartli – 23%

Digər tərəfdən isə fiziki imkanları məhdud olan şəxslər üçün uyğun mühitlə bağlı ən böyük problem arabadan istifadə edən şəxslər üçün pandusların olmamasıdır (Samtsxe-Cavaxeti – 35.3%, Kvemo Kartli – 42%). Bununla yanaşı, araşdırmada iştirak edən hər iki regionda yaşayan sakinlərin narazılığının səbəbi arabadan istifadə edənlər üçün uyğun binaların olmaması (Samtsxe-Cavaxeti – 26,3%, Kvemo Kartli – 18,5%) və nəqliyyatdır (Samtsxe-Cavaxeti, Kvemo Kartli – 26,2%) (Bax. Cədvəl #16).

**Cədvəl #16**

| **Konkret olaraq, qəsəbənizin planlaşdırılması/abadlaşdırılması ilə bağlı nədən narazısınız? (Region konteksti)** | | |
|---|---|---|
| | **სამცხე-ჯავახეთი (N=211)** | **ქვემო ქართლი (N=248)** |
| Yolların vəziyyəti | 25.3% | 23.7% |
| Səkilərin vəziyyəti | 22.3% | 25% |
| Parkların çatışmazlığı | 25.3% | 26% |
| İdman infrastrukturunun çatışmazlığı | 25.3% | 23% |
| Digər | 1.6% | 2.1% |
| Cavabdan imtina edirəm/Cavab verməkdə çətinlik çəkirəm | 0.3% | 0.2% |
| **Konkret olaraq, qəsəbənizdə fiziki imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış mühitlə bağlı nədən narazısınız? (Region konteksti)** | | |
| | **Samtsxe-Cavaxeti (N=65)** | **Kvemo Kartli (N=155)** |
| Arabadan istifadə edənlər üçün pandusların olmaması | 35.3% | 42% |
| Sıradan çıxmış panduslar | 12.6% | 10.5% |
| Arabadan istifadə edən şəxslər üçün adaptasiya edilməmiş nəqliyyat | 20.8% | 26.2% |
| Araba istifadəçiləri üçün uyğunlaşdırılmamış binalar | 26.3% | 18.5% |
| Digər | - | - |
| Cavabdan imtina edirəm/Cavab verməkdə çətinlik çəkirəm | 5.1% | 2.9% |

8 bələdiyyə sakinləri ilə aparılmış fokus-qruplarda mövcud dövlət proqramı haqqında daha çox məlumat almaq istəyi aydın oldu. Əhaliyə onların maraq və fəaliyyət sahəsinə görə məlumat almaq lazımdır. Fermerlər kənd təsərrüfatı sektorunda olan xidmətlər/dəstək proqramları, gənclər formal və qeyri-formal təhsil, işlə təmin edilmə imkanları, fiziki imkanları məhdud şəxslər onlara müstəqil həyatda kömək edəcək sosial proqramlar, kiçik sahibkarlar biznesə dəstək proqramları haqqında məlumat almaq istəyirlər və s.

# BAŞLIQ 6. XİDMƏTLƏRƏ BƏRABƏR ƏLÇATANLIQ

Keyfiyyət araşdırması üçün dövlət xidmətlərinin etnik gürcülərə və başqa millət nümayəndələrinə (azərbaycanlılar, ermənilər) nə dərəcədə bərabər əlçatan olması ilə bağlı əhalinin fikri maraqlı idi. Etnik azlıqlarla aparılan fokus-qruplarda mövcud xidmətlərin digər etnik qruplardan çox gürcülər üçün daha əlçatan olması fikri ciddi şəkildə qeyd olundu.

> *„Konkret heç nə deyə bilmərəm, amma belə hesab edirəm ki, gürcülər getdikləri hər yerdə, hər şeydən faydalanırlar. Amma biz öz hüquqlarımızı bilmirik" (62 yaşlı kişi, işsiz, etnik erməni, Tsalka).*

Kvemo Kartlidə yaşayan azərbaycanlılar qeyd ediblər ki, bələdiyyə orqanlarında əsasən etnik gürcülər işləyir və müvafiq olaraq, gürcü dilini bilməyən əhali üçün məlumat almaq çətindir. Xidmətdən faydalanmaq üçün gürcü dilində ərizə hazırlamaq və sənədlər toplamaq lazımdır, bunun üçün gürcü dilini bilən şəxsin köməyi mütləqdir. Fokus-qrup iştirakçıları qeyd ediblər ki, bərabər əlçatanlıq problemi böyük nəsil nümayəndələrində daha çox qeydə alınır. Çünki gürcü dilini bilmir, ya da pis bilirlər. Son illərdə "1+4 təhsil proqramı" vasitəsi ilə daha çox etnik azlıq nümayəndəsi olan gənc gürcü dilini ən az məlumat ala biləcəyi və xidmətlərdən faydalanacağı səviyyədə öyrənir. Ancaq, qeyd olunduğu kimi, gürcü dilini bilməyən etnik azlıqların orta və yaşlı nümayəndələrində məlumatsızlıq problemi ciddi şəkildə qalmaqdadır.

> *„Mən bankda işləyirdim, ermənilər gələndə, məni tanıyırdılar ki, erməniyəm və hamı mənim yanıma gəlirdi. Çünki gürcü dilini bilmirdilər. Bilmirəm mən bankda işləməsəm məlumat almaq üçün gələrdilərmi. Mənim fikrimcə, əsas problem dil bilməməkdir" (27 yaşlı kişi, etnik erməni, işləyən, Tsalka).*

Fokus-qruplarda iştirak edən etnik azlıqlar xidmətlərin bərabər əlçatanlığı haqqında danışmaqda çətinlik çəkdilər. Çünki bu məsələ onlar üçün aktual deyil. Müxtəlif etnik qrup nümayəndələri ilə münasibəti olmayanlar üçün heç aktual deyil – "Mən bilmirəm, problemi yaranan elə adam tanımıram, bildiyimə görə, bizim faydalandığımız hər şeydən faydalanırlar"(50 yaşlı qadın, işsiz, etnik gürcü, Axaltsixe).

Gürcülərlə aparılmış fokus-qrupun bir neçə iştirakçısının qiymətləndirməsinə görə, etnik azlıqlara fəal olaraq proqramlar/xidmətlər haqqında öz ana dillərində məlumat çatdırılacaq və müvafiq olaraq, faydalanmaq üçün bütün ilkin şərtlər var.

# BAŞLIQ 7. KOMMUNAL İNFRASTRUKTUR

## Elektrik enerjisi

Araşdırmada iştirak edən şəxslərin əksəriyyətinə (96,6%) elektrik enerjisi gündəlik, faktiki olaraq 24 saat ərzində (Samtsxe-Cavaxeti – 99,7%, Kvemo Kartli – 93,4%), 3,4%-ə isə qrafiksiz (tez-tez sönür) (Samtsxe-Cavaxeti-0,3%, Kvemo Kartli – 6,6%) verilir. Müsahiblər qış və digər mövsümlərdə verilən elektrik enerjisinin gücünü 5 ballıq şkala ilə qiymətləndirirlər. Şkalada 1 bal "tam narazıyam", 5 bal isə "tam razıyam" demək idi. Sorğuda iştirak edənlərin demək olar bərabər qismi qış (83,8%), eləcə də digər mövsümlərdə (86,7%) elektrik enerjisinin verilməsindən razıdır (4 və 5 bal). Narazı olanların sayı orta hesabla 6%-ə bərabərdir (Bax. diaqram #9).

**Diaqram #9**




Elektrik enerjisindən razılıq hər iki region sakinlərinə aiddir, ancaq Samtsxe-Cavaxetidə həm qış, həm də digər fəsillər nəzərə alındıqda bu nisbət daha yüksəkdir (Bax. Diaqram #10).

**Diaqram #10**



## Qaz təchizatı

Müsahiblərin 83,5%-i qeyd edib ki, onların qəsəbəsində mərkəzi qaz borusu var. Əksəriyyətə isə (98,6%) bütün mövsümlərdə mərkəzləşdirilmiş sistemdən qaz verilir. Yalnız mövsümi olaraq qaz verilən şəxslərin hissəsi 0,8%-ə (N=9) bərabərdir. Lakin 4 adamın təcrübəsinə görə, onların ailələrinə mərkəzi sistemindən qaz verilmir. Kvemo Kartli region qəsəbələrində mərkəzi qaz borusunun olduğunu qeyd edən müsahiblərin sayı daha yüksəkdir – 88,1% (Samtsxe-Cavaxeti – 79%). Hər iki regionda orta hesabla 98%-ə ilin bütün mövsümlərində mərkəzi sistemdən qaz verilir.

Sorğuda iştirak edənlərin 16,3%-nin qiymətləndirməsinə görə, onların qəsəbəsində mərkəzi qaz borusu yoxdur. Onların böyük qismi (46,5%) bütün mövsümlərdə, dörddə biri isə demək olar (24%) mövsümi olaraq qaz balonundan istifadə edir. Həmin müsahiblərin 29,5%-i, qəsəbəsində mərkəzi qaz borusu olmayanlar qeyd edir ki, heç qaz balonundan da istifadə etmirlər. Samtsxe-Cavaxetidə sorğuda iştirak edən, qəsəbəsinə mərkəzdən qaz verilməyən 72,3% bütün mövsümlərdə ya mövsümi olaraq qaz balonundan istifadə edir, Kvemo Kartlidə isə bu göstərici 67,7%-ə qədər azalıb.

Aydın oldu ki, müsahiblərin əksəriyyəti (78,2%) qaz təchizatından (mərkəzi qaz təchizatı, eləcə də qaz balonları) razıdır (4 və 5 bal). Narazı şəxslərin hissəsi onda bir qədər artır (11,8%) (Bax. Diaqram #11).

**Diaqram #11**




Qazdan istifadənin fərqli təcrübəsinə baxmayaraq, Samtsxe Cavaxetidə, eləcə də Kvemo Kartlidə sorğuda iştirak edənlərin 78%-i qaz təchizatından razıdır (4 və 5 bal). Ancaq qeyd edək ki, Kvemo Kartlidə sorğuda iştirak edənlərin onda birindən çoxu neytral mövqe bildirir – 11,8%. Samtsxe-Cavaxetidə isə göstərici 7,5%-ə qədər azalıb (Bax. Cədvəl #17).

**Cədvəl #17**

| Qaz təchizatından (həm mərkəzi qaz təchizatı, həm də qaz balonları nəzərdə tutulur) nə dərəcədə razısınız? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=567) | Kvemo Kartli (N=579) |
|---|---|---|
| Tam narazı | 4.5% | 5.1% |
| Daha çox narazı | 9.2% | 4.7% |
| Həm razı həm narazı | 7.5% | 11.8% |
| Daha çox razı | 29.4% | 22.1% |
| Tam razı | 49% | 55.9% |
| Cavabdan imtina | 0.3% | 0.4% |

## Su təchizatı

Müsahiblərin əksəriyyəti (52,6%) məişətdə su təminatı məqsədi ilə evdə (mənzildə) kran suyundan istifadə edir (su şirkətinin borusundan). Onda birindən artığı isə qeyd edir ki, bu məqsədlə su şirkətinin evdən kənarda yerləşən ümumi kranından faydalanır. 8.4% evi çay, göl, hovuz və başqa təbii resurs suyu ilə təmin edir (Bax. Diaqram #12).

**Diaqram #12**



Samtsxe-Cavaxetidə və Kvemo Kartlidə ümumi tendensiya qorunur. Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin əksəriyyəti (58,3%) qeyd edir ki, məişət suyu ilə təchizat məqsədi üçün evdə (mənzildə) kran suyundan istifadə edir. Kvemo Kartlidə bu mənbə istifadəçilərinin bir qismi 47,8%-dir. Nəzərə almaq lazımdır ki, əgər Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlər arasında hər beşinci adam evdən kənarda yerləşən su şirkətinin ümumi kran suyundan istifadə edirsə, Kvemo Kartlidə bu göstərici 7,4%-ə qədər azalıb. Digər tərəfdən Kvemo Kartlidə su təchizatı üçün daha çox quyudan (şəxsi ya ümumi) istifadə edirlər. Müsahiblərin demək olar beşdə biri bu mənbədən istifadə edir. Samtsxe-Cavaxetidə quyudan istifadə etmək göstəricisi 1%-dən yuxarı deyil (Bax. Cədvəl #18).

**Cədvəl #18**

| **Xahiş edirik, məişət su təchizatı üçün istifadə etdiyiniz mənbəni qiymətləndirin? (Region konteksti)** | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Su şirkətinin borusundan evdə (mənzildə) olan kran suyu | 58.3% | 47.8% |
| Su şirkətinin evdən kənarda yerləşən ümumi kran suyu | 22.5% | 7.4% |
| Evdə yerləşən elektrik su nasosu və ya nasossuz quyu | 0.7% | 8.4% |
| Elektrik su nasosu və ya nasossuz ümumi quyu | 0.1% | 10.6% |
| Qonşunun quyusu | 0.4% | 2.5% |
| Mağazadan alınmış, qablaşdırılmış su | 0.6% | 6% |
| Çay, göl, hovuz və başqa təbii resurs suyu | 10.8% | 6.4% |
| Suvarma və ya drenaj kanalı (Məs: yuma, kənd təsərrüfatı və başqa məqsədlər üçün) | 3.7% | 4.8% |
| Nəqliyyat vasitəsi ilə gətirilmiş su | 0.3% | 6% |
| Qeyd olunan heç bir mənbədən istifadə etmirəm | 2.6% | 0.2% |

Növbəti bir neçə suala yalnız məişət su təchizatı üçün aşağıdakı mənbələrdən istifadə etdiklərini bildirən müsahiblər cavab verdi:

- Su şirkətinin borusundan evdə (mənzildə) olan kran suyu;
- Su şirkətinin evdən kənarda yerləşən ümumi kran suyundan;
- Evdə (korpusda) yerləşən elektrik su nasosu və ya nasossuz quyu;
- Elektrik su nasosu və ya nasossuz ümumi quyu;
- Qonşunun quyusu;
- Çay, göl, hovuz və başqa təbii resurs suyu.

Həmin müsahiblərin yarısının (51%) qiymətləndirməsinə görə, içməli su demək olar həmişə, ancaq təxminən üçdə birinin təcrübəsinə görə - hər gün müəyyən vaxt ərzində gəlir; Həftədə bir neçə dəfə içməli su verilən şəxslərin sayı onda birdən çoxdur (13,6%). Yalnız 6 müsahib qeyd etdi ki, içməli su ayda bir dəfə və ya daha nadir hallarda verilir (Bax. Diaqram #13).

**Diaqram #13**




Samtsxe-Cavaxetidə içməli su təchizatının tezliyi ilə bağlı daha yaxşı təcrübə var: Sorğuda iştirak edənlərin əksəriyyəti (95, 2%) qeyd edir ki, içməli su demək olar davamlı və ya hər gün müəyyən vaxt ərzində gəlir. Kvemo Kartlidə bu göstərici 70,7%-ə qədər azalıb, demək olar hər dörddə bir nəfər qeyd edir ki, içməli su həftədə bir neçə dərə verilir (23,6%) (Bax. Diaqram #14).

**Diaqram #14**



Həmin müsahiblər içməli suyun keyfiyyətini 5 ballıq şkala ilə qiymətləndiriblər (1 bal “tam keyfiyyətsiz”, 5 bal isə “çox keyfiyyətli” deməkdir). Sorğuda iştirak edənlərin 41,2%-i içməli suyun keyfiyyətli olduğunu qeyd edir (4 və 5 bal) (Samtsxe-Cavaxeti- 41,4%, Kvemo Kartli – 41%), ancaq qeyd etmək lazımdır ki, üçdə birindən çoxunun fikrincə su keyfiyyətsizdir (37,6%). Beşdə biri isə neytral mövqe tutur (Bax. Diaqram #15).

**Diaqram #15**




Məişət suyunun təmin edilməsi məqsədi ilə sonrakı mərhələdə qeyd olunan mənbələrin hər hansından istifadə edən bütün müsahiblər, verilən suyun miqdarının məişət ehtiyaclarını təmin etmək üçün nə dərəcədə kifayət etdiyini qiymətləndirdilər. Aydın oldu ki, sorğuda iştirak edənlərin 53,7%-nin qiymətləndirməsinə görə, kifayətdir (4 və 5 bal), 35,3%-in mövqeyi mənfidir (1 və 2 bal). Hər onuncu müsahib orta mövqe tutur (3 bal) (Bax. Diaqram #16).

**Diaqram #16**




Aydın oldu ki, müsahiblərin 35,5%-i su haqqını ödəmir, 34,9%-lə bağlı isə qeyd olunan ödəmə sayğaca, dörddə biri (25,6%) ailə üzvlərinin sayına görə (3,1% cavab verməkdən imtina etdi və ya çətinlik çəkdi) hesablanır.

Regionlar kontekstində göstəricilərin müzakirəsi göstərir ki, Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin 40% su haqqı ödəmir, Kvemo Kartlidən demək olar hər üçüncü müsahib eyni mövqeyi tutur. Bu regionda sorğuda iştirak edənlərin yarısı su haqqını sayğaca (49%), 17,3% isə adambaşı/ailə üzvlərinin sayına görə ödəyir. Digər tərəfdən, Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin üçdə birindən çoxu (34%) su haqqını adambaşına, hər beşinci adam isə sayğaca görə (20,5%) ödəyir.

Su haqqı ödəyən şəxslərin əksəriyyəti qeyd edir ki, mövcud tarif onlara əlçatandır (5 ballıq şkaladan - 4 və 5 bal). Qeyd olunan tarifi əlçatmaz hesab edənlərin hissəsi onda birdən də aşağıdır (9%, 5 ballıq şkalada - 1 və 2 bal), dörddə birindən çoxu isə (27,5%) neytral mövqe tutur (3 bal) (Bax. Diaqram #17).

**Diaqram #17**




## İrriqasiya sistemi

Araşdırmada iştirak edən şəxslərin əksəriyyəti (71,6%) qeyd edib ki, onların qəsəbəsində mərkəzi irriqasiya (su-varma) sistemi fəaliyyət göstərmir (Samtsxe-Cavaxeti – 84,9%, Kvemo Kartli – 67,2%). Bu baxımdan yalnız 21,8%-in müsbət təcrübəsi var (Samtsxe-Cavaxeti – 13,6%, Kvemo Kartli – 30%). Onların 67,6%-nin qiymətləndirməsinə görə, qeyd olunan irriqasiya sistemi yaxşı işləyir ( 4 ballıq şkalada 3 və 4 bal) )(Bax. Diaqram #18).

**Diaqram #18**




Qəsəbəsində mərkəzi irriqasiya (suvarma) suyu olan müsahiblərin böyük qismi (44,9%) mövcud sistemdən razıdır (5 ballıq şkalada 4 və 5 bal). Həmçinin, demək olar beşdə biri tam razıdır. Digər tərəfdən isə sorğuda iştirak edənlərin üçdə birindən çoxu (36,6%) narazıdır (5 ballıq şkalada 1 və 2 bal) (Bax. Diaqram #19)

**Diaqram #19**




Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin 44,3%-i qəsəbədə olan irriqasiya sistemindən razıdır (4 və 5 bal). Kvemo Kartlidə demək olar ki, eyni dərəcədə 45,2% oxşar mövqe tutur (Qəsəbəsində mərkəzi irriqasiya (suvarma) sistemi olan müsahibləri əhatə edir). Hər iki regionda narazıların sayı bərabərdir və üçdə birdən artıqdır (orta hesabla 36%) (Bax. Cədvəl#19).

**Cədvəl #19**

| Qəsəbənizdəki mövcud suvarma sistemindən nə dərəcədə razısınız? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=78) | Kvemo Kartli (N=168) |
|---|---|---|
| Tam narazı | 13.8% | 14.9% |
| Daha çox narazı | 22.7% | 21.8% |
| Həm razı həm narazı | 19.3% | 15.9% |
| Daha çox razı | 33.7% | 23.7% |
| Tam razı | 10.5% | 21.6% |
| Cavabdan imtina edirəm | - | 2.2% |

## Kanalizasiya sistemi

Araşdırmada iştirak edən şəxslərin əksəriyyəti (65,1%) qeyd edir ki, onların qəsəbəsində mərkəzi kanalizasiya sistemi yoxdur. Kvemo Kartlidə olan vəziyyət bu baxımdan Samtsxe-Cavaxetidən (52,4%) daha dramatikdir (77,9% mərkəzi kanalizasiya sisteminin olmadığını qeyd edir). Sözügedən sistemin yaşayış məntəqələrində fəaliyyət göstərənlərin sayı üçdə birdən bir qədər çoxdur (34,7%) (Samtsxe-Cavaxeti – 47,3%, Kvemo Kartli – 22,1%). Kanalizasiya sisteminin olduğu halda müsahiblərin 89,8%-nin evi mərkəzi kanalizasiya sisteminə qoşulub (Samtsxe-Cavaxeti – 95,6%, Kvemo Kartli – 77,3%).

Sistemin düzgün işlədiyini qeyd edən müsahiblərin 85,6%-i mərkəzi kanalizasiya sistemindən istifadə edir (4 ballıq şkalada – 3 və 4 bal), hər onuncu adamın qiymətləndirməsinə görə isə sistem qaydasında işləmir (10,3%) (Bax. Diaqram #20).

**Diaqram #20**




Samtsxe-Cavaxeti və Kvemo Kartlidə də ümumi tendensiya qorunur. Qeyd edək ki, Samtsxe-Cavaxetidə mərkəzi kanalizasiya sisteminin yaxşı işlədiyini qeyd edənlərin sayı 89.3%-ə bərabərdir. Kvemo Kartlidə isə bu göstərici 75,8%-ə qədər azalır.(Bax. Cədvəl #20).

**Cədvəl #20**

| Sizcə, mövcud mərkəzləşdirilmiş kanalizasiya sistemi nə dərəcədə yaxşıdır? (Region konteksti) | Samtsxe Cavaxeti (N=276) | Kvemo Kartli (N=108) |
|---|---|---|
| Heç yaxşı deyil | 0.3% | 3.5% |
| Yaxşı deyil | 6.1% | 17.2% |
| Yaxşıdır | 57% | 72% |
| Tam yaxşıdır | 32.3% | 3.8% |
| Cavabdan imtinaedirəm/Cavab verməkdə çətinlik çəkirəm | 4.3% | 3.5% |

Müsahiblərin 71%-i mövcud mərkəzi kanalizasiya sistemindən razıdır (5 ballıq şkaladan – 4 və 5 bal), həmçinin, 30,9% tam razıdır (5 bal). Narazı müsahiblərin sayı 13,1%-ə bərbərdir (1 və 2 bal) (Bax. Diaqram #21).

**Diaqram #21**




Doğrudur, Samtsxe-Cavaxetidə (78%), eləcə də Kvemo Kartlidə (52,4%) sorğuda iştirak edənlərin əksəriyyəti mərkəzi kanalizasiya sistemindən razıdır (4 və 5 bal), ancaq narazı müsahiblərin sayı Samtsxe-Cavaxeti (8.2%) ilə müqayisədə Kvemo Kartlidə (26%) əhəmiyyətli şəkildə böyükdür (Bax. Cədvəl #21).

**Cədvəl #21**

| Mərkəzləşdirilmiş kanalizasiya sistemindən nə dərəcədə razısınız? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=276) | Kvemo Kartli (N=108) |
|---|---|---|
| Tam narazı | 0.9% | 6.4% |
| Daha çox narazı | 7.3% | 19.6% |
| Həm razı həm narazı | 12.7% | 21.6% |
| Daha çox razı | 44.1% | 29.7% |
| Tam razı | 33.9% | 22.6% |
| Cavabdan imtina edirəm | 1.1% | - |

## Tullantıların daşınması

Sorğuda iştirak edən 91,8%-in qiymətləndirməsinə görə, onların qəsəbəsindən/məntəqəsindən tullantılar daşınır (Samtsxe-Cavaxeti – 98,7%, Kvemo Kartli – 84,8%). Yalnız 6,1% mənfi cavab verib (Kvemo Kartli – 12,2%, Samtsxe-Cavaxetidə mənfi cavab qeydə alınmayıb, 1,3% cavabdan imtina edib).

Qəsəbəsindən/məntəqəsindən tullantılar daşınan müsahiblərin demək olar üçdə biri qeyd edir ki, bu gündəlik baş verir (31,6%). 28,8% qeyd edir ki, tullantılar məntəqədən/qəsəbədən həftədə bir dəfə, 23,6%-in qiymətləndirməsinə görə bir gündən bir daşınır. Sorğuda iştirak edənlərin onda birindən çoxu (12,9%) cavab verməyə çətinlik çəkir və ya cavab verməkdən imtina edib (Bax. Diaqram #22).

**Diaqram #22**




Ayrıca region sahəsində də ümumi tendensiya qorunur. Hər iki regionda tullantıların daşınmasını təsvir edən kateqoriyalar belə nəticə göstərir:

- Hər gün: Samtsxe –Cavaxeti- 34%, Kvemo Kartli – 28,8%
- Bir gündən bir: Samtsxe-Cavaxeti – 17%, Kvemo Kartli -31,3%
- Həftədə bir dəfə: Samtsxe-Cavaxeti-29,7%, Kvemo Kartli – 27,7% (bax. Diaqram #23)

**Diaqram #23**




Tullantıların daşınması xidmətindən faydalanan müsahiblərin 73,3% qeyd olunan xidmətdən razıdır (5 ballıq şkalada 4 və 5 bal), həmçinin 40,8% tam razıdır (5 bal). Narazı olanlar 10%-dən aşağıdırı (Bax. Diaqram#24).

**Diaqram #24**




Müsahiblərin 47,8%-nin qiymətləndirməsinə görə, onların bələdiyyəsində zibillik var. Samtsxe-Cavaxeti regionu (61,9%) bu baxımdan Kvemo Kartlidən (31,3%) olduqca yaxşı vəziyyətdədir. Müsahiblərin dörddə birindən çoxu qeyd edir ki, onların bələdiyyəsində zibbilik yoxdur (27,7%). Samtsxe-Cavaxetidə 21,5% , Kvemo Kartlidə 34,9% zibilliklərin olmadığını qeyd edir. (Qeyd etmək lazımdır ki, sorğuda iştirak edənlərin beşdə birindən çoxu (23,7%) cavab verməkdə çətinlik çəkdi, 0,8% isə cavab verməkdən imtina etdi).

## Təmizlik

Araşdırmada iştirak edən şəxslərin 65,9%-nin təcrübəsinə görə, onların qəsəbəsində/məntəqəsində küçələr təmizlənmir (bu baxımdan Samtxe-Cavaxeti ilə (51,9%) müqayisədə Kvemo Kartlidə kifayət qədər pis vəziyyətdir (79,9%). Küçələrin təmizləndiyini müsahiblərin yalnız üçdə biri (33,7%) qeyd edir (Kvemo Kartlidə - 19,5%, Samtsxe – Cavaxetidə - 48%). Qəsəblərində/məntəqələrində küçələrin təmizləndiyini qeyd edən müsahiblərin 42,3% bildirir ki, gündəlik təmizləyirlər, onda birdən çoxu isə bir gündən bir (13,9%) ya həftədə bir dəfə (11,5%) təmizləndiyini deyir. Sorğuda iştirak edənlərin 17,3%-i nə qədər vaxtdan bir təmizləndiyini konkret qeyd etməkdə çətinlik çəkir (Bax. Diaqram #25).

**Diaqram #25**




Sorğudan məlum olduğu kimi, baxmayaraq ki, (deyilənə görə) Kvemo Kartlidə küçələrin təmizlənmə təcrübəsi daha nadirdir (Samtsxe-Cavaxeti ilə müqayisədə), təmizlənən qəsəbələrdə/məntəqələrdə Kvemo Kartli daha yaxşı vəziyyətdədir: 61,5%-in qiymətləndirməsinə görə, küçələr hər gün təmizlənir, Samtsxe-Cavaxetidə isə qeyd olunan göstərici 34,5%-ə qədər azalıb. Bu regionda sorğuda iştirak edənlərin beşdə birindən artığı konkret vaxt qeyd etməkdə çətinlik çəkir, 15,6%-in təcrübəsinə görə isə küçələr hər növbəti gün təmizlənir (Bax. Diaqram #26).

**Diaqram #26**



Təmizlik xidmətindən faydalanan müsahiblərin 74,9%-i xidmətdən razıdır (5 ballıq şkaladan 4 və 5 bal). Demək olar beşdə biri isə neytral mövqe tutur (19,1%, 3 bal). Təmizlik xidmətindən narazı olanların sayı 5%-dən bir az artıqdır ( 5 ballıq şkalada 1 və 2 bal) (Bax. Diaqram #27).

**Diaqram #27**




Samtsxe-Cavaxetidə (79,2%), eləcə də Kvemo Kartlidə (64,3%) sorğuda iştirak edənlərin əksəriyyəti təmizlik xidmətinin göstərdiyi xidmətdən razıdır (4 və 5 bal). Xidmətdən narazı olan müsahiblərin sayı Kvemo Kartlidə artıqdır (8,9%). Qeyd edilməlidir ki, Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlər arasında heç bir şəxs təmizlik xidmətinin göstərdiyi xidmətdən tam narazı deyil (1 bal) (Bax. Cədvəl#22).

**Cədvəl #22**

| Təmizlik xidmətinin göstərdiyi xidmətdən nə dərəcədə razısınız? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=291) | Kvemo Kartli (N=124) |
|---|---|---|
| Tam narazı | - | 3.2% |
| Daha çox narazı | 4.1% | 5.7% |
| Həm razı həm narazı | 16.5% | 25.5% |
| Daha çox razı | 41.3% | 23.9% |
| Tam razı | 37.9% | 40.4% |
| Cavabdan imtina edirəm | 0.3% | 1.2% |

Sonra təmizlik xidmətindən narazı olan müsahiblər bu münasibətlərinin səbəblərindən danışdılar. Onların 42,7%-i xidmətin keyfiyyətindən, demək olar üçdə biri –gigiyenik normaları qorumaqdan (32.6%), dörddə biri isə təmizləmə müddətindən narazıdır (24,7%).

* * *

Keyfiyyət araşdırması çərçivəsində 8 bələdiyyədə aparılmış fokus-qruplarda fikir səsləndirilib ki, son illərdə kommunal və yol infrastrukturu bələdiyyələrdə yaxşılaşdırılıb. Ancaq buna baxmayaraq, həll edilməsi yerli əhalinin ümumi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq problemlər qeyd olundu.

Kənd təsərrüfatına qoşulmuş şəxslər üçün qaydasında olmayan suvarma suyu sistemi problemdir. Bu kənd təsərrüfatının inkişafına mane olur. Ancaq onu da qeyd etdilər ki, bu məsələnin həlli üzərində işləyirlər və yaxın

gələcəkdə suvarma suyu problemi həll oluna bilər. Kvemo Kartlidə içməli su problemi xüsusilə yay dövründə nəzərə çarpır. Eləcə də kanalizasiya sistemi də problemlidir. Bu bəzi qəsəbələri ekoloji təhlükə qarşısında qoyur. Qardabani sakinləri qeyd etdilər ki, onların köhnə zibilliyi diqqətdən kənar qalıb. Yeni zibilliyin yaşayış yerinə yaxında tikilməsi də problemdir.

Tetritskaro bələdiyyəsinin Koda kəndində sıx məskunlaşmış məcburi köçkün şəxslər qeyd etdilər ki, onların qəsəbəsinə gedən yola diqqət yetirilməlidir; İctimai nəqliyyatdan faydalana bilmirlər və ya uzaq məsafəyə piyada getməli olurlar.

8 bələdiyyədə fokus-qruplara qoşulmuş şəxslər qeyd ediblər ki, ictimai müəssisələr/məkanlar fiziki imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmayıb. İştirakçıların bir qismi qeyd etdi ki, son dövrdə tikilmiş ictimai müəssisələr fiziki imkanları məhdud şəxslər üçün uyğundur. Ancaq mövcud standartların nə dərəcədə uyğun olduğu müsahiblərə məlum deyil. Çünki onlar uyğunlaşdırılmış mühitdən faydalanan adam görməyiblər.

> *„Uyğunlaşdırma məsələsi üzərində bir neçə ildir işlərə başlanılıb. Bir neçə bina və mühit uyğundur, sadəcə standartlara nə dərəcədə uyğundur bilmirəm, orada fiziki imkanları məhdud olan şəxs görməmişəm” (32 yaşlı qadın, işləyir, etnik gürcü, Bolnisi).*

Marneuli fokus-qrupunda iştirak edən fiziki imkanları məhdud müsahib qeyd etdi ki, təhsil müəssisəsi fiziki imkanları məhdud şəxslərə uyğundur. O, peşə təhsil müəssisəsi “Modus”-un tələbəsidir.

# BAŞLIQ 8. İQLİM DƏYİŞİKLİYİ VƏ ONDAN YARANMIŞ SAĞLAMLIQ PROBLEMLƏRİ

Sorğu zamanı müsahiblərin iqlim dəyişikliyi haqqında məlumatı qiymətləndirilib. Baza təqdimatının sorğu komponentində iştirak edən şəxslərin əksəriyyəti (71%) iqlim dəyişikliyi haqqında məlumatlıdır (Samtsxe-Cavaxeti – 74%, Kvemo Kartli – 68%). Məlumatsız müsahiblərin sayı müqayisədə Kvemo Kartlidə 30% yüksəkdir, Samtsxe-Cavaxetidə isə qeyd olunan göstərici 23,6%-ə qədər azalıb.

İqlim dəyişikliyi haqqında məlumatlı olan müsahiblərin orta hesabla beşdə biri son 5 il ərzində yaşayış yerində quraqlıq (22,5%) və yağışların (yağış, dolu) artmasını (18,9%) müşahidə edib. 16,5% küləyin artdığını, 8,7% isə iqlim dəyişikliyi baxımından suyun keyfiyyətinin pisləşməsini qeyd edir (Bax. Diaqram #28).

**Diaqram #28**




Samtsxe-Cavaxeti və Kvemo Kartlidə də məhz yuxarıda müzakirə olunan kateqoriyalar dominantdır, ancaq, qeyd etmək lazımdır ki, Kvemo Kartlidə mühit dəyişikliyi haqqında məlumatlı olan müsahiblərin dörddə birindən çoxunun qiymətləndirməsinə görə, son 5 il ərzində onların yaşayış yerində quraqlıq çoxalması (27,1%), Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin demək olar dörddə birinin qiymətləndirməsinə görə - küləyin çoxalması (24,3%) qeydə alınır (Bax. Cədvəl #23).

**Cədvəl #23**

| Son 5 ildə yaşayış yerinizdə (şəhər/bələdiyyə mərkəzi/qəsəbə/kənd) hər hansı iqlim/ ətraf mühit dəyişikliyi hadisəsi müşahidə etmisinizmi? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=448) | Kvemo Kartli (N=412) |
|---|---|---|
| Meşələrin qırılması | 4.9% | 5.7% |
| Torpağın eroziyası və ya tükənməsi (səhralaşdırılması) | 5.5% | 7.2% |
| Vəhşi heyvanların sayının və ya növlərinin azalması | 0.9% | 0.9% |
| Bitki növlərinin və ya sayının azaldılması | 1.3% | 4.5% |
| İnvaziv yeni növlər (Məs:Qəhvəyi məxmər bağacığı) | 3.1% | 5.5% |
| Təbii fəlakətlərin (daşqın, sürüşmə, leysan) tez-tez baş verməsi | 3.8% | 2.2% |
| Suyun keyfiyyətinin pisləşməsi | 7.1% | 10.5% |
| Quraqlıqların çoxalması | 18.3% | 27.1% |
| Yağıntıların (yağış, dolu) çoxalması | 19.7% | 18.1% |
| Küləyin çoxalması | 24.3% | 8% |
| Digər | 2.4% | 3.3% |
| Cavab verməyə çətinlik çəkirəm/cavabdan imtina edirəm | 8.7% | 7.1% |

Eləcə də məlumatlı müsahiblər iqlim dəyişikliklərinin onların yaşayış yerində sağlamlıqla əlaqədar mənfi nəticələrə səbəb olub olmamasını qiymətləndiriblər. Qiymətləndirmə üçün 5 ballıq şkaladan istifadə olunub. 1 bal "ümumiyyətlə səbəb olmur", 5 bal isə "birmənalı şəkildə səbəb olur" deməkdir. Sorğuda iştirak edənlərin əsas hissəsi hesab edir ki, mühit dəyişiklikləri aşağıda sadalanan sağlamlıq problemlərinə səbəb olmur (1 və 2 bal):

- Daşıyıcıları həşəratlar və onurğasızlar olan müxtəlif növ infeksiyaların yayılması (məsələn, malyariya və s.) – 57,2%;
- Virus xəstəliklərinin (qrip, hepatit C, suçiçəyi və s.) mənşəyi/yayılması – 48,9%;
- Mənfi dəyişmiş ətraf mühitin (çirklənmiş su, hava, qida, yüksək istilik və s.) səbəb olduğu xərçəngin artması – 31,4%;
- Ölüm hallarının artması – 34,8%.

Digər tərəfdən isə təxminən hər üçüncü müsahib mənfi iqlim dəyişikliyinin ürək xəstəlikləri (31,9%) və insultun (31,3%) artmasına səbəb olduğunu hesab edir (4 və 5 bal) (Bax. Cədvəl #24).

**Cədvəl #24**

| Sizcə, yaşayış yerinizdə (şəhər/bələdiyyə mərkəzi/qəsəbə/kənd) iqlim/ətraf mühitin dəyişməsi sağlamlıq üçün aşağıdakı mənfi təsirlərdən hər hansı birinə səbəb olurmu? (N=860) | Qətiyyən səbəb olmur | 2 | 3 | 4 | Birmənalı olaraq səbəb olur | Cavab verməkdə çətinlik çəkirəm/cavab verməkdən imtina edirəm |
|---|---|---|---|---|---|---|
| Daşıyıcıları həşəratlar və onurğasızlar olan müxtəlif növ infeksiyaların yayılması. Belə xəstəliklər məsələn, malyariya və s. | 30.1% | 27.1% | 16.8% | 6.4% | 8.1% | 11.5% |
| Virus xəstəliklərinin (qrip, hepatit C, suçiçəyi və s.) mənşəyi/ yayılması | 25.2% | 23.8% | 21.3% | 7.3% | 11.2% | 11.2% |
| Mənfi dəyişən ətraf mühitin (çirklənmiş su, hava, qida, yüksək istilik və s.) səbəb olduğu ürək xəstəliklərinin artması. | 15% | 17.6% | 28.6% | 17.1% | 14.8% | 7% |
| Mənfi dəyişmiş ətraf mühitin (çirklənmiş su, hava, qida, yüksək istilik və s.) səbəb olduğu insultun artması. | 13.9% | 16.6% | 28.7% | 18.5% | 12.9% | 9.5% |
| Mənfi dəyişmiş ətraf mühitin (çirklənmiş su, hava, qida, yüksək istilik və s.) səbəb olduğu xərçəngin artması. | 15.4% | 16.1% | 31.5% | 13.6% | 12.2% | 11.3% |
| Ölüm hallarının artması | 15.5% | 19.3% | 26.6% | 13.8% | 11.1% | 13.6% |

Regional kontekstdə, sorğuda iştirak edənlərin əksəriyyətinin fikrincə iqlim dəyişiklikləri müxtəlif tipli infeksiyaların yayılmasına səbəb olmur (1 və 2 bal): Samtsxe-Cavaxeti – 56,6%, Kvemo Kartli – 57,8%. Virus xəstəlikləri hallarında da oxşar qiymətləndirmə qeydə alınır – müsahiblərin əsas hissəsi hesab edir ki, bu kimi sağlamıq problemərinə ətraf mühit dəyişikliyi səbəb olmur: Samtsxe-Cavaxeti – 45,5%, Kvemo Kartli – 52,7%. Məntiqlidir ki, regional kontekstdə dəyişmiş ətraf mühitlə, o cümlədən çirklənmiş su, hava, qida, yüksək temperatur və s. ilə əlaqədar olan təbəqələrdə razılıq nisbətən yüksəkdir. Samtsxe-Cavaxetidə, eləcə də Kvemo Kartlidə sorğuda iştirak edənlərin böyük qismi hesab edir ki, iqlim dəyişikliyi ürək xəstəlikləri (Samtsxe-Cavaxeti – 32,6%, Kvemo Kartli – 31,1%) və insultun (Samtsxe-Cavaxeti – 32,4%, Kvemo Kartli – 30,1%) artmasına səbəb olur (4 və 5 bal) (Bax. Cədvəl #25).

**Cədvəl #25**

| Sizcə, yaşayış yerinizdə (şəhər/bələdiyyə mərkəzi/qəsəbə/kənd) iqlim/ətraf mühitin dəyişməsi sağlamlıq üçün aşağıdakı mənfi təsirlərdən hər hansı birinə səbəb olurmu? (Region konteksti) | | Qətiyyən səbəb olmur | 2 | 3 | 4 | Birmənalı olaraq səbəb olur | Cavab verməkdə çətinlik çəkirəm/ cavab verməkdən imtina edirəm |
|---|---|---|---|---|---|---|---|
| Daşıyıcıları həşəratlar və onurğasızlar olan müxtəlif növ infeksiyaların yayılması. Belə xəstəliklər məsələn, malyariya və s. | Samtsxe-Cavaxeti (N=448) | 28.8% | 27.9% | 16% | 6.7% | 9.7% | 11% |
| | Kvemo Kartli (N=412) | 31.6% | 26.2% | 17.6% | 6.1% | 6.4% | 12% |
| Virus xəstəliklərinin (qrip, hepatit C, suçiçəyi və s.) mənşəyi/yayılması | Samtsxe-Cavaxeti (N=448) | 24.9% | 20.6% | 20.6% | 7.4% | 15% | 11.4% |
| | Kvemo Kartli (N=412) | 25.5% | 27.2% | 22.1% | 7.1% | 7.1% | 11% |
| Mənfi dəyişən ətraf mühitin (çirklənmiş su, hava, qida, yüksək istilik və s.) səbəb olduğu ürək xəstəliklərinin artması. | Samtsxe-Cavaxeti (N=448) | 16.2% | 15.7% | 28.8% | 14.8% | 17.8% | 6.7% |
| | Kvemo Kartli (N=412) | 13.7% | 19.6% | 28.4% | 19.6% | 11.5% | 7.3% |
| Mənfi dəyişmiş ətraf mühitin (çirklənmiş su, hava, qida, yüksək istilik və s.) səbəb olduğu insultun artması. | Samtsxe-Cavaxeti (N=448) | 15.2% | 17% | 26.6% | 17.2% | 15.2% | 8.7% |
| | Kvemo Kartli (N=412) | 12.5% | 16.2% | 30.9% | 19.9% | 10.3% | 10.3% |
| Mənfi dəyişmiş ətraf mühitin (çirklənmiş su, hava, qida, yüksək istilik və s.) səbəb olduğu xərçəngin artması. | Samtsxe-Cavaxeti (N=448) | 19.3% | 19.5% | 24.7% | 12.1% | 15.7% | 8.7% |
| | Kvemo Kartli (N=412) | 11.1% | 12.3% | 39.1% | 15.2% | 8.4% | 14% |
| Ölüm hallarının artması | Samtsxe-Cavaxeti (N=448) | 18.2% | 24.5% | 19.6% | 13.5% | 12.8% | 11.5% |
| | Kvemo Kartli (N=412) | 12.5% | 13.7% | 34.3% | 14.2% | 9.3% | 15.9% |

Məsələnin yekununda müsahiblərin regionlarında iqlim dəyişmə məsələsini nə dərəcədə mühüm hesab etdikləri qiymətləndirilib. Qiymətləndirmə 5 ballıq şkala ilə edilib, 1 bal “heç mühüm deyil”, 5 bal isə “çox mühümdür” deməkdir. Sorğuda iştirak edənlərin əksəriyyəti (59,8%) iqlim dəyikliyi məsələsini mühüm (4 və 5 bal), həmçinin, 41,3% çox mühüm (5 bal) hesab edir. Məsələni mühüm (12,8) qiymətləndirənlərin sayı onda birdən bir az artıqdır. Hər onuncu adam isə cavab verməkdə çətinlik çəkdi, yaxud cavab verməkdən çəkindi (Bax. Diaqram #29).

**Diaqram #29**




Samtsxe-Cavaxetidə, eləcə də Kvemo Kartlidə ümumi tendensiya qorunub. Ancaq qeyd etmək lazımdır ki, iqlim dəyişikliyi Kvemo Kartlidən çox Samtsxe-Cavaxeti üçün daha mühüm qiymətləndirilib (4 və 5 bal): Kvemo Kartli – 71,6%, Samtsxe-Cavaxeti – 49%. Digər tərəfdən isə Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin təxminən hər beşinci müsahibi iqlim dəyişkliyini çox mühüm hesab edir (19,3%); Kvemo Kartlidə qeyd olunan göstərici 5,7%-ə qədər azalıb (Bax. Diaqram #30).

**Diaqram #30**



# BAŞLIQ 9. TƏHLÜKƏSİZLİK

Növbəti mərhələdə müsahiblərin fikrincə onların məntəqəsində əhalinin təhlükəsizliyinin nə dərəcədə qorunduğu qiymətləndirildi. Qiymətləndirmə üçün 5 ballıq şkaladan istifadə olunub. 1 bal "heç qorunmur", 5 bal "tam qorunur" deməkdir. Sorğunun göstərdiyi kimi, əksəriyyət (57,7%) hesab edir ki, onların qəsəbəsində təhlükəsizlik qorunur, öz qəsəbəsində əhalinin təhlükəsizliyinin qorunmadığını hesab edənlər 20%-ə bərabərdir (Bax. Diaqram #31).

**Diaqram #31**




Samtsxe-Cavaxeti (61.9%) və Kvemo Kartlidə (53,5%) sorğuda iştirak edənlərin əksəriyyəti hesab edir ki, qəsəbədə əhalinin təhlükəsizliyi qorunur (4 və 5 bal). Beləliklə, etibarsızlıq hissi nisbətən az müsahibdə görünür, baxmayaraq ki, Kvemo Kartlidə (27,1%) müsahiblər arasında etibarsızlıq hissi üstünlük təşkil edir (1 və 2 bal). Samtsxe-Cavaxetidə müsahiblərin yalnız 13%-i oxşar mövqe nümayiş etdirir.

Çoxluğun qiymətləndirməsinə görə, müsahiblərin təhlükəsizliyin qorunması ilə əlaqədar mövqeyinin yaranmasına qəsəbədə bunların olmaması da səbəb olur:

- Soyğunçuluq/quldurluq – 66,3%
- Narkotikdən istifadə - 58,5%
- Xırda xuliqanlıq– 57,4%
- Ailədə zorakılıq - 60,6%
- Erkən evlilik – 67%

Sorğuda iştirak edənlərin 38,5%-nin qiymətləndirməsinə görə, onların qəsəbəsində spirtli içkidən istifadə etmək halları nadirdir, 36,7%-in fikrincə isə ümumiyyətlə yoxdur. Müsahiblərin təxminən onda biri isə narkotikdən istifadə və ailədə zorakılığın yayılma səviyyəsi haqqında cavab verməkdə çətinlik çəkib (Bax. Cədvəl#26).

**Cədvəl #26**

| Xahiş edirik deyin, sizin qəsəbənizdə nə dərəcədə yayılıb... | Yayılmayıb | Nadir hallarda | Tez-tez | Çox yayılıb | Cavabdan imtina edirəm | Cavab verməkdə çətinlik məkirəm |
|---|---|---|---|---|---|---|
| Soyğunçuluq/quldurluq (N=1200) | 66.3% | 26.1% | 5.3% | 1.1% | 0.3% | 0.9% |
| Narkotikdən istifadə (N=1200) | 58.5% | 16.7% | 9.1% | 4.2% | 1% | 10.5% |
| Spirtli içkidən istifadə (N=1200) | 36.7% | 38.5% | 17.3% | 4.7% | 0.3% | 2.5% |
| Xırda xuliqanlıq (N=1200) | 57.4% | 32.5% | 5.7% | 1% | 0.2% | 3.3% |
| Ailədə zorakılıq (N=1200) | 60.6% | 23.7% | 3.9% | 1.6% | 0.8% | 9.4% |
| Erkən evlilik (N=1200) | 67% | 23.8% | 4.7% | 1.2% | 0.4% | 2.8% |

Məsələnin regional sahədə müzakirəsi zamanı da ümumi tendensiya qorunur. Samtsxe-Cavaxetidə, eləcə də Kvemo Kartlidə sorğuda iştirak edənlərin əksəriyyəti qeyd edir ki, onların qəsəbəsində yayılmayıb:

- Soyğunçuluq/quldurluq: Samtsxe-Cavaxeti - 68.2%, Kvemo Kartli- 64.4%
- Narkotikdən istifadə: Samtsxe-Cavaxeti - 66.9%, Kvemo Kartli- 50%
- Xırda xuliqanlıq: Samtsxe-Cavaxeti - 62.1%, Kvemo Kartli- 52.7%
- Ailədə zorakılıq: Samtsxe-Cavaxeti - 55.7%, Kvemo Kartli- 65.4%
- Erkən evlilik: Samtsxe-Cavaxeti - 67.4%, Kvemo Kartli- 66.6%

Göründüyü kimi, spirtli içkilərdən istifadə Kvemo Kartlidə daha çox yayılıb. Sorğuda iştirak edənlərin demək olar ki, üçdə biri (31,1%) qeyd edir ki, onların qəsəbəsində spirtli içkidən istifadə etmək tez-tez və ya çox yayılıb. Samtsxe-Cavaxetidə sorğuda iştirak edənlərin 12,9%-i belə hal olduğunu qeyd edir (Bax. Cədvəl #27).

**Cədvəl #27**

| Xahiş edirik deyin, sizin qəsəbədə nə dərəcədə yayılıb... (Region konteksti) | | Yayılmayıb | Nadir hallarda | Tez-tez | Çox yayılıb | Cavabdan imtina edirəm | Cavab verməkdə çətinlik məkirəm |
|---|---|---|---|---|---|---|---|
| Soyğunçuluq/ quldurluq | Samtsxe-Cavaxeti (N=600) | 68.2% | 27.3% | 2% | 1.2% | 0.4% | 0.9% |
| | Kvemo Kartli (N=600) | 64.4% | 24.9% | 8.6% | 1.1% | 0.1% | 0.9% |
| Narkotikdən istifadə | Samtsxe-Cavaxeti (N=600) | 66.9% | 19.3% | 3.7% | 2.4% | 1.5% | 6.2% |
| | Kvemo Kartli (N=600) | 50% | 14.1% | 14.5% | 6% | 0.5% | 14.8% |
| Spirtli içkidən istifadə | Samtsxe-Cavaxeti (N=600) | 44.7% | 39.6% | 7% | 5.9% | 0.5% | 2.3% |
| | Kvemo Kartli (N=600) | 28.7% | 37.4% | 27.6% | 3.6% | 0.1% | 2.6% |

| Xahiş edirik deyin, sizin qəsəbədə nə dərəcədə yayılıb… (Region konteksti) | | Yayılmayıb | Nadir hallarda | Tez-tez | Çox yayılıb | Cavabdan imtina edirəm | Cavab verməkdə çətinlik məkirəm |
|---|---|---|---|---|---|---|---|
| Xırda xuliqanlıq | Samtsxe-Cavaxeti (N=600) | 62.1% | 32% | 3.3% | 1.1% | 0.1% | 1.4% |
| | Kvemo Kartli (N=600) | 52.7% | 32.9% | 8.1% | 0.8% | 0.2% | 5.2% |
| Ailədə zorakılıq | Samtsxe-Cavaxeti (N=600) | 55.7% | 31.8% | 3.9% | 2.8% | 0.8% | 5% |
| | Kvemo Kartli (N=600) | 65.4% | 15.6% | 3.8% | 0.4% | 0.8% | 13.9% |
| Erkən evlilik | Samtsxe-Cavaxeti (N=600) | 67.4% | 24.6% | 3.9% | 1.6% | 0.5% | 2% |
| | Kvemo Kartli (N=600) | 66.6% | 23.1% | 5.6% | 0.9% | 0.2% | 3.6% |

Araşdırma nəticəsində aydın olub ki, müsahiblərin qiymətləndirməsinə görə, vətəndaşların təhlükəsizliyini əksər hallarda polis təmin edir (62,3%). Demək olar hər üçdə bir müsahib isə hesab edir ki, bu prosesdə mühüm rolu əhalinin özü yerinə yetirir (30,2%). Başqa cavab versiyaları - məntəqənin kriminal avtoritetləri, dini liderlər, özüm, heç kim – ümumilikdə 5%-ə də çatmır. Müsahiblərin 4,3%-i cavab verməkdə çətinlik çəkdi və ya cavabdan imtina etdi. Məsələnin regionlarda müzakirəsi zamanı ümumi tendensiya qorunub saxlanılır – polis, təhlükəsizliyin təmin edilməsi baxımından əsas institutdur. Lakin məlum oldu ki, polisi təhlükəsizlik zəmanəti olaraq daha çox Kvemo Kartlidə qeyd edirlər (71,2%) nəinki Samtsxe-Cavaxetidə (53,5%). Samtsxe-Cavaxetidə (34,6%), Kvemo Kartliyə nisbətən (25,7%) daha çox əhalinin rolu qeyd olunub. Samtsxe-Cavaxetidə (3,8%) Kvemo Kartliyə (0,9%) nisbətən məhəllə ağsaqqallarını təhlükəsizliyin alternativ mənbəyi olaraq qeyd ediblər (Bax. Cədvəl #28).

**Cədvəl #28**

| Sizin yaşadığınız yerdə vətəndaşların təhlükəsizliyini kim təmin edir? (Region sahəsi) | **Samtsxe-Cavaxeti (N=600)** | **Kvemo Kartli (N=600)** |
|---|---|---|
| Polis | 53.5% | 71.2% |
| Məntəqə ağsaqqalları | 3.8% | 0.9% |
| Məntəqənin kriminal avtoritetləri | - | 0.1% |
| Əhalinin özü | 34.6% | 25.7% |
| Dini liderlər | 0.8% | 0.7% |
| Digər | 0.2% | 0.1% |
| Cavabdan imtina edirəm/ cavab verməyə çətinlik çəkirəm | 7.2% | 1.3% |

# BAŞLIQ 10. ELEKTRON XİDMƏTLƏR

Sorğudan sonrakı mərhələdə dövlət və bələdiyyə elektron xidmətlərindən faydalanmaq təcrübəsi qiymətləndirildi. Görünür, müsahiblərin əksəriyyəti (90,4%) dövlətin elektron xidmətlərindən (katastr bazası, əmlak/gəlirlər haqqında məlumat və s.) faydalanmır (Samtsxe-Cavaxeti- 90,3%, Kvemo Kartli – 90,4%). Demək olar hər onuncu adamın oxşar təcrübəsi var. Dövlət elektron xidmətlərindən faydalananların 82,8% göstərilən xidmətdən razıdır (5 ballıq şkalada - 4 və 5 bal). Maraqlıdır ki, dövlətin elektron xidmətlərindən narazı qalan heç bir müsahib yoxdur. Müqayisədə isə yalnız 2 müsahib (1,3%) narazıdır (Bax. Diaqram #32). Səbəb olaraq isə portalda işləməyin çətin olduğu, onun stabil fəaliyyət göstərməməsi, yenilənməməsi qeyd olunub.

**Diaqram #32**




Hər iki regionda sorğuda iştirak edənlərin əksəriyyəti dövlət elektron xidmətlərindən razıdır. Ancaq Kvemo Kartliyə nisbətən – 76,5% , Samtsxe-Cavaxetinin göstəricisi daha yüksəkdir (4 və 5 bal) – 89,3%. Nisbətən narazı şəxslərin yalnız Kvemo Kartlidə olması (2,7%) da mühümdür, Samtsxe-Cavaxetidə isə belə vəziyyət qeydə alınmayıb (Bax. Cədvəl #29).

**Cədvəl #29**

| Dövlətin elektron xidmətlərindən nə dərəcədə razısınız? Region sahəsi) | Samtsxe-Cavaxeti (N=60) | Kvemo Kartli (N=55) |
|---|---|---|
| Daha çox narazı | - | - |
| Tam narazı | - | 2.7% |
| Həm razı həm narazı | 10.7% | 17.1% |
| Daha çox razı | 55.2% | 23.4% |
| Tam razı | 34% | 53% |
| Cavabdan imtina edirəm | - | 3.7% |

Dövlətin elektron xidmətləri kimi müsahiblərin əksəriyyəti (96,4%) bələdiyyənin elektron xidmətlərindən də faydalanmır. Yalnız 3,2%-in qeyd olunan xidmətlərdən faydalanmaq təcrübəsi var. Bu kiçik qrupun təxminən yarısı (47,6%) xidmətdən yararlanmaq üçün bələdiyyə meriyasının veb-səhifəsindən, beşdə birindən artığı isə - Bələdiyyə Məclisinin veb-səhifəsindən faydalanıb (22,6%). 29,7% konkret mənbə qeyd etməkdə çətinlik çəkib.

Bələdiyyənin elektron xidmətlərindən faydalanmaq baxımıdan hər iki regionda kiçik təcrübə var: Samtsxe-Cavaxeti – 96,9%, Kvemo Kartli – 95%. Lakin bələdiyyənin elektron xidmətlərindən faydalanmaq üçün lazımı mənbələrdən faydalanmaq regionlar arasında fərqli təcrübədir - əgər Samtsxe-Cavaxetidə xidmətdən istifadə edənlərin 66,1%-i bələdiyyə meriyasının, 30,3% isə Bələdiyyə Məclisinin veb-səhifəsindən faydalanıb. Kvemo Kartlidə konkret mənbə qeyd etməkdə çətinlik çəkən şəxslər çoxluq təşkil edirlər (54,1%). Digər tərəfdən isə bu regionun müsahiblərinin 30,4%-i meriyanın, 15,5% isə Bələdiyyə Məclisinin veb-səhifəsindən faydalanıb.

Bələdiyyənin elektron xidmətlərindən faydalananların əksəriyyəti (64,1%) göstərilən xidmətdən razıdır, onlardan 25,1% tam razıdır. Üçdə birindən artığı isə neytral mövqe tutur və qeyd edir ki, həm razı həm də narazıdır.

# BAŞLIQ 11. BƏLƏDİYYƏ HAKİMİYYƏTİNİN İDARƏSİ VƏ İCTİMAİ FƏALLIQLAR-DA İŞTİRAK

## Yerli özünüidarə səviyyəsində qərarların qəbul edilməsi prosesində vətəndaşların iştirakı

Sorğu nəticəsində aydın oldu ki, müsahiblərin bir hissəsinin (30,4%) qiymətləndirməsinə görə, yerli səviyyədə qərarların qəbul edilmə prosesi vətəndaşların tələbləri və ehtiyaclarına cavab verir (5 ballıq şkalada 4 və 5 bal). Ancaq qeyd edək ki, sorğuda iştirak edənlərin demək olar eyni sayda qismi (26,8%) mövcud vəziyyəti mənfi qiymətləndirir və qərarlar, ehtiyaclar arasında bağ görmür (bal 1 və 2) (Bax. Diaqram#33).

**Diaqram #33**




Regional sahədə bir-birindən fərqli təcrübələr qeydə alınır. Əgər Samtsxe-Cavaxetidə sorğuda iştirak edən əhalinin üçdə birindən çoxu (36,7%) yerli qəbul olunan qərarlar və vətəndaş tələbləri arasında uyğunluqdan danışırsa, Kvemo Kartlidə daha çox mənfi qiymətləndirmə qeydə alındı – 37,3% hesab edir ki, qəbul olunan qərarlar əhalinin ehtiyaclarına cavab vermir (Bax. Cədvəl #30).

**Cədvəl #30**

| Yerli səviyyədə qərarların qəbul edilməsi prosesi vətəndaşların tələb və ehtiyaclarına nə dərəcədə cavab verir? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Qətiyyən cavab vermir | 5.4% | 14.7% |
| Daha çox cavab vermir | 10.9% | 22.6% |
| Həm cavab verir həm də yox | 29.3% | 21.8% |
| Daha çox cavab verir | 26.5% | 19.9% |
| Tam Cavab verir | 10.2% | 4.2% |
| Cavab verməkdən imtina edirəm/cavab verməyə çətinlik çəkirəm | 17.7% | 16.7% |

Müsahiblər yerli özünüidarəetmə orqanlarının ehtiyaclarını daha yaxşı ödəmək üçün işlərini hansı istiqamətdə təkmilləşdirməli olduğunu müəyyən ediblər. Aparıcı mövqeləri növbəti təbəqələr tutublar:

- Əhali ilə daha tez-tez görüşlərin təşkil edilməsi – 25,2%
- Bələdiyyə problemlərinin həlli üçün daha çox vəsait ayrılması – 27,3%
- Əhalinin aparılan proseslər barədə məlumatlandırılması – 14,8%

Digər qeyd olunan ayrıca istiqamətlər 10%-dən aşağıdır. Təxminən hər onuncu müsahib əməkdaşların ixtisasının yüksəldilməsini xüsusilə qeyd edir. 6,3% isə düşünür ki, qərar qəbul edən zaman yaşlıların ehtiyaclarına daha çox diqqət yetirmək mütləqdir (Bax. Cədvəl #31).

**Cədvəl #31**

| Sizin ehtiyaclarınızı daha yaxşı təmin etmək üçün yerli özünüidarəetmə orqanları hansı sahələrdə işini təkmilləşdirməlidir? (N=1200) | |
|---|---|
| Əhali ilə daha tez-tez görüşlərin təşkil edilməsi | 25.2% |
| Bələdiyyə problemlərinin həlli üçün daha çox vəsait ayrılması | 27.3% |
| Əməkdaşların ixtisasının yüksəldilməsi | 9.1% |
| Əhalinin aparılan proseslər barədə məlumatlandırılması | 14.8% |
| Qərar qəbul edən zaman fiziki imkanları məhdud şəxslərin ehtiyaclarına daha çox diqqət yetirilsin | 5.4% |
| Qərar qəbul edərkən azlıqların (etnik, dini, cinsi) ehtiyaclarına daha çox diqqət yetirilsin | 2.9% |
| Qərar vermə prosesində qadınların ehtiyaclarına daha çox diqqət yetirilsin | 2.5% |
| Qərar qəbul edərkən məcburi köçkünlərin ehtiyaclarına daha çox diqqət yetirilsin | 1.2% |
| Qərar qəbul edərkən yaşlıların ehtiyaclarına daha çox diqqət yetirilsin | 6.3% |
| Digər | 0.6% |
| Cavab verməkdən imtina edirəm/cavab verməyə çətinlik çəkirəm | 4.7% |

Yerli özünüidarəetmə orqanlarının işinin hansı istiqamətdə təkmilləşdirilməli olduğu üstünlük təşkil edən kateqoriyalar hər iki region üçün eynidir:

- Əhali ilə daha tez-tez görüşlərin təşkil edilməsi: Samtsxe-Cavaxeti – 24,3%, Kvemo Kartli – 26%
- Bələdiyyə problemlərinin həlli üçün daha çox vəsait ayrılması: Samtsxe-Cavaxeti – 29,1%, Kvemo Kartli – 25,7%
- Əhalinin aparılan proseslər barədə məlumatlandırılması: Samtsxe-Cavaxeti-14%, Kvemo Kartli – 15,5% (Bax. Cədvəl #32).

**Cədvəl #32**

| Sizin ehtiyaclarınızı daha yaxşı təmin etmək üçün yerli özünüidarəetmə orqanları hansı sahələrdə işini təkmilləşdirməlidirlər? (Region konteksti) | **Samtsxe-Cavaxeti (N=600)** | **Kvemo Kartli (N=600)** |
|---|---|---|
| Əhali ilə daha tez-tez görüşlərin təşkil edilməsi | 24.3% | 26% |
| Bələdiyyə problemlərinin həlli üçün daha çox vəsait ayrılması | 29.1% | 25.7% |
| Əməkdaşların ixtisasının yüksəldilməsi | 9% | 9.3% |
| Əhalinin aparılan proseslər barədə məlumatlandırılması | 14% | 15.5% |
| Qərar qəbul edən zaman fiziki imkanları məhdud şəxslərin ehtiyaclarına daha çox diqqət yetirilsin | 5.5% | 5.3% |

| Sizin ehtiyaclarınızı daha yaxşı təmin etmək üçün yerli özünüidarəetmə orqanları hansı sahələrdə işini təkmilləşdirməlidirlər? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Qərar qəbul edərkən azlıqların (etnik, dini, cinsi) ehtiyaclarına daha çox diqqət yetirilsin | 3.5% | 2.4% |
| Qərar vermə prosesində qadınların ehtiyaclarına daha çox diqqət yetirilsin | 1.3% | 3.5% |
| Qərar qəbul edərkən məcburi köçkünlərin ehtiyaclarına daha çox diqqət yetirilsin | 1.4% | 1.1% |
| Qərar qəbul edərkən yaşlıların ehtiyaclarına daha çox diqqət yetirilsin | 4.2% | 8.2% |
| Digər | 0.3% | 0.8% |
| Cavab verməkdən imtina edirəm/cavab verməyə çətinlik çəkirəm | 7.4% | 2.4% |

Müsahiblər 5 ballıq şkalada yerli özünüidarənin qərar qəbul etmə prosesinə vətəndaşların qoşulmasını qiymətləndiriblər. Şkalada 1 bal "ümumiyyətlə iştirak etmirlər", 5 bal isə "tam iştirak edirlər" deməkdir. Məlum oldu ki, sorğuda iştirak edənlərin 40%-nin fikrincə, vətəndaşlar bu prosesdə iştirak etmirlər (1 və 2 bal). Demək olar dörddə biri isə əks fikir bildirir və hesab edir ki, vətəndaşlar fəal olaraq iştirak edirlər (4 və 5 bal). Müsahiblərin təxminən beşdə birinin (18%) konkret mövqe seçməkdə çətinlik çəkməsi və ya cavab verməkdən imtina etməsi də nisbətən az fəallığın göstəricisi ola bilər (Bax. Diaqram #34).

**Diaqram #34**




Aydın oldu ki, Kvemo Kartlidə Samtsxe-Cavaxeti ilə müqayisədə yerli özünüidarənin qərar qəbul etmə prosesinə vətəndaşların qoşulması mühüm dərəcədə aşağıdır. Əgər Samtsxe-Cavaxetidə yalnız 26,7% əhalinin qeyd olunan prosesdə iştirak etməməsini qeyd edirsə, Kvemo Kartlidə bu göstərici 53,4%-ə qədər artıb, 13,1% isə müsbət qiymətləndirir (Bax. Cədvəl #33).

**Cədvəl #33**

| Vətəndaşlar yerli özünüidarə səviyyəsində qərarların qəbulu prosesində nə dərəcədə iştirak edirlər? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Ümumiyyətlə iştirak etmirlər | 7.6% | 26.6% |
| Daha çox iştirak etmirlər | 19% | 26.8% |
| Həm iştirak edirlər həm də yox | 19.2% | 17.7% |

| Vətəndaşlar yerli özünüidarə səviyyəsində qərarların qəbulu prosesində nə dərəcədə iştirak edirlər? (Region konteksti) | **Samtsxe-Cavaxeti (N=600)** | **Kvemo Kartli (N=600)** |
|---|---|---|
| Daha çox iştirak edirlər | 24.4% | 11.2% |
| Tam iştirak edirlər | 9.6% | 1.9% |
| Cavab verməkdən imtina edirəm/cavab verməyə çətinlik çəkirəm | 20% | 15.8% |

Araşdırma çərçivəsində yerli hakimiyyətin qərar qəbul etmə prosesinə etnik azlıq nümayəndələrinin qoşulma səviyyəsinin artırılmasına nə dərəcədə istiqamətləndiyi ayrıca qiymətləndirildi. Məlum oldu ki, müsahiblərin fikrincə, oxşar məqsədli tədbirlər, əsasən, keçirilmir (33.6%). Dörddə birindən çoxu isə (27,1%) müsbət təcrübəsi olduğunu qeyd edir. Ancaq, qeyd etmək lazımdır ki, sorğuda iştirak edənlərin 39,3%-i cavabdan imtina edib və ya cavab verməkdə çətinlik çəkib (Cavab verməkdə çətinlik çəkirəm – 37.8%). Regional kontekstdə məlumatlar göstərir ki, yerli hakimiyyət tərəfindən qərar qəbul etmək prosesinə etnik azlıqların iştirakı baxımından Samtsxe-Cavaxetidə (26,7%) vəziyyət Kvemo Kartlidən (40,4%) daha yaxşıdır. Samtsxe-Cavaxetidə müsahiblərin çoxu bu məsələdə fikrini bildirməkdə çətinlik çəkdi (46,6%) nəinki Kvemo Kartlidə - 31,9%.

Sorğu göstərir ki, sorğuda iştirak edənlərin 78,6%-i dövlət tərəfindən yerli biznesə dəstək olan fəallıqlar barədə eşitməyib (Samtsxe-Cavaxeti-81,8%, Kvemo Kartli – 75,4%), beşdə biri isə məlumatlı olduğunu (19,2%) qeyd edir. 2% cavabdan imtina etdi. Sonra bu kimi fəallıqlar barədə məlumatı olan şəxslər arasında qadınların iqtisadi gücləndirilməsinə yönəlmiş proqramlar/fəallıqlar haqqında eşidib eşitmədikləri dəqiqləşdirildi. Aydın oldu ki, yalnız 11% bu barədə eşidib (88,6%-in məlumatı yoxdur) və oxşar layihə olaraq əsasən bunları qeyd edirlər: Aqrokreditlər, “Gürcüstanda istehsal et”, “Taso” Fondu. Qadınların iqtisadi gücləndirilməsinə yönəlmiş layihələr haqqında məlumatlılıq Kvemo Kartlidə (15,6%) Samtsxe-Cavaxetidən (4,5%)daha yüksəkdir. Fiziki imkanları məhdud şəxslərin iqtisadi gücləndirilməsinə yönləndirilmiş biznesə dəstək olacaq fəallıqlar haqqında eşidən müsahiblərin sayı çox azdır (4%) (Samtsxe-Cavaxeti- 4,4%, Kvemo Kartli – 3,8%). Konkret proqram olaraq yenidən “Gürcüstanda istehsal et” qeyd olundu. Ayrıca müsahib ali təhsil müəssisələrinə qəbul olmaq üçün güzəştlər və ümumiyyətlə inklüziv təhsili qeyd etdilər.

Görünür, dövlət tərəfindən biznesə dəstək fəallıqları haqqında məlumatlı müsahiblər arasında yalnız 6,5% (Samtsxe-Cavaxeti-2,1%, Kvemo Kartli – 9,6%) etnik azlıq nümayəndələrinin iqtisadi gücləndirilməsinə yönəlmiş proqramlar/layihələr haqqında eşidib (93,2%-in bu haqda məlumatı yoxdur). Konkret olaraq isə dil tədris olunan proqramlar, müxtəlif biznesə başlamaq üçün göstərilən dəstək, toxuculuq müəssisəsinin maliyyələşdirilməsi, kənd təsərrüfatının inkişafı üçün lazımı maliyyənin verilməsi məsələləri qeyd olundu.

* * *

Kəmiyyət araşdırması kimi, keyfiyyət araşdırmasının, konkret fokus-qrupların məqsədlərindən biri əhalinin yerli hakimiyyətin fəaliyyətini həyata keçirməsinə nə dərəcədə iştirak etdiyini müəyyən etmək idi. Qeyd etmək lazımdır ki, bütün fokus-qruplarda yerli hakimiyyətdə iştirak formaları haqqında heç nə eşitməmiş şəxslər qeydə alındı. Məsələn, Bələdiyyə Məclisinin iclasında iştirak etmək, suallar vermək, büdcənin müzakirəsi və petisiyanın tərtib edilməsində iştirak etmək və s. icazə verilməsi haqqında.

> *„Mən şəxsən elə bilirdim ki, yalnız orada işləyən adamlar iştirak edə bilərlər və indi ilk dəfə sizdən eşidirəm” (30 yaşlı qadın, özünüməşğul, etnik gürcü, Axaltsixe).*

İştirakçıların bir hissəsi yerli hakimiyyət tərəfindən əhalinin qərar qəbul etmək prosesinə qoşulması üçün hazırlıq və istək görmür. Bunun səbəbi əhalinin qoşulmasının əlavə yük və prosesin uzadılması ilə əlaqədardır. Yerli hakimiyyət isə bundan çəkinməyə çalışır.

Fokus-qruplara qoşulanlar gənclərin yerli hakimiyyətin fəaliyyətində iştirakının əhəmiyyətindən danışdılar. Qeyd olunduğu kimi, bələdiyyələrindəki gənclərin vəziyyəti onları çox narahat edir. İştirakçılar meriyada mövcud olan Gənclər Şurası haqda eşidiblər. Ancaq onun fəaliyyəti barədə məlumatları yoxdur.

Fokus-qrup iştirakçılarından əhalinin yerli hakimiyyətin fəaliyyətinə qoşulmamasının səbəblərini eşitmək maraqlı idi. Fikir bildirildi ki, iştirak etməməyin əsas səbəbi məlumatsızlıqdır. Məsələn, Bələdiyyə Məclisinin iclasları haqqında məlumatı əvvəlcədən, iclas planlaşdırılan zaman deyil sonradan alırlar – “Feysbuk səhifəsinə heç nə yerləşdirmirlər. Artıq keçirilmiş iclasların fotolarını görürəm” (30 yaşlı qadın, özünüməşğul, etnik gürcü, Axaltsixe)

Vətəndaşların öz hüquqları, konkret olaraq yerli hakimiyyətin fəaliyyətinə necə və hansı yollarla qoşulmaq haqqında məlumatları yoxdur.

Fokus-qrupların bəzi iştirakçısı əhalinin yerli hakimiyyətin fəaliyyətində iştirak etməsi ilə əlaqədar spektik əhval-ruhiyyədədir. Onların qiymətləndirməsinə görə, iştirak formal xarakter daşıyır və real təsir göstərmək çətindir. Məhz iştirak etməməyin daha bir səbəbi olaraq nihilizm qeyd olundu. Əhalidə elə təsəvvür yaranıb ki, hakimiyyət rəhbərdir və o necə hərəkət edəcəyini daha yaxşı bilir – “Belə fikir var ki, hakimiyyət daha yaxşı bilir və niyə müdaxilə etməliyəm?!” (32 yaşlı kişi, işlə təmin edilmiş, etnik gürcü, Tetritskaro).

Əhalinin iştirak etməməsinin daha bir səbəbi olaraq vaxtın olmaması qeyd olundu. İştirakçıların bu qismi hesab edir ki, fəallıq üçün vaxtı və şəraiti yoxdur. Xüsusuilə həssas vəziyyətdə olan müsahiblər qeyd etdilər ki, onların ağır sosial və iqtisadi vəziyyətini nəzərə almaqla gündəlik qayğıya görə bələdiyyənin fəaliyyətinə qoşulmaq üçün nə şərait nə də motivasiyaları yoxdur.

Fokus-qrup iştirakçıları fikir bildirib ki, hakimiyyət nümayəndələri ilə birlikdə ictimai təşkilatların fəallaşdırılması lazımdır ki, əhalidə yerli hakimiyyətdə iştirak etmək marağı yaransın – “Əhalini həvəsləndirmək və onların iştirakının nəticə verə biləcəyini göstərmək lazımdır. Təşkilatlar fəallaşmalıdırlar” (22 yaşlı kişi, işləyən, etnik gürcü, Dmanisi). Qeyd edək ki, kənd əhalisinin iştirak etməməsinin mühüm baryerlərindən biri kimi mərkəzə qədər olan uzun məsafə qeyd olundu.

Fokus-qrupların nəticələrinin göstərdiyi kimi, əhalinin yerli hakimiyyətin fəaliyyəti ilə maraqlanan və iştirak etmək istəyi olan hissəsi əsasən, səhiyyə xidmətləri və infrastruktur məsələləri ilə maraqlanır. Belə məsələlər, məsələn: parkın tikintisi, yol infrastrukturunun qurulması, idman zallarının inşası, kanalizasiya sistemlərinin tikintisi və s. Bunu nəzərə almaqla demək olar ki, əhali yerli hakimiyyətin fəaliyyətini səhiyyə və infrastruktur məsələlərinin həlli ilə əlaqələndirir.

Etnik azlıq qruplarında yerli hakmiyyətin fəaliyyətinə qoşulmamağın mühüm əlavə faktoru olaraq dil baryeri və ümumiyyətlə, inteqrasiyanın aşağı səviyyədə olması qeyd olundu. Bu ictimai həyatdan təcrid olmağa dəstək olur – “Elə mühit yaradılıb, hamı düşünür ki, onların burada yeri yoxdur” (37 yaşlı kişi, işləyən, etnik azərbaycanlı, Qardabani). Etnik azlıq nümayəndələrində fikir bildirildi ki, əsasən əhalinin hakimiyyətə yaxın olan hissəsi qoşulub və fəaldır. Ancaq neytral və kritik əhval-ruhiyyədə olan hissə üçün yerli hakimiyyət tərəfindən qoşulmaya dəstək yoxdur.

Qeyd etmək lazımdır ki, fokus-qruplarda iştirak edən etnik azərbaycanlıların bir hissəsi onlayn petisiyaya imza atıb, petisiyanın məqsədi İslamın dini bayramı – Qurban bayramının istirahət günü elan edilməsidir.

Yerli hakimiyyət nümayəndələri dərin müsahibələr çərçivəsində, əhalinin qərar qəbul etmək prosesində iştirak etməsini region və bələdiyyələrə görə müxtəlif şəkildə qiymətləndirirlər. Məsələn, Tsalka bələdiyyə nümayəndələri qeyd ediblər ki, onların bələdiyyəsində əhali çox fəaldır və məlumata malik olduğu halda, bütün proseslərdə iştirak edirlər. Ancaq Bolnisi meriya nümayəndəsinin sözlərinə görə, onların bələdiyyəsində əhali passivdir və əsasən qərar qəbul etmə prosesinə qoşulmur. Müsahiblərin dediyinə görə, xüsusilə etnik azlıqları və qadınlar passivliklə seçilirlər – "Çox passiv əhalimiz var. Əksər hallarda, qərar qəbul etmək prosesində iştirak etməyi sevmirlər. Burada etnik azlıq qrupları və qadınlar var, onlar qərar qəbul etmə prosesinə qoşulmurlar" (Bolnisi meriya nümayəndəsi)

Vətəndaşların iştirakı haqqında yerli hakimiyyət və vətəndaş sektoru nümayəndələrinin mövqeyləri fərqlidir. Bələdiyyə xidmət nümayəndələrinin sözlərinə görə, son üç il ərzində əhali qərar qəbul etmə prosesində iştirak baxımından fəallaşıb. Vətəndaş cəmiyyəti nümayəndələri isə hesab edirlər ki, bu istiqamətdə mühüm dəyişiklər müşahidə etməyiblər. İştirak etməməyə əhalidə məlumat qıtlığı ya məlumatın gec verilməsi dəstək olur.

> *„Son illərdə ümumiyyətlə heç nə dəyişməyib, yenə eynidir. Dəqiq görüşlər barədə heç vaxt məlumat yoxdur və bir insan bununla niyə maraqlanmalıdır. İclas haqqında son dəqiqə məlumat yazırlar" ("Mülki Məşğullu Mərkəzi" – Marneuli).*

Kvemo Kartli regionunda işləyən sosial işçilərin məlumatına görə, yerli hakimiyyət və əhali arasında ünsiyyət var. Bələdiyyə nümayəndələri əhali ilə görüşürlər və onların ehtiyaclarını nəzərə almaqla layihələr həyata keçirirlər. Ancaq layihələrin sayı məhduddur, çünki bələdiyyə büdcəsinin az olmasına görə, əhalini narahat edən bütün problemləri aşmaq imkanı yoxdur.

> *„Deyə bilmərəm ki, yerli hakimiyyət nümayndələri əhali ilə görüşmürlər. Qərar qəbul edən zaman əhalinin maraqlarını az-çox nəzərə alırlar. Büdcədən çox layihələrin maliyyələşdirilməsi mümkün deyil və əhali özü hansının daha vacib olduğunu seçir, sonra seçilmiş layihə bələdiyyə tərəfindən maliyyələşdirilir" (Sosial işçi).*

Qərarların qəbul edilməsi prosesində əhalinin iştirakını artırmaq üçün yerli hakimiyyət, eləcə də vətəndaş cəmiyyəti təşkilatı üzvləri hesab edirlər ki, əhaliyə müvafiq məlumat verilməsi mühümdür. Müsahiblərin sözlərinə görə, bu məqsədə nail olmaq üçün ümumi toplantılar mühüm vasitədir. Bu əhali ilə fəal ünsiyyət üçün əsas platforma olmalıdır.

Qardabani bələdiyyəsindən yerli hakimiyyət nümayəndələri qeyd ediblər ki, ictimaiyyətin qərar qəbul etmə prosesində iştirakını artırmağa gürcü dilini bilməmək və ya müvafiq şəkildə bilməmək mane olur. Ancaq "Tolerantlıq" Assosiasiyasının nümayəndəsinin sözlərinə görə, əhalinin onların yerli hakimiyyət tərəfindən nəzərə alınmayacağı təəssüratı var.

> *„Əhali düşünür ki, hakimiyyət büdcəni necə istəyirsə elə tərtib edir. Hakimiyyət əhalinin toplantılara niyə gəlmədiyinə təəccüblənir. Bu isə məlumat qıtlığının günahıdır, heç kim əhaliyə tam məlumat vermir" ("Tolerantlıq" Assosiasiyası – Samtsxe-Cavaxeti).*

Axaltsixenin yerli hakimiyyət nümayəndələrinin sözlərinə görə, əhalinin məlumatlılığını artırmaq üçün kənd müvəkkili tərəfindən daha fəal görüşlər təşkil etmək lazımdır. Eləcə də məlumat yaymaq üçün media mənbələrdən (Sosial şəbəkələr də daxil olmaqla) fəal istifadə etmək lazımdır. Vətəndaş cəmiyyəti təşkilatının nümayəndələrinin fikrincə, vətəndaşların iştirakını artırmaq üçün yerli hakimiyyət tərəfindən istək-icazənin olması mühümdür ki, əhali qərar qəbul etmək prosesində iştirak etsin və bunun üçün müvafiq addımlar atsın. Marneulidən vətəndaş iştirakı mərkəzinin nümayəndəsi qeyd edib ki, yerli hakimiyyət vətəndaşların səfərbər edilməsi baxımından passivdir, onun üçün qərarları qeyri-ictimai şəkildə, dar çevrədə qəbul etmək rahatdır. Müsahibin sözlərinə görə, görüşlər haqqında yerli hakimiyyət nümayəndələri vaxtında məlumat vermirlər və yalnız sıx çevrə ilə məlumat paylaşırlar.

> *„Özünüidarə əhalinin proseslərə qoşulmasına daha çox dəstək ola bilər. Bunu necə edəcəklərini bilmirlər, yaqin heç istəmirlər də, əvvəlcədən demirlər ki, filan gün görüş olacaq, desələr də yaxın çevrələrinə bildirirlər, hamıya deyil" (Mülki Məşğulluq Mərkəzi – Marneuli).*

Tetritskaro meriya nümayəndəsinin sözlərinə görə, əhalinin iştirakını artırmaq üçün bələdiyyənin dəstəyi ilə Gənclər Mərkəzi yaradılıb. Mərkəz maarifləndirici və mədəni tədbirlər həyata keçirir. Axaltsixe bələdiyyə nümayəndəsinin sözlərinə görə, bələdiyyədə gender şöbəsi var və şöbə qadınların iqtisadi gücləndirilməsinə, hüquqları haqqında məlumatlandırılmasına və onların iştirakının artırılmasına dəstək olur. Müsahibin sözlərinə görə, qeyd olunan işdə qeyri-hökumət təşkilatları da fəal iştirak edirlər - "Gender şöbəmiz var, kifayət qədər fəaldır. Kəndlərə, şəhərə, hər yerə gedir və müxtəlif baxımdan vətəndaşlara məlumat verir. Qeyri-hökumət sektoru da qoşulub və kifayət qədər fəaldırlar" – (Axaltsixe bələdiyyə nümayəndəsi). Bunun əksi olaraq, "Qadın otağı" vətəndaş cəmiyyətinin nümayəndəsinin sözlərinə görə, Tsalka bələdiyyəsi qadınların iqtisadi gücləndirilməsi istiqamətində fəal deyil. Müsahibin qiymətləndirməsinə görə, hətta qeyd olunan bələdiyyənin büdcəsi "Gender baxımından həssas" deyil.

## Yerli özünüidarə strukturları ilə ünsiyyət

Aydın oldu ki, araşdırmada iştirak edən şəxslərin yerli özünüidarə strukturları ilə fəal ünsiyyəti yoxdur. Sorğuda iştirak edənlərin əksəriyyəti (81,8%) son 2 il ərzində onlar üçün konkret problemin həlli məqsədi ilə müraciət etməyib (Samtsxe-Cavaxeti- 83,7%, Kvemo Kartli – 80%). Bu kimi təcrübə yalnız 17%-də var (1,2% isə cavabdan imtina edib). Sonra dəqiqləşdi ki, yerli özünüidarəyə konkret hansı məsələlərlə bağlı müraciət ediblər. Belə təcrübəsi olan müsahiblər arasında dominant təbəqələr olaraq qeyd olunub:

- Müxtəlif sosial/həssas qruplarla (fiziki imkanları məhdud şəxslər, uşaqlar, yaşlılar, evsizlər, məcburi köçkün şəxslər) əlaqədar şəraitin yaxşılaşdırılması – 13,7%;
- İnfrastruktur problemləri (qaz, su təchizatı, elektrik enerjisi və s. )- 21,8%;
- Sosial məsələlər (Sosial yardım, işsizlik və s.) – 28%;
- Səhiyyə xidmətləri ilə əlaqədar məsələlər – 19,3%.

Əlavə olaraq, müsahiblərin 7,7% qeyd edib ki, ərazinin abadlaşdırılması ilə əlaqədar yerli özünüidarəyə müraciət edib. 3,8% -in təcrübəsi isə ev/torpaq qeydiyyatı ilə əlaqədardır. Ayrıca kateqoriyalar su problemi, sahibsiz itlər, maşınların dayanması üçün qarajın tikilməsi və s. (Bax. Cədvəl #34).

**Cədvəl #34**

| Son 2 ildə yerli özünüidarəyə hansı məsələ(lər)lə bağlı müraciət etmisiniz? (N=215) | |
|---|---|
| Müxtəlif sosial/həssas qruplarla (fiziki imkanları məhdud şəxslər, uşaqlar, yaşlılar, evsizlər, məcburi köçkün şəxslər) əlaqədar şəraitin yaxşılaşdırılması | 13.7% |
| İnfrastruktur problemləri (qaz, su təchizatı, elektrik enerjisi və s. ) | 21.8% |
| Ərazinin abadlaşdırılması (Tullantıların daşınması, yaşıllaşdırma və s. ) | 7.7% |
| Sosial məsələlər (Sosial yardım, işsizlik və s.) | 28% |
| Səhiyyə xidmətləri ilə əlaqədar məsələlər | 19.3% |
| Ev/torpaq qeydiyyatı | 3.8% |
| Digər | 5.3% |
| Cavabdan imtina edirəm/cavab verməkdə çətinlik çəkirəm | 0.4% |

Müsahiblərin son 2 il ərzində yerli özünüidarəyə müraciət etdiyi dominant məsələlər iki regionda oxşardır:

- İnfrastruktur problemləri (qaz, su təchizatı, elektrik enerjisi və s. ): - Samtsxe-Cavaxeti – 27,6%, Kvemo Kartli – 16,8%
- Sosial məsələlər (Sosial yardım, işsizlik və s.): Samtsxe –Cavaxeti – 33,1%, Kvemo Kartli – 23,5%.
- Səhiyyə xidmətləri ilə əlaqədar məsələlər: Samtsxe-Cavaxeti – 15,3%, Kvemo Kartli – 22% (bax. Cədvəl #35).

**Cədvəl #35**

| Son 2 ildə yerli özünüidarəyə hansı məsələ(lər)lə bağlı müraciət etmisiniz? (Region konteksti) | Samtsxe –Cavaxeti (N=98) | Kvemo Kartli (N=117) |
|---|---|---|
| Müxtəlif sosial/həssas qruplarla (fiziki imkanları məhdud şəxslər, uşaqlar, yaşlılar, evsizlər, məcburi köçkün şəxslər) əlaqədar şəraitin yaxşılaşdırılması | 15.2% | 12.4% |
| İnfrastruktur problemləri (qaz, su təchizatı, elektrik enerjisi və s. ) | 27.6% | 16.8% |
| Ərazinin abadlaşdırılması (Tullantıların daşınması, yaşıllaşdırma və s. ) | 5.8% | 9.4% |
| Sosial məsələlər (Sosial yardım, işsizlik və s.) | 33.1% | 23.5% |
| Səhiyyə xidmətləri ilə əlaqədar məsələlər | 15.3% | 22.8% |
| Ev/torpaq qeydiyyatı | 1% | 6.3% |
| Digər | 1.3% | 8.9% |
| Cavabdan imtina edirəm/cavab verməkdə çətinlik çəkirəm | 0.8% | - |

Müxtəlif məsələlərlə əlaqədar yerli özünüidarə orqanlarına müraciət etmiş müsahiblərin üçdə birindən çoxu qeyd edib ki, onun heç bir problemini həll etməyiblər (Samtsxe-Cavaxeti- 36,4%, Kvemo Kartli – 42,3%). 23,5%-in təcrübəsinə görə, bəzi problemlər həll olunub, beşdə birinin qiymətləndirməsinə görə isə özünüidarə müraciət olunan bütün problemləri həll edib. Özünüidarə cəhd göstərsə də problemi həll olunmayanların sayı onda birdən artıqdır. 2,1% isə cavab verməkdə çətinlik çəkib.

## İctimai fəallıqlarda iştirak etmək

Araşdırma nəticəsində aydın olub ki, son 1 il ərzində müsahiblərin 11,1%-i ictimai görüşlərdə, 10,3% isə məntəqənin problemlərinin həllində iştirak edib; 8,1% ümumi məntəqə toplantılarına qoşulub, ancaq qeyd etmək lazımdır ki, sorğuda iştirak edənlərin əksəriyyəti (57,4%) heç bir fəallıqda iştirak etməyib (Bax. Diaqram #35).

**Diaqram #35**

Son 1 ildə aşağıdakı fəaliyyətlərdən hər hansı birində iştirak etmisinizmi? (N=1200)




Samtsxe-Cavaxeti və Kvemo Kartlidə sorğuda iştirak edənlərin təxminən onda biri qeyd edir ki, ictimai görüşlərdə iştirak edib; Kvemo Kartli əhalisində məntəqə probleminin həllində iştirak etmək də qeydə alınıb (12,4%). Lakin qeyd etmək lazımdır ki, vətəndaşların ayrıca regionlarda iştirak səviyyəsi aşağıdır - əksəriyyət qeyd edir ki, son 1 il ərzində heç bir fəallıqda iştirak etməyib (Samtsxe-Cavaxeti- 65,4%, Kvemo Kartli – 50,3%) (Bax. Cədvəl #36).

**Cədvəl #36**

| Son 1 ildə aşağıdakı fəaliyyətlərdən hər hansı birində iştirak etmisinizmi? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=600) | Kvemo Kartli (N=600) |
|---|---|---|
| Məntəqə probleminin həllində iştirak etmək | 8% | 12.4% |
| Yerli və ya mərkəzi hakimiyyət nümayəndələri üçün yazılı müraciət | 2.4% | 8.6% |
| Yerli özünüidarə orqanları büdcəsinin müzakirəsində iştirak etmək | 2.9% | 7.5% |
| İctimai görüşlərdə iştirak etmək | 11.3% | 10.9% |
| Petisiyaya imza atmaq | 0.6% | 2.7% |
| Ümumi məntəqə toplantılarında iştirak etmək | 9.2% | 7.1% |
| Vətəndaş Şurasına üzvlük | 0.2% | 0.5% |
| Heç bir fəallıq həyata keçirməmişəm | 65.4% | 50.3% |

Son 1 il ərzində vətəndaş fəallıqlarında iştirak etməməyin dominant səbəbləri müəyyən olunub:

- Vaxt çatışmazlığı – 20,9%
- Müsahibin fəallığının heç nəyi dəyişməyəcəyi təəssüratı – 23,9%
- Müsahib hesab edir ki, bu məsələlərin qayğısına yerli hakimiyyət qalmalıdır – 22,8%

Belə ki, müsahiblərin onda birindən çoxu isə qeyd edib ki, onun öz hüquqları haqqında yetərli məlumatı yoxdur (13,5%). Sorğuda iştirak edənlərin 14,9%- i isə cavab verməkdən çəkindi və ya imtina etdi (Bax. Diaqram #36).

**Diaqram #36**




Samtsxe-Cavaxetidə, eləcə də Kvemo Kartlidə sorğuda iştirak edənlər arasında vətəndaş fəallıqlarına qoşulmamaq səbəbini qeyd edənlərin sayı beşdə birdən çoxdur:

Onun fəaliyyətinin heç nəyi dəyişməyəcəyi təəssüratı olanlar: Samtsxe-Cavaxeti – 24%, Kvemo Kartli – 23,8%

Bu məsələlərin qayğısına yerli hakimiyyətin qalmalı olduğunu hesab edir: Samtsxe-Cavaxeti- 20,7%, Kvemo Kartli – 25,2% (Bax. Cədvəl #37).

**Cədvəl #37**

| Sizcə, son 1 ildə niyə heç bir vətəndaş aksiyasında iştirak etməmisiniz? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=384) | Kvemo Kartli (N=302) |
|---|---|---|
| Vaxt olmadığına görə | 16.3% | 26.5% |
| Elə təəssüratım var idi ki, mənim fəallığım heç nəyi dəyişməyəcək | 24% | 23.8% |
| Öz hüquqların haqqında yetərli məlumatım yoxdur | 17.5% | 8.8% |

| Sizcə, son 1 ildə niyə heç bir vətəndaş aksiyasında iştirak etməmisiniz? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=384) | Kvemo Kartli (N=302) |
|---|---|---|
| Hesab edirəm ki, bu məsələnin qayğısına yerli hakimiyyət qalmalıdır | 20.7% | 25.2% |
| Hesab edirəm ki, bu məsələnin qayğısına qeyri-hökumət təşkilatları qalmalıdır | 4% | 1% |
| Digər | 1.8% | 0.9% |
| Cavabdan imtina edirəm/cavab verməkdə çətinlik çəkirəm | 15.7% | 13.9% |

## Yerli özünüidarə orqanlarının fəaliyyətindən razılıq

Araşdırmada iştirak edən bütün şəxslərin yerli özünüidarə orqanlarının fəaliyyəti ilə əlaqədar qiymətləndirməsi müsbətdir. Qiymətləndirmə üçün 5 ballıq şkaladan istifadə olunub. 1 bal "tam narazı", 5 bal isə "tam razı" deməkdir. Aydın oldu ki, müsahiblərin 38,8%-i bələdiyyələrin fəaliyyətindən razıdır (4 və 5 bal), üçdə biri isə (33,3%) neytral mövqe tutur (3 bal) (Bax. Diaqram #37).

**Diaqram #37**




Yerli özünüidarəetmə orqanlarının işinə hansı amillərin təsir etdiyini müəyyən etmək üçün müsahiblərin razılığı üzrə reqressiya modeli hazırlanmışdır. Aydın olub ki, bələdiyyənin fəaliyyətindən daha çox razı olan müsahiblər bunlardır:

- Şəhər sakini olanlar;
- Yuxarı yaş qrupunun nümayəndəsi olanlar[12];
- Son 2 il ərzində yerli özünüidarəyə səhiyyə xidməti ilə əlaqədar məsələlərə görə müraciət edənlər;
- Son 1 il ərzində ümumi məntəqə toplantısında iştirak edənlər (Bax. Cədvəl #38)

12 Yaşlı müsahiblər yerli özünüidarə orqanlarının fəaliyyətindən daha çox razıdırlar

**Cədvəl #38**

| | Yerli özünüidarəetmə orqanlarının işindən razılıq | | |
|---|---|---|---|
| | Beta | Standardized CI | Sig |
| Qəsəbə tipi (Şəhər/kənd) | -0.382 | -1.817 - -0.481 | **0.001** |
| Yaş | 0.285 | 0.008 – 0.048 | **0.007** |
| Səhiyyə xidmətləri ilə bağlı məsələlərlə yerli özünüidarə orqanlarına müraciət etmək | 0.361 | 0.359 – 1.558 | **0.002** |
| Qəsəbənin ümumi yığıncağında iştirak etmək | 0.291 | 0.257 – 1.682 | **0.008** |

Maraqlıdır ki, yerli özünüidarə orqanlarının fəaliyətindən Samtsxe-Cavaxetidə (47,5%) Kvemo Kartlidən (30,2%) daha çox razıdırlar (4 və 5 bal). Hər iki regionda təxminən üçdə bir hissə neytral mövqe tutur, ancaq Kvemo Kartlidə bələdiyyənin fəaliyyətindən narazılıq daha çoxdur – 35,5% (Bx. Cədvəl #39).

**Cədvəl #39**

| Ümumiyyətlə, yerli özünüidarəetmə orqanlarının işindən nə dərəcədə razısınız? (Region konteksti) | **Samtsxe-Cavaxeti (N=600)** | **Kvemo Kartli (N=600)** |
|---|---|---|
| Tam narazı | 3.7% | 10.9% |
| Daha çox narazı | 10.7% | 24.7% |
| Həm razı həm narazı | 36% | 30.5% |
| Daha çox razı | 37.1% | 17.7% |
| Tam razı | 10.4% | 12.5% |
| Cavabdan imtina edirəm | 2% | 3.8% |

Reqressiya modelinə görə, Kvemo Kartlidə müsahiblərin razılığına iki əsas amil təsir edir – qəsəbə tipi və özünüidarəyə müxtəlif məsələlərlə bağlı müraciət. Məlum olub ki, bələdiyyənin fəaliyyətindən daha çox razıdırlar:

- Şəhər sakini olanlar;
- Yuxarı yaş qrupunun nümayəndəsi olanlar[13];
- Son 2 il ərzində yerli özünüidarə üçün səhiyyə xidməti ilə əlaqədar məsələlərə görə müraciət edənlər;
- Son 1 il ərzində ümumi məntəqə toplantısında iştirak edənlər (Bax. Cədvəl #40)

13 Yaşlı müsahiblər yerli özünüidarə orqanlarının fəaliyyətindən daha çox razıdırlar

**Cədvəl #40**

| | Yerli özünüidarəetmə orqanlarının işindən razılıq (Kvemo Kartli) | | |
|---|---|---|---|
| | Beta | Standardized CI | Sig |
| Qəsəbə tipi (Şəhər/kənd) | -0.328 | -2.170 - -0.239 | **0.016** |
| Yerli və ya mərkəzi hakimiyyət nümayəndələrinə yazılı müraciət | -0.357 | -1.845 - -0.385 | **0.004** |
| Yerli özünüidarəyə səhiyyə xidməti ilə əlaqədar məsələlərə görə müraciət | 0.271 | 0.031 – 1.579 | **0.042** |

Yerli özünüidarə orqanlarının fəaliyyətindən narazılıq səbəbi olaraq əsasən vətəndaşların ehtiyaclarının nəzərə alınmaması (41,8%) qeyd olundu. Dörddə bir hissənin fikrincə isə yerli əhali ilə fəal ünsiyyət yoxdur. 15,3%-in qiymətləndirməsinə görə, əməkdaşların ixtisas səviyyəsi problemlidir. Onda bir hissəsindən çoxu narazılıq səbəbi olaraq nepotizmi qeyd edir (Bax. Diaqram #38).

**Diaqram #38**



# BAŞLIQ 12. VƏTƏNDAŞ CƏMİYYƏTİ TƏŞKİLATLARI İLƏ ƏMƏKDAŞLIQ

Araşdırmada iştirak edən şəxslərin əksəriyyəti (93,8%) bələdiyyədəki vətəndaş cəmiyyəti təşkilatları haqqında məlumatlıdır (Samtsxe-Cavaxeti-91,3%, Kvemo Kartli – 96,3%). Bu istiqamətdə məlumatlılıq barədə yalnız 5,5% qeyd edib (0,6% cavabdan imtina edib). Müsahiblər konkret təşkilat qeyd etməkdə əsasən çətinlik çəkiblər. Ancaq sonrakı təşkilatlar müəyyən olundu: "Tolerant", Demokrat Mesxetilər İttifaqı", "Demokrat Qadınlar İttifaqı", icma mərkəzləri.

Vətəndaş cəmiyyəti haqqında məlumatlı müsahiblərin əksəriyyəti (58,5%) hesab edir ki, yerli əhali vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətinə qoşulub (5 ballıq şkalada - 4 və 5 bal), beşdə birindən çoxu isə (21,9%) aşağı səviyyədə iştirakı/iştirak etməməyi qeyd edir (1 və 2 bal) (Bax. Diaqram #39).

**Diaqram #39**

Yerli əhali vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətində nə dərəcədə iştirak edir?(N=71)




Məsələnin regionlar sahəsində müzakirəsi zamanı ümumi tendensiya qorunur. Samtsxe-Cavaxetidə (57.9%, N=30), eləcə də Kvemo Kartlidə (60.1%, N=11) vətəndaş cəmiyyəti təşkilatları haqqında məlumatlı şəxslərin əksəriyyəti hesab edir ki, əhali vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətində fəal iştirak edir (4 və 5 bal). Mənfi qiymətləndirmə edən şəxslərin sayı Samtsxe-Cavaxetidə daha çoxdur – 23,5% (Bax. Cədvəl #41).

**Cədvəl #41**

| Yerli əhali vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətində nə dərəcədə iştirak edir? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=53) | Kvemo Kartli (N=18) |
|---|---|---|
| Qətiyyən iştirak etmir | 9.8% | 6.1% |
| Daha çox iştirak etmir | 13.7% | 11.2% |
| Həm iştirak edir həm də etmir | 15% | 16.7% |
| Daha çox iştirak edir | 55.2% | 49.3% |
| Tam iştirak edir | 2.7% | 10.7% |
| Cavabdan imtina edirəm/Cavab verməkdə çətinlik çəkirəm | 3.6% | 6% |

Araşdırma zamanı müsahiblərin vətəndaş cəmiyyəti haqqında məlumatı olan qrupunda son 1 il ərzində vətəndaş cəmiyyətləri tərəfindən təklif edilmiş konkret xidmətlərdən faydalanmaq təcrübəsi qiymətləndirildi. Əsas yük sosial xidmətdən faydalanmağa düşür – 18,7%. Qeyd edək ki, bu xidmətdən yalnız Samtsxe-Cavaxetidə faydalanırlar (25,5%), Kvemo Kartlidə isə belə təcrübə yoxdur. Başqa ayrıca xidmətlərin göstəricisi 3%-ə qədər

deyil: Qadınların gücləndirilməsinə yönləndirilmiş layihələr – 2,9%, etnik azlıq nümayəndələrinin inteqrasiyasına yönləndirilmiş layihələr – 2,7%. Kvemo Kartlidə sorğuda iştirak edən hər onuncu müsahib məhz qadınların gücləndirilməsinə istiqamətlənmiş layihələrdən faydalanıb.

Aydın olub ki, əgər vətəndaş cəmiyyətləri haqqında məlumatlı olan müsahiblərin özlərinin belə cəmiyyətlərlə əsasən ünsiyyətləri yoxdur – 62,1% 1 il ərzində heç bir xidmətdən faydalanmayıb (Samtsxe –Cavaxeti 57,7%, Kvemo Kartli – 74,4%) (Bax. Cədvəl #42, #43).

Buna səbəb olaraq xidmətdən faydalanmaq ehtiyacının olmaması qeyd olunub (67%). Buna xidmətdən istifadə ehtiyacının olmaması (67%) səbəb olub. Vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyəti haqqında məlumatı olmayan və ya mürəkkəb qeydiyyat prosedurlarına görə ondan faydalanmayanların sayı 5%-dən artıqdır (Bax. Diaqram #40).

**Cədvəl #42**

| Son 1 il ərzində vətəndaş cəmiyyəti təşkilatlarının təklif etdiyi xidmətlərdən istifadə etmisinizmi? (N=71) | |
|---|---|
| Sosial xidmətlər | 18.7% |
| Səhiyyə xidmətləri | 1.3% |
| Fiziki imkanları məhdud şəxslərin inteqrasiyasına yönəlmiş layihələr | 2.3% |
| Etnik azlıq nümayəndələrinin inteqrasiyasına yönəlmiş layihələr | 2.7% |
| Yaşlıların sosial-mədəni fəaliyyətlərə cəlb edilməsinə yönəlmiş layihələr | 1.5% |
| Qadınların gücləndirilməsinə yönəlmiş layihələr | 2.9% |
| Heç bir xidmətdən faydalanmamışam | 62.1% |
| Cavabdan imtina edirəm/cavab verməkdə çətinlik çəkirəm | 8.6% |

**Cədvəl #43**

| Son 1 il ərzində vətəndaş cəmiyyəti təşkilatlarının təklif etdiyi xidmətlərdən istifadə etmisinizmi? (Region konteksti) | **Samtsxe-Cavaxeti (N=53)** | **Kvemo Kartli (N=18)** |
|---|---|---|
| Sosial xidmətlər | 25.5% | - |
| Səhiyyə xidmətləri | 1.7% | - |
| Fiziki imkanları məhdud şəxslərin inteqrasiyasına yönəlmiş layihələr | 3.1% | - |
| Etnik azlıq nümayəndələrinin inteqrasiyasına yönəlmiş layihələr | 1.7% | 5.4% |
| Yaşlıların sosial-mədəni fəaliyyətlərə cəlb edilməsinə yönəlmiş layihələr | - | 5.4% |
| Qadınların gücləndirilməsinə yönəlmiş layihələr | - | 10.9% |
| Heç bir xidmətdən faydalanmamışam | 57.7% | 74.4% |
| Cavabdan imtina edirəm/cavab verməkdə çətinlik çəkirəm | 10.3% | 3.8% |

**Diaqram #40**




Vətəndaş cəmiyyəti barədə məlumatlı müsahiblərin əksəriyyətinin (77,6%) qiymətləndirməsinə görə, belə təşkilatların fəaliyyəti vətəndaşların tələb və ehtiyaclarına uyğundur (5 ballıq şkalada – 4 və 5 bal). Həmçinin, dörddə biri hesab edir ki, tam cavab verib (25,6%). Müsahiblərin yalnız 6,5% mənfi mövqe bildirib (1 və 2 bal) (Bax. Diaqram #41).

**Diaqram #41**




Regional sahədə ümumi tendensiya qorunur – Samtsxe-Cavaxetidə vətəndaş cəmiyyəti təşkilatları barədə məlumatlı olanların əksəriyyəti (90,9%) hesab edir ki, vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyəti vətəndaşların tələb və ehtiyaclarına uyğundur (4 və 5 bal). Kvemo Kartlidə bu mövqe dominantdır, ancaq göstərici 38,8%-ə qədər azalıb. Burada sorğuda iştirak edənlərin üçdə birindən çoxu (38,6%) məsələni neytral qiymətləndirir (3 bal) (Bax. Cədvəl #44).

**Cədvəl #44**

| Sizcə, vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyəti vətəndaşların tələb və ehtiyaclarına nə dərəcədə cavab verir? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=53) | Kvemo Kartli (N=18) |
|---|---|---|
| Heç cavab vermir | 1.4% | - |
| Daha çox cavab vermir | 1.7% | 16.6% |
| Həm cavab verir həm də yox | 4.4% | 38.6% |
| Daha çox cavab verir | 68.4% | 4.3% |
| Tam cavab verir | 22.5% | 34.5% |
| Cavabdan imtina edirəm/cavab verməkdə çətinlik çəkirəm | 1.7% | 6% |

Oxşar qiymətləndirməyə görə, vətəndaş cəmiyyəti təşkilatları barədə məlumatlı müsahiblərin 73,2%-nin bələdiyyədə olan vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətindən razı olması məntiqlidir (5 ballıq şkalada 4 və 5 bal). Narazı olanlar isə 4,2%-ə bərabərdir (Bax. Diaqram #42).

**Diaqram #42**




Kvemo Kartlidə vətəndaş cəmiyyəti təşkilatları barədə məlumatlı müsahiblərin əksəriyyəti (57,9%) bələdiyyədəki vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətinin qiymətləndirilməsi zamanı neytral mövqe göstərib. Samtsxe-Cavaxetidə qeyd olunan göstərici yalnız 8,8%-ə bərabərdir. Qeyd olunan regionda məlumatlı müsahiblərin 88,2% vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətindən razıdır. Kvemo Kartlidə yalnız 29,4% bu fikirdədir (Bax. Cədvəl #45).

**Cədvəl #45**

| Ümumiyyətlə, bələdiyyənizdə vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətindən nə dərəcədə razısınız? (Region konteksti) | Samtsxe-Cavaxeti (N=53) | Kvemo Kartli (N=18) |
|---|---|---|
| Heç cavab vermir | 1.4% | 6% |
| Daha çox cavab vermir | - | 6.7% |
| Həm cavab verir həm də yox | 8.8% | 57.9% |
| Daha çox cavab verir | 51.4% | 18.7% |
| Tam cavab verir | 36.8% | 10.7% |
| Cavabdan imtina edirəm | 1.7% | |

* * *

Keyfiyyət araşdırması çərçivəsində fokus-qruplar da göstərdi ki, iştirakçıların regionda fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları haqqında məlumatı azdır. Onlar Kvemo Kartli və Cavaxetidə fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatlarını qeyd etdilər. Kvemo Kartli sakinləri qadın hüquqlarını müdafiə edən təşkilatlar haqqında eşidiblər, çünki Kvemo Kartlidə qızların erkən evliliyi aparıcı məsələlərdən biridir. Həssas vəziyyətdə olan müsahiblər ehtiyacı olan ailələrə maddi baxımdan yardım edən təşkilatlar haqqında eşidiblər.

> *„Ninotsmindada "Sereks" təşkilatı barədə eşitmişəm. Xeyirxah işlər görürlər. Məsələn, yeni ildə bizim evə gəlmişdilər və aztəmiantlı ailə olaraq, körpə uşaqlarıma yeni il hədiyyələr gətirmişdilər" (44 yaşlı kişi, işsiz, etnik erməni, Ninotsminda).*

Ninotsmindada qeyri-hökumət təşkiları "Nuri" tanınır. Təşkilat yerli əhaliyə pulsuz tərcümə və hüquqi xidmət təklif edir.

Marneulidə vətəndaş cəmiyyəti təşkilatlarının gücləndirilməsində Marneuli Mülki Məşğulluq Mərkəzi öz töhfəsini verib. Mərkəz 2011-ci ildə təsis edilib və yerli təşəbbüs qrupları, təşkilatlara fəallıqlar planlaşdırmaq, keçirmək üçün məkan təklif edir. Marneulilər vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətinin mənfi tərəflərini də diqqətə yetiriblər və qeyd ediblər ki, bəzi təşkilatlara qarşı etibar səviyyəsi aşağıdır, çünki dini azərbaycanlı icmanı geridə qalmış kimi qəbul edirlər.

> *„Təşkilatlardan biri video yayımlamışdı və dini icma üçün bu qəbuledilməz oldu. Fəaliyyət göstərən zaman yerində mövcud olan vəziyyəti mütləq nəzərə almalıdırlar və daha az radikal olmalıdırlar" (29 yaşlı qadın, işləyən, etnik azərbaycanlı, Marneuli).*

Fokus-qrup iştirakçılarından biri qeyd edib ki, əhalinin müəyyən hissəsində vətəndaş cəmiyyəti təşkilatları hakimiyyətin müxalifət təşkilatları hesab olunurlar, ona görə də onlardan uzaqlaşmağa üstünlük verirlər. Münasibətin dəyişməsi və əhalidə təşkilata daha çox etibar yaranması mühümdür.

Tsalka və Qardabanidə aparılan fokus-qruplarda yerli vətəndaş cəmiyyəti təşkilatları ilə əlaqəsi olan adam olmadı. Ancaq Tsalkada Gürcü Dili Tədrisi və Abituriyentlərin Hazırlıq Mərkəzi qeyd olundu. Yerli sakinlər bu mərkəzdən faydalanır.

Bolnisidə aparılan fokus-qrupdan aydın oldu ki, bələdiyyədə bir çox fəal vətəndaş cəmiyyəti təşkilatı işləyir. Onlardan Bolnisi Gənclər Mərkəzi, Bolnisi Təhsil və İşlə Təmin Etməyə Dəstək və Yaşlılar üçün Təhsil Mərkəzləri qeyd olunub. Bu mərkəzlərdə işlə təmin edilməkdən əlavə gənclər toxuculuq və kulinariya biliklərinə sahib ola bilərlər. Qeyd edək ki, icma təşkilatları azərbaycanlı kəndlərdə əhaliyə gürcü dili tədris kursları təklif edir. Eləcə də müsahiblərin qeyd etdiyinə görə, Kazretidə "Qızıl Xaç" fəaliyyət göstərir. Təşkilat mövcud problemlər haqqında yerli hakimiyyətə məlumat verməyə çalışır.

Dmanisilərlə aparılan fokus-qruplarda əhali "Dmaniselebi" təşkilatını qeyd etdi. Təşkilat müxtəlif ehtiyacları olan ailələrə birdəfəlik maddi yardım göstərir – "Dmanisililər" təşkilatı ehtiyaclı insanlara – tək yaşayanlara və uşaqlara ərzaqla yardım edirlər. Mən də bu qrupu və hərəkatı alqışlayıram" (49 yaşlı kişi, işsiz, etnik gürcü, Dmanisi).

“Dmanisililər” xeyriyyə təşkilatıdır və səhiyyə, sosial ehtiyacı olan ailələrə yardım göstərir. Təşkilat yerli əhalidən və özəl sektordan ianə qəbul edir.

Tetritskarolu müsahiblər sonrakı vətəndaş cəmiyyəti təşkilatlarını qeyd etdilər – Koda İcma Təhsil Mərkəzi, Gənclər Mərkəzi, “Kodori 2013” və “Qarisi”. Fokus-qrup iştirakçılarının qeyd etdiyinə görə, Koda İcma Təhsil Mərkəzi səhiyyə istiqamətində də işləyir. Konkret olaraq, bələdiyyə mərkəzinə müxtəlif ixtisaslı həkimləri dəvət edirlər. Trenerlər dəvət edirlər və müxtəlif sahələrdə, mövzularda yerli sakinlərə təlimlər keçirlər.

Fokus-qrup iştirakçıları vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətini ümumilikdə müsbət qiymətləndirirlər. Ancaq istəyirlər ki, onların fəaliyyəti barədə, konkret olaraq, onların məqsəd və hədəf qrupları haqqında daha çox məlumat alsınlar. Fokus-qrup müsahiblərinin fikrincə, vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyəti ilk əvvəl əhalinin problemlərinin həllinə yönləndirilməlidir. Artıq qeyd olunduğu kimi, bələdiyyələrdə mövcud olan ağır sosial və iqtisadi vəziyyətin həlli əhali üçün mühüm əhəmiyyət daşıyır. Məhz bu istiqamətdə ictimai təşkilatla yerli əhaliyə yardım etməlidirlər. Məsələn, ixtisasın yüksəldilməsində kömək etsinlər. Bu qismən işsizlik səviyyəsinin azalmasına da dəstək olacaq. Kompüter texnologiyalarının tədrisi, rezyume hazırlamaq və motivasiya məktubları yazmaqda yardım etmək, eləcə də ictimai təşkilatların təmin edə biləcəyi xidmətlər var. Fokus-qruplara qoşulmuş şəxslər qeyd edirlər ki, ictimai təşkilatlara dəstək məktəb yaşlı uşaqlarda, eləcə də gənclərdə qeyri-formal təhsil almaq imkanlarını artırmaq baxımından da mühümdür. İştirakçıların bir qisminin qiymətləndirməsinə görə, yaxşı olar ki, vətəndaş cəmiyyəti təşkilatları mövcud problemləri həll etmək üçün bələdiyyə meriyaları və Bələdiyyə Məclisləri ilə işləməyi gücləndirsinlər, onlara yeni ideyalar və çıxış yolları təklif etsinlər.

# BAŞLIQ 13. MÜSAHIBLƏRIN BƏZI SOSIAL-DEMOQRAFIK XÜSUSIYYƏTLƏRI

Araşdırmada iştirak edən şəxslərin 52,7% qadın, 47,3% isə kişi idi. Müsahiblər sonrakı yaş qruplarına bölünüblər:

- 18-24 yaş - 13.1%;
- 25-34 yaş - 20.3%;
- 35-44 yaş - 15.7%;
- 45-54 yaş - 18.1%;
- 55-64 yaş - 15.6%;
- 65 yaş və yuxarı - 17.2%.

Sorğuda iştirak edənlərin böyük qisminin tam orta təhsili (43,6%), demək olar dörddə birinin ali təhsili (24,7%) var.

Ən yüksək təhsil səviyyəsi baza (10,7%) və ya peşə təhsili (16%) olanların xüsusi səviyyəsi onda birdən çoxdur (Bax. Diaqram #43).

**Diaqram #43**




Müsahiblərin böyük hissəsi milliyətcə gürcüdür (47,9%), etnik ermənilər (25,1%) və azərbaycanlılar (26,2%) demək olar eyni səviyyədə təmsil olunurlar. Araşdırmada başqa Qafqaz etnik qrup nümayəndələrinin (abxaz, os və s.) və ya rusun fərdi iştirakı müəyyən edilib.

Samtsxe-Cavaxeti və Kvemo Kartlidə mövcud olan sosial xidmətlərin əsas tədqiqatı